Zamanın sınağından çıxaraq bu və digər vəziyyətdə XX əsrə gəlib çıxmağı bacarmış bir çox memarlıq abidələrimizin 1930-60-cı illəri əhatə edən zaman kəsimində real təsvirlərini öz əsərlərində canlandırmış İ. P. Şeblıkin əvəzsiz işlər görmüşdür. İ. Şeblıkin 1884-cü ildə Voronejdə doğulmuş, 1886-cı ildə ailəliklə Tiflisə köçmüşlər. Yəni gözünü Qafqazla açmış, 1909-cu ildən Qroznıda, Vladiqafqazda müəllimlik etmişdir. Şeblıkin 1921-ci ildə Şimali Qafqaz Diyarşünaslıq İnstitutunun muzeyində işə dəvət edilir. Yeddi il Şimali Osetiyada muzey işi və xalçaçılığın tədqiqi ilə məşğul olan Şeblıkin 1928-ci ildən ömrünün sonunadək Azərbaycanda da eyni işləri davam etdirmişdir. Mədəni-tarixi önəm daşıyan memarlıq abidələrinin bərpa işlərini aparmaq üçün Azərbaycana dəvət olunan Şeblıkin Elmlər Akademiyasının Azərbaycan filialı yarandıqdan sonra A.Bakıxanov adına Tarix İstitutu, N. Gəncəvi adına Azərbaycan Ədəbiyyat Muzeyi, eləcə də Azərbaycan Mərkəzi Abidələrin Mühafizəsi İdarəsində çalışmışdır. Bu müddət ərzində Azərbaycanın bölgələrinə göndərilən ekspedisiyaların tərkibində yer almış, arxeoloji qazıntı və bərpa işlərində fəal iştirak etmişdir [6].

Şeblıkin abidələri təkcə bir alim kimi öyrənmir, güclü rəssamlıq istedadı olduğundan eyni zamanda onların təsvirini yaradırdı. Dərbənd, Şuşa, Gəncə, Şəmkir şəhərləri, Naxçıvan, Qarabağ və Qazax bölgələri memarlıq abidələrinin təsvirini bu mühüm işlərin gedişində işləmişdir. O, Azərbaycanın müxtəlif bölgələrində qeydə alınmış orta əsr tikililərini təsvir edən çoxlu sayda və elmi dəyərini bu gün də qoruyub saxlayan rəsmlər çəkmişdir [5].

"Bakı Şirvanşahlar sarayının qısa tarixi oçerki" (Bakı, 1939), "Nizami dövrü Azərbaycan memarlığı abidələri: materiallar" (Bakı, 1943), "Azərbaycan memarlığı: Nizami dövrü" (Bakı, 1947) kitabları onun Azərbaycanın orta əsrlər tarixi və memarlığına dərin elmi marağının olduğunun göstəriciləridir. Ömrünün 46 ilini Azərbaycanda keçirən İ. Şeblıkin elmi fəaliyyəti ərzində Azərbaycanın bütün bölgələrini gəzərək cox sayda abidənin indi bizim üçün bir tarix olan rəsmlərini çəkmişdir. 1943-cü ildə nəşr olunan "Nizami dövrünün Azərbaycan memarlıq abidələri" kitabında əsasən XII - XIV əsrlərə aid çox sayda memarlıq abidəsinin təsviri yer alır. Bununla yanaşı kitabda bəzi qrafik təsvirlər də yerləşdirilmişdir. Bu məqalədə alim və rəssamın Qarabağ bölgəsinə aid rəsmlərindən söhbət açacayıq. Onun bu bölbəyə aid təsvir etdiyi bir neçə abidələrinin haqqında məlumat verəcəyik.

Belə ki, "Şeyx Babı türbəsi" vahid üsluba malik xatirə tikililəri qrupuna aiddir (İ. P. Şeblıkin. Fizuli rayonu. "Şeyx Babı türbəsi". XII əsr.) [4,c.243]. Bürc tipli səkkizbucaqlı məqbərə, üst hissə üzlük daşla örtülmüş şəkildə təsvir edilib. Kürsülik hissəsi, giriş portalı və hündür konus formasında olan qünbəzi bişmiş kərpic materialı ilə tikildiyi vurğulanır. Rəssam məqbərəni daş rəngində, daha çox sarı tonlarda işləyib. Üzərində oyma-kəsim işləri aparılan üzlük plitə daşlar təsvir edilən abidəyə xüsusi ifadəlilik verir. Divar müstəviləri kürsülükdəki yaxşı işlənmiş relyefli rozetlərin ritmi, dərin olmayan pilləli tağlar və hörgü tikişləriylə canlandırılmışdır. Azərbaycan memarlıq tarixi Orta əsrlər memarlığı (XII-XIV əsrlər) [1,s.188]. Qübbəli dam örtüyü tamamən ot və çalılarla örtülmüşdür.Ətrafında kiçik daşlardan düzbucaqlı formasında qəbirlər vardır [İll. 1].

Yeri gəlmişkən, bu tarixi-memarlıq abidəsinin tədqiqi ilə XIX-XX əsrlərdə başqa rus alimləri də məşğul olmuşlar. Orta əsrlər dövrünün məşhur tədqiqatçı A.Brozqula və akademik T.Roskovski öz araşdırmalarında Şeyx Babı Yaqub türbəsinin XII əsrə aid olduğunu göstəriblər. Daha sonra rus tədqiqatçılarından professor V. Kraçkovskaya da bu türbə ilə bağlı araşdırma aparıb və onun XIII əsrə aid olduğunu bildirmişdir. 1930-cu illərdə şərqşünas alim M. Xanikov da Babı türbəsini tədqiq edib [6]. Öz növbəsində Şeblıkin də bu abidənin təsvirini vermişdir.

XX əsrin ikinci yarısında rus tarixçiləri ilə bərabər, Azərbaycan alimləri də (Ə.Salamzadə, Ş.Fətullayev, M.Nemət, K.Məmmədzadə) Şeyx

Babı Yaqub türbəsinin tədqiqi ilə bağlı araşdırmalar aparıblar. Onların da elmi qənaətinə görə, türbə Naxçıvan (Əcəmi) memarlıq məktəbi üslubunda inşa edilmişdir [3].

Şəkil 1. P. Şeblıkin. Fizuli rayonu. "Şeyx Babı türbəsi". XII əsr. 30x 42sм. kağız, sulu boya. TF №, 226.1937.

Füzuli rayonunun Aşağı Veysəlli kəndindəki bürc tipli bu türbə (İ. P. Şeblıkin. Fizuli rayonu."Mir Əli türbəsi". XIII-XIV əsr) Azərbaycan memarlıq tikililərindən sayılır. Rəssam bu rəsmdə əlvan rəngli sulu boya ilə bürc tipli yuvarlaq bir türbə təsvir etmişdir. Türbə açıq rəngli üzlük daşla üzlənmişdir. Nəhəng silindrik formaya malik məqbərə kürsülük hissənin ustündə insa edilib. Gövdə hissəsində giriş portalı vardır. Gövdə ilə başındakı konus şəkilli günbəzi aradakı bəzəkli kəmər birləşdirir. Kürsülük hisəsi, giriş portalı, habelə tikilinin yüksək konusşəkili günbəzi qırmızı rəngli bişmiş kərpicdəndir [Ill.2].

1937-1941 -ci illərdə Qarabağa səfər edən İvan Şeblıkin, Qarabağ abidəsi - Əsgəran qalasını təsvir edib (İ.P. Seblıkin. "Əsgəran Divarları" 1935. 32 x43,5 sm, kağız, suluboya, IF No 234). Bu təsvirdə dördbucaqlı qüllələrlə möhkəmləndirilmiş və aşağıdan çay sahilindən təpəyə qədər uzanan uzun bir qala divarı aydın görünür [Ill.3].

Şəkil 2. İ.P. Şeblıkin. Fizuli rayonu. Mir-Əli Türbəsi. 26x34 sm, kağız, sulu boya. 1934. TF №171.



Şəkil 3. İ.P. Seblıkin. "Əsgəran Divarları" 1935. 32 x43,5 sm, kağız, suluboya, IF No 234

Təsvirin ön hissəsində qala divarında dağılmış tağbənd və əzəmətli dördbucaq şəklində olan bürc görünür. İndi Əsgəran qalası Ermənistanın işğal etdiyi ərazidə yerləşir.

Azərbaycan ərazisində müxtəlif dövrlərə aid çoxlu sayda tarixi abidələr var. Bu və ya digər səbəbdən bu abidələrdən bəziləri bu günə qədər bərbad vəziyyətdə qalmışdır. Bu cür abidələrin bərpası yazılı və illüstrasiyalı mənbələrin tədqiqi əsasında həyata keçirilə bilər (və qismən artıq aparılır). Bu baxımdan abidələrin əvvəlki görünüşünü öz gözləri ilə görənlərin və şəkillərini nəsillərinə qoyanların çəkdiyi rəsm və eskizlər əvəzsizdir.

Ədəbiyyat:

1. Məmmədova G., Məmmədova Z.,Orta əsr memarlığı (VIII-XIV əsrlər) II cild. Bakı-2013,
2. Şeblıkin İ.P., Azərbaycan memarlığı: Nizami dövrü" Bakı, 1947
3. Şeblıkin İ.P., Nizami dövrü Azərbaycan memarlığı abidələri: materiallar" Bakı, 1943
4. Усейнов М., А.Саламзаде, Л.Бретаницкий. История азербайджанской архитектуры. М., 1963
5. https://az.wikipedia.org/wiki/İvan_Şeblıkin14:27 10.09.2021
6. https://az.wikipedia.org/wiki/Şeyx_Babi _türbəsi

L. Mammadkarimova

Monuments of Karabakh in the works of the Russian artist I.P. Sheblikin

Keywords: I.P. Sheblikin, Karabakh monuments, painting, architecture, image

The author's article includes a large number of paintings by the Russian artist I.P. Sheblıkin, which depict medieval buildings recorded in different regions of Azerbaijan, which still retain their scientific value; - Includes descriptions of the monuments of Karabakh, as well as interesting information about architectural monuments of great scientific interest.

Л. Мамедкаримова

Памятники Карабаха в творчестве русского художника И. П. Шебликина

Ключевые слова: И.П. Шебликин, Карабахские памятники, живопись, архитектура, изображение

Статья автора включает большое количество картин русского художника И.П. Шеблыкина, на которых изображены средневековые постройки, зафиксированные в разных регионах Азербайджана, которые до сих пор сохраняют свою научную ценность; - Включает описания памятников Карабаха, а также информацию об архитектурных памятниках, представляющих большой научный интерес.

Nəsib Zeynalov

AMEA-nın Memarlıq və İncəsənət İnstitutu,
elmi işçi
nasibzeynal@gmail.com

UOT: 72.03 (09)

MÜQƏDDƏS VƏFTİZÇİ İOHAN KİLSƏSİNİN BƏRPASI

Xülasə:Məqalədə bəhs olunan məsələ əsrlərin sınağından çıxmış kilsə onun memarlıq və tarixi kimliyi haqqındadır. Məqalənin qələmə alınış qayəsi mövcud artefaktlar reallığında kimliyi və memarlıq siması falsifikasiyaya uğrayan XVIII-XIX əsrlərə aid mədəni irsi abidəmizin bərpası məsələsi belə burada ətraflı işıqlandırılmışdır.Şuşadakı Rus Pravoslav kilsəsi üzərində 30 illik işğal zamanı üzdəniraqlar tərəfindən müxtəlif dərəcəli dəyişikliklərin aparıldığı təsbit edilərək bərpa layihəsində aradan qaldırılmış bu məsələlər qeydə alınan məqalədə də vurğulanmışdır.

Açar sözlər:bərpa, tarix, memarlıq, abidə, kilsə, məbəd, pravoslav

Giriş. Memarlıq plan xüsusiyyətlərinə görə pravoslav kilsəsi olması barəsində mübahisəli müzakirələr aparılmış aşağıda təfsilatlı araşdırılan Şuşadakı Rus Pravoslav kilsəsinin həm tarixi kimliyi, həm də rus ortodoks kanonlarına əsasən bərpası nəzərdə keçirilmişdir.

Tarixi arayış. Səhvən adının Qız monastrı olaraq dövlət tərəfindən mühafizə olunan abidələrin siyahısına düşən, inşa tarixi (XVIII-XIX əsrlər) ilə bağlı şübhəli məqamlar doğuran, lakin xristian icmaları tərəfindən mənimsənilərək tarixi müəyyən qədər saxtalaşdırılan kilsənin adı Müqəddəs Vəftizçi Yuhən(a) kilsəsi və ya Müqəddəs Vəftizçi İohan kilsəsidir. [3]

Bu kilsəni üzdəniraq qonşularımız zamanla yaşıl rəngli günbəzinə və qübbəsinin olmasına görə "yaşıl kilsə" və ya "yaşıl saatlı kilsə/ yaşıl zəngli kilsə" olaraq adlandırıraq özlərinə aid edirlər. Əslində isə yaşıl rəngli günbəz ortodoks inancına görə Müqəddəs Üçlüyə həsr olunmuş məbədləri taclandırır, çünki yaşıl rəng Müqəddəs Ruhun rəngidir. Dahası müqəddəslərə həsr olunmuş məbədlərdə günbəzlər bir çox hallarda yaşıl rənglə bərabər boz və ya gümüşü də ola bilər. [4]

Ortodoks olan pravoslavlarda da yaşıl günbəzli kilsələrin və ya yaşıl çalarlara boyanan məbədlərin qübbəsi "Müqəddəs üçlüyə" həsr olunmuşdur. Belə ki, pravoslavlıqda yaşıl "Müqəddəs Ruhu" simvollaşdırır. [1] Əgər kilsə müqəddəslərdən birinə həsr olunmuşsa, onun günbəzləri də yaşıl rəngə

boyana bilər. Müqəddəslərə həsr olunmuş məbədlərin gümüşü və ya boz günbəzlərinə də rast gəlinə bilər.

Şəkil. 1"Rus kilsəsi"nin tarixi fotosu, Şuşa şəhərinin siluetində

Xristian zəvvarlara görə isə hamı tərəfindən qəbul edilən sferik formalar və ya günbəzlər "əbədiyyətin" simvolu, lakin dəbilqəyə bənzər (şişəkvari) günbəzlər isə Allah yolunda tam yaraqlanmağın (silahlanmağın) vacib olduğunu xatırladır. Adətən tək sayda günbəz "Tanrının vəhdətini", iki ədəd olduqda isə "həm insani, həm də Xilaskarın İlahi mahiyyətini", üç ədəd olduqda isə "Müqəddəs Üçlüyü" simvolizə edir. Bütün bu deyilənləri nəzərə aldıqda kilsənin ortodoks inancına sahib rus pravoslav icmasına aid olmasına şübhə yeri qalmır. [2]

Belə ki, son zamanların informasiya texnologiyalarında maraqlı bir inkişaf tendensiyası ilə ortalığa çıxan proqram təminatları rəsm, foto redaktə etmədə və onun üzərində müxtəlif analizləri aparmağa imkan verməkdədir. Bu mütərrəqi proqramlar ənənəvi və müasir süni intellekt əsaslı olmaqla iki yerə ayrılmışdır. Süni intellektə dayanan internet texnologiyası üzərində işləyən resursların köməyi ilə ağ-qara fotoların, çoxlu rəng seqmetinə keçirilməsi mümkündür. Belə ki, kilsəyə məxsus ağ-qara fotonun rənglənməsini həyata keçirməklə biz binanın rəngli fotosunu almış olduq. Lakin burda maraqlı məqam kilsənin çadırvarı günbəzinin, nə də sferik günbəzinin üzdəniraq qonşularımız deyən kimi yaşıl rəngli olması ilə adının ermənilərdirilməsi məsələsi özünü doğrultmadı. (Şəkil. 2) Nəticəyə əsasən kilsənin çadırvari günbəzi qırmızı rəng tonlarında özünü biruzə verdi. Aşağıda solda orijinal ağ-qara foto, sağda isə rənglənmiş foto verilmişdir.



Şəkil. 2 "Rus kilsəsi"nin süni intelekt əsaslı proqramlar vasitəsi ilə rəngləndirmə analizi.

Maraqlı görünüşü olan, indiyə kimi yaxşı qorunan kilsə, şəhərin qərb amfiteatrında yüksək yerdə inşa edilmişdir. Binanın üzərinə sonradan mənfur qonşularmız tərəfindən vurulan kitabəsinə görə bina 1847-ci ildə inşa edilmişdir. Bu kilsənin memarlığında, onun quruluşunu müəyyən dərəcədə zənginləşdirən erməni kilsəsinə xas olmayan memarlıq detalları diqqətləri özünə çəkir.

Yuxarıya doğru qalxan incə günbəz və zəng qülləsi sayəsində kilsə, şəhərin demək olar ki, dörd bir yerindən aydın görünür. Kilsə şərq-qərb oxunda, xaçvari plan quruluşunda tikilmişdir.Yan tərəfdən relyef səviyyəsinin aşağıya doğru enməsi nəticəsində xarici, yəni şərq fasad yarımdairəvi şəklində həll edilmişdir. Kilsənin özü altar apsidası ilə seçilir. Bu hal və abidəni oxşar erməni kilsə memarlıq tikililəri arasındakı zəng qülləsinin orijinal daxili dekorasiyası fərqləndirir.

Kilsənin qərbinə, girişinin üst hissəsində həkk olunmuş, sonradan tikilən çadırvarı günbəzli zəng qülləsi əlavə edilmişdir: Zəng qülləsi kilsəyə üzvi şəkildə assimilyasiya olunsa da, hörgü ilə ondan bir qədər irəli çıxarılaraq onu kilsədən ayırmışdır. Kilsə daxilində iki zal biri digərindən pilyastrlar vasitəsi ilə ayrılmaqdadır. Birinci salonda çilçıraqlar və ya şamdanların qoyulması üçün taxçalar, ikinci düzbucaqlı salonda isə dəbdəbəli yarımdairəvi (sferik) günbəz, yaxşı işləmə ilə yonulmuş divarlar nəzəri cəlb edir.Bu kilsədə bir sıra memarlıq elementləri diqqət çəkir. Belə ki, qriqorian məbədi üçün xarakterik olmayan günbəzlər, müqayisə olunmaz böyük açırımlar, altar ətrafına endirilən girinti-çıxıntılar, yarımdairəvi şərq fasad və.s. Həmçinin günbəzə bağlı nəzərə çarpan memari yenilklər kilsənin bədii dəyərini zənginləşdirmiş və daha da əhəmiyyətli etmişdir. Buraya hündür, yaşıl fəza elementi ilə yanaşı, qaymağı və kətani rəngli ehtiyatla yonulmuş və cilalanmamış daşların görünüşünü də əlavə etsək, abidənin şəhərin miqyası və görünüş inkişafı baxımından müəyyən təşkilati rolunun

olduğunu təxmin etmək çətin deyil. Məbəd şəhərin demək olar ki, bütün yaşayış məhəllərindən yaxşı görünür. Bu vəziyyət kilsənin zəng qülləsinin aydın şəkildə günbəz həllinə diktə edərək dini tikilinin üzərində müəyyən təsirlər göstərdi.

Sovetlər dönəmində sanatoriya və rekreasiya korpusları ilə əhatə olunmuş kilsə mineral suyun içilməsi üçün ekspozisiya salonuna çevrilmişdi. Nəticədə abidəyə müəyyən ziyan dəymişdir. Xüsusilə altara qoyulmuş böyük dəmir çən tamamilə oranı bağlanmış və altarın salondan fiziki olaraq aralanmasına gətirib çıxarmışdır. Qərbdə, zəng qülləsinin əsas giriş pilləkənləri dağılmış, şimal fasadında abidə üçün yararsız yeni pilləkənlər tikilmişdir və bu da mərkəzi pəncərənin stilini və divarını dağıtmaqda idi. Su anbarından tez-tez tökülən mineral su altarı aktiv nəmlənməyə sövq etdiyindən, nəticə kimi divardan sızmaqla həyətə axmaqda idi. Sovet illərində digər abidələr kimi bu kilsədə təyinatından fərqli olaraq istifadə edilmişdir Hətta sovetlərin son illərində binanın kilsə kimi deyil, mineral sular qalereyasına çevrilərək ekspozisiyaya təqdim edilməsi kimi addımlar atılmışdır. Kilsə son illərdə ermənilər tərəfindən yenidənqurmaya məruz qalmış, 1995-ci ildən qriqorian kilsəsi kimi fəaliyyət göstərmişdir.

Sonda bu kilsə haqqında dövrü mətbuatda çap olunmuş bir neçə fikri nəzərlərə çatdırmaq istəyirik:

Sitat -1: Şuşadakı bu rus kilsəsi haqqında "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması"İctimai Birliyinin idarə heyətinin Azərbaycanda fəaliyyət göstərən dini icmaların rəhbərləri ilə görüşündə müzakirədə məlumat verib. Beləki, Şuşanın köhnə fotoşəkillərində günbəzli və zəng qülləsi olan bu kilsənin biçimi açıq şəkildə görsənir. Bildiyiniz kimi günbəzlər erməni ənənəsinin bir hissəsi deyil və bu səbəbdən də məbəd ermənilərşdirildikdən sonra günbəz sivri "günbəzlə" ilə əvəz olunmuşdur.

Sitat -2: Rus Pravoslav Kilsəsinin Bakı və Xəzər Yeparxiyasına ibadətgahının (altarının) görünüşünə müdaxilə etmək niyyəti barədə heç bir məlumat verməyiblər, hansı ki üzdəniraqlar altarın görünüşünə və hündürlüynə dəyişiklik ediblər. Bunu yeparxiyanın mətbuat katibi, baş keşiş Konstantin Pominov söyləmişdir.

Sitat -3: Şuşa sakini, jurnalist Kərim Kərimli isə bildirib ki, Sovet dövründə yerli sakinlər kilsənin adına Rus kilsəsi deyildiyini xatırlayır. Şəhər sakinlərindən (Şuşalılardan) isə onun haqqında soruşanda "Rus kilsəsi" hasarın arxasındakı "Şuşa" sanatoriyasının ərazisində yerləşdiyini istinad verdiyini xatırladır.

Bərpa işləri: Kilsənin orijinal günbəzinin və zəng qülləsinin çadırvari örtük konstruksiyası daxil olmaqla, altarına yaxın səviyyədə cənub, şimal fasad divarlarında olmaqla üzbəüz qapı açırımının açılmasını, sonradan açılmış qapı açırımının isə bağlanaraq, pəncər açırımına çevrilməsi ilə

killsənin öz tarixi görkəminə qaytarılması əsasında ilkin bərpa eskiz layihəsi hazırlanmışdır.



Şəkil. 3 "Rus kilsəsi"nin altar önü hissəsi

Yuxarda bərpa layihəsində təklif edilən cənub, şimal fasad divarlarında olmaqla üzbəüz qapı açırımının açılması orijinal rus pravoslav kilsəsinin pozulmaz planlaşdırma kanonudur. Yan fasadlarda ümumilikdə iki ədəd olan ikinci dərəcəli çıxış qapılarının var olması Ceymis Bosbotinis tərəfindən redaktə edilmiş 2015-ci ildə Moskvada çap edilən «Şuşanın dirçəlişi» kitabçasında verilmiş fotodan da gömək mümkündür. Beləki, müəllifi V.Gabrielyana aid olan fotoda üzdəniraqların «Yaşıl kilsə» adlandırdıqları Müqəddəs Vəftizçi İohan kilsəsinin iç məkanından altar və bəhsi keçən qapı açırımı istiqamətdə müəyyən bucaq altında foto fraqmentdən də ayində iştirak edənlərin fərqli hərəkət istiqamətində durması və sanki altara doğru hərəkətin həmin qapı açırımında olduğu hiss edilir. (Şəkil. 3) Bundan başqa bu açırımın proporsiya ölçülərinin iri olması onun məhz döşəmədən başladığını bizə söyləyir.Digər bir məqam isə iç məkanda bu açırımın cinahlarının dayandığı divarda fərqli hörgü tikişlərinin olduğu müşahidə edilməkdədir. Bu cür halın meydana gəlməsi bu hissə açırımın və ya boşluğun bağlanması zamanı atıldığını bizlərə sübut edir.

İzahat yazısı. Bərpa olunacaq Şuşa şəhərində yerləşən abidə provaslav kilsəsi olub 19-cu yüzildə çar Rusiyasıın Qarabağ xanlığını işğal etdikdən sonra tikilmişdir. Qarabağa hayların (erməni) ruslar tərəfindən köçürülüb məskunlaşdırmalarından sonra, başqa abidələrdə olduğu kimi, onlar tərəfindən kilsəyə zaman-zaman dəyişikliklər edilərək qriqoryanlaşdırmağa çalışmışlar.

- provaslav kilsə planlaşmasına uyğun olaraq əsas girişdən əlavə olaraq, altar hissəyə çıxan, sağ və sol tərəflərdə yerləşən qapı açırımları pəncərələrə çevrilərək qriqoryan kilsəsinə uyğunlaşdırmağa cəhd edilmişdir. Bu köhnə fotolarda və kilsənin hazırkı durumunda (hörgü tikişilərində bu qondarma iş aydın görünür). Eskiz layihəsində bu qapı açırımlarının öz yerinə yenidən bərpası nəzərdə tutulur.

- zəng qülləsinin, mərkəzi salonun üzərində yerləşən baraban və örtükləri son savaşlar (27 sentyabr - 10 oktyabr 2020-ci il) zamanı haylar tərəfindən kilsədə etdikləri dəyişikliklərin izlərini itirmək məqsədi ilə yaxın məsafədən bilərəkdən dağıdılmışdır. Baraban və örtüklərin kohnə foto və arxiv materiallarına əsasən bərpası nəzərdə tutulur.
- fasadlar və interyerdə hay dilində yazı və xaç işarələri hörgünün daş üzlük hissələrinə yerləşdirilmişdir. Abidə bu qondarma əlavələrdən tamamilə təmizlənməlidir.

Şəkil. 4 "Rus kilsəsi”nin bərpa layihəsindən sonrakı üç ölçülü təsviri.

Nəticə. Mədəni irsin qorunmasında zəruri ilkin addım abidənin ilkin funksiyasına qaytarılması yolu ilə bərpa edilməsidir. Əsas prinsiplərdən hesab olunan orijinallığın saxlanılması yolu ilə abidənin itirilmiş xüsusiyyətlərinin uyğun memarlıq məktəbi kanonları və bərpa praktikası əsasında dəyərləndirilmişdir. Mövzu bəhs olan bu kilsənin tarixi-memarlıq kimliyinin özünə qaytarılması əsas məqsəd kimi bu araşdırmada və praktik layihədə öz əksini tapmıştır.

Ədəbiyyat:

1. Бобков К.В., Шевцов Е.В. Символ и духовный опыт православия. М., 1996. С.
2. Кудрявцев М., Кудрявцева Т. Русский православный храм: Символический язык архитектурных форм // К Свету. 1994. № 17. С. 60
3. Лулукян Н.С.. Методы реконструкций храмовой архитектуры на территории нагорно-карабахской республики. Вестник юургу. с
4. Православные храмы и комплексы пособие по проектированию и строительству (к сп 31-103-99) мдс 31-9.2003. москва 2003

N. Zeynalov

Restoration of Saint John the baptist church

Key words: restoration, history, architecture, monument, church, temple, Orthodoxy.

The issue discussed in the article is about the architectural and historical identity of the church, which has stood the experiment of time. The article deals in detail with the restoration of our cultural heritage monument of the XVIII-XIX centuries, whose identity and architectural image were falsified in the reality of existing artifacts. Issues were also highlighted in the recorded article.

Н. Зейналов

Восстановление церковь святого Иоанна крестителя

Ключевые слова: реставрация, история, архитектура, памятник, церковь, храм, православие.

В статье рассматривается вопрос об архитектурно-исторической идентичности храма, выдержавшей испытание временем. В статье подробно рассматривается реставрация памятника культурного наследия XVIII-XIX веков, идентичность и архитектурный образ которого были сфальсифицированы в реальности существующих артефактов. проблемы также были освещены в записанной статье.

Nigar Ramazanova

"Memarlıq abidələrinin qorunması
və bərpası problemləri" k.e.i

UOT: 726.7

AZƏRBAYCAN MEMARLIĞINDA ERMƏNİ VANDALİZMİ

Xülasə. Tarixi abidələr xalqın keçmişini işıqlandıran, onun yaddaşını təzə saxlayan canlı arxivdir. Ermənilərin 30 ilə yaxın bir müddət ərzində tarixi-dini abidələrimizə qarşı vandal təcavüzü çox ağır nəticələrə səbəb olmuşdur. Azərbaycanın coğrafi ərazisi 1813-ci ildə olan məlumata əsasən 410 min kv.km., 1991-ci il məlumatına əsasən isə 86,6 min.kv. km-dir. İşğal altında olan ərazilərdə təxminən 403 tarixi abidələ qeydə alınmışdır. Onların bəziləri tamamilə yararsız hala salınsa da, bu ərazilərdə qalan qədim alban kilsələrini "ermənileşdirməyə" çalışsalar da buna müvəffəq ola bilməyəcəklər. Tarix öz sözünü deyir və dövlətimiz bu sahədə mühüm rekonstruksiya və yenidənqurma işləri aparır.

Açar sözlər: Azərbaycan, tarixi, dini, abidə, alban, türbə, monastır, qala

Bildiyiniz kimi, 27 il ərzində Azərbaycan torpaqlarının 20 % hissəsi Ermənistanın işğalı altında idi və nəhayət ki, doğma torpaqlarımız 2020 -ci il noyabrın 25 -də işğalşılardan azad edildi. Bu illərdə qədim Azərbaycan məscid və ziyarətgahları dağıdılmış, Azərbaycan tarixinin Albaniya dövrünə aid məbəd və monastırları ermənileşdirilmişdir. Azərbaycan ərazisində Qafqaz Albaniyası qədim dövlət olmuş, e.ə. II əsrin sonu - I əsrin ortalarında Qafqaz Albaniyasının işğal etdiyi ərazi də Arran adı ilə məşhur olmuşdur. Paytaxt müxtəlif vaxtlarda Qəbələ və Bərdə şəhərləri olmuşdur. Qafqaz Albaniyasında xristianlıq IV əsrdə qəbul edilmişdir. İslam VII əsrdə meydana çıxmışdır. Azərbaycan ərazisində çoxlu sayda alban məbədləri qalmışdır.

Xudavəng monastır (şəkil 1) kompleksi Qafqaz Albaniyasının qədim sivilizasiyasının ən yaxşı nümunələrindən biridir. Xudavəng qədim alban dilində "Tanrının məbədi " deməkdir. Monastır rayonun Vəng kəndi ərazisində, Tərtər çayının sol sahilində, Kəlbəcər rayonunda Kiçik Qafqaz dağlarının meşəli cənub yamaclarında 1100 m yüksəklikdə yerləşir.Abidə VI -VII əsrlərdə tikildiyi iddia olunur. Bu barədə monastırın ərazisində arxeoloji qazıntılar zamanı əldə edilmiş məlumatlar vardır. Əfsanəyə görə, monastır

ilk xristian missioner, Müqəddəs Apostol Faddeyin dəfn olunduğu yerdə onun xatirəsinə ehtiram olaraq inşa edilmişdir.

Şəkil.1 Xudavəng monastır kompleksis

Lakin hazırda mövcud olan monastır kompleksi IX-XIII əsrlərdə tikilmişdir. Tikintinin başa çatdırılması Alban knyazı Vaxtanqın oğlu Həsən Cəlalın və Mina Xatunun hakimiyyəti dövründə həyata keçirilmişdir. Vaxtanqın həyat yoldaşı Arzu Xatun 1214-cü ildə həyat yoldaşı Vaxtanq və iki oğlunun xatirəsinə bu kilsəni tikdirir. Bu kompleks qədim kilsədən (ətrafında kompleks tikilmişdir), Arzu Xatun məbədindən, Həsən Cəlal məbədindən, Müqəddəs Məryəm Bazilikasından (Allahın Müqəddəs Anası), iki ibadətgahdan və zəng qülləsindən ibarətdir. Şərq fasadında Şahzadə Vaxtanq, cənubda Arzu Xatunun iki oğlunun təsvirləri var.

Qeyd etmək lazımdır ki, Arzu Xatun, Tursun, Seyti, Həsən, Afaq, Şəms, Altun, Ağbux, Qaragöz və başqalarının Xudavəngin divar kitabələrində adları çəkilir ki, bu da monastırın ermənilərə heç bir aidiyyatı olmadığını sübut edir.

Arzu-Xatun kilsəsi monastır həyətinin şərq hissəsində yerləşir. Kilsənin əsas qapısından qərbdən şərqə doğru dini və ictimai tikililərdən ibarət uzun bir dəhliz (“prospekt “) uzanır. Kilsə divarında 19 sətirdən ibarət uzun kitabədə Arzu-Xatun və onun ziyarətgahının təməli haqqında ətraflı məlumat verir.

Monastırın əsas binaları daş divarla hasarlanıb, köməkçi binalar kompleksin cənub hissəsində yerləşir. Monastırın qədim kilsəsi şimal - şərq hissədə yerləşir, düzbucaqlı formadadır. Qərbdən və cənub -şərqdən olmaqla iki girişi var. Girişlər ornammentlərlə bəzədilmişdir. İndi mövcud olmayan gövdə hissə üç cüt pilyasterə söykənirdi. Görünən ilk kilsə cənubdan başqa bir qədim, lakin daha kiçik bazilika ilə bitişikdir. Kilsənin ibadət zalı divarla iki bərabər hissəyə bölünmüşdür. Şərq hissə boşluqları və dərinliyi olmayan

düzbucaqlı bir otaqdan ibarətdir, görünür bu hissə vestibül kimi xidmət etmişdir. Qərb yarısında üç cüt pilyaster var.

Kompleksin özü o dövrün bir çox digər alban məbədləri kimi güclü qala divarları ilə qorunur. Binaların tikintisində Tərtər çayının sahillərindən gətirilən yerli təbii materiallardan - qara bazalt, yandırılmış kərpic, əhəng məhlulundan və daşlardan istifadə olunmuşdur. Tavan səliqə ilə kirəmitlə və işlənmiş daşla örtülmüşdür. Məbədin tikintisində ağacdan hazırlanmış materiallardan da istifadə olunmuşdur. Binaların divarları yağlı boya ilə çəkilmiş çoxsaylı rəsm və yazılarla bəzədilmişdir. Abidənin ümumi uzunluğu 16,2 metr, eni isə 5,8 metrdir.

Gəncəsər monastırı

Azərbaycanda Qafqaz Albaniyası dövrünün abidələrinin əksəriyyəti öz ilkin formasını qoruyub saxlamış və dövrümüzə qədər gəlib çatmışdır. Bu abidələr arasında dövrümüzə qədər gəlib çatmış Alban məbəd memarlığının ən gözəl nümunələri bunlardır: Kəlbəcər rayonunda Xudavəng monastır kompleksi (XIII əsr), Laçın rayonunun Kosalar kəndində Ağoğlan məbədi (IX əsr), Ağdərə (IV əsr) rayonunda Müqəddəs Yelisey məbədi, Ağdərə kəndindəki Gəncəsar (XIV əsr) məbədi (şəkil 2) və s.



Şəkil.2 Gəncəsər monastırı

Bu məbəd Kəlbəcər bölgəsində yerləşən XIII əsrə aid Xristian Alban monastırıdır. Monastır orta əsrlərdə Alban Avtokefal Kilsəsinin mərkəzi qərargahı idi. Məbədin daş divarındakı epiqrafik yazılardan məlum olur ki, bina 1216-1238-ci illərdə Artsax ölkəsinin Ali və böyük hökmdarı, Albaniya kralı Həsən Cəlal Dovlanın anası Horişə Xatun tərəfindən tərəfindən tikilmişdir. Bu məbəd 1511-1836-cı illərdə Rusiya Sinodunun (ruhani idarəsi) rəsmi qərarı ilə Alban avtokefal kilsəsi ləğv edilməzdən əvvəl Alban

xristianlarının diofizitlərinin (Həztət İsanın ilahi olmasına inanmaq) iqamətgahı olmuşdur. Həsən Cəlal nəslinin bir çox nümayəndəsi bu Alban din məbəd kompleksində dəfn olunmuşdur. Hündür qala divarları ilə əhatə olunmuş Gəncəsər kompleksinə alban xristian memarlığı üslubunda inşa edilmiş baş kilsə, ona bitişik monastır binası və qala divarlarına içəri tərəfdən hörülmüş tikililər daxildir. Monastır kompleksinin memarlıq üslubu və diofizit xarakterli elementlər bu abidənin çoxəsrlik ənənələri Qafqaz Albaniyası memarlığına aid olduğunu təsdiq edir. Uzun müddət yerli xristianların iqamətgahı olmuş monastır Gəncəsər adlanmışdır. On altıbucaqlı barabanda təpələri sütun valları ilə bərkidilmiş üçbucaqlı dayaqların ritmik növbələşməsi ilə plastik şəkildə həll edilmiş heykəllər vardır. Qərb tərəfdə başları üzərində məbədin modelini saxlayan olan olan peditorlar yerləşir. Qərbə baxan pəncərədən yuxarıda Qüllə, cənubda Müqəddəs Məryəm körpəsi ilə, pəncərə kənarlarında üzərində quş uçan, diz çökmüş iki qadın fiquru yerləşdirilib. Şərqə baxan pəncərənin üzərində iki öküz başı var, şimala baxan pəncərənin üstündə isə yalnız ornament , pəncərənin yanında isə qanadları açılmış iki quş fiquru var.

Gözə çarpan dörd insan fiqurundan ehtimal ki, birincisi, məbədin inşaatçısı Knyaz Həsən Cəlalı, ikincisi onun oğlunu, iki qadın fiqurundan biri, Həsən Cəlalın nənəsi Ana Xatunu, digəri isə onun ailə üzvlərindən birini təmsil edir. Karnizlərdə, pəncərələrin çərçivələrində, şərqə baxan divar dərinliklərində, böyük xaç və tağlarda da oyma naxışlar diqqətlə və bədii şəkildə icra edilmişdir. Bu kompleksin alban mədəni irsinə aid olmasını erməni tədqiqatçılarının özləri də etiraf edirlər.

Ağoğlan məbədi

Laçın rayonundakı Ağoğlan çayı üzərindəki Ağoğlan monastırındakı üçnefli kilsə VI əsrdə inşa edilmişdir. Oxşəkilli tağla örtülü orta nef dərin apseda ilə tamamlanır, silindrik tağlarla örtülü yan neflər isə iki inteqrasiya edilmiş əlavə ilə bitir. Apsed nal formalı yarımkupol ilə örtülmüşdür. Kilsənin daxili divarları freskalarla bəzədilmişdir. Tağ və pilonlara söykənən arxivoltları böyük, təmiz yonulmuş plitələrlə üzlənmişdir. Tikilinin yuxarı hissələrində pəncərə ilə yaxşı işıqlandırılmış dekorativ daş oymalardan istifadə olunur. Məbəd kifayət qədər iri ölçüyə malikdir.

Əvvəllər məbədin qəsr kimi tanınıb,bu haqda əfsanələr məlumdur. Belə rəvayət edilir ki, qədim zamanlarda bu ərazidən keçən gənc bir səyyah buranın gözəl təbiətinə heyran olaraq bu məkanda qəsr tikdirmək qərarına gəlir. Bunun üçün yerli əhalidən tikinti işini bacaranlardan komanda toplayıb işə başlayır. Buna görə xalqın sevgisini və rəğbətini qazanan gəncçox yaraşıqlı olduğundan yerli əhali onu “Ağoğlan” adlandırırmış və məbəd də bu adla tanınmağa başlanmışdır.

Şəkil.3 Ağoğlan məbədi

Məbədin xarici görünüşü, aydın və sadə həll edilmiş fasadları olan daha yüksək orta nefli xarakterik bir bazilikadır. Bir planlaşdırma xüsusiyyəti çox maraqlıdır: əsas girişlərin qarşısında,qalın sütunlar var. Bu memarlıq xüsusiyyətləri eynilə Ləki məbədi və Qum bazilikasında olduğu kimidir. Qədim yunan ənənəsinə görə bu, bütpərəstliyi qəbul etmiş Azərbaycan ərazisində bir sıra xristian məbədlərində saxlanılır, Ermənistan və Gürcüstanın xristian dini arxitekturasında görüşmür, qədim Kaspi və Albaniyanın memarlığına yüksələn dərin köklərdən xəbər verir. Bu texnika köhnə kahinlik ənənəsinə görə Azərbaycan ərazisindəki bir sıra xristian kilsələrində qorunub saxlanılır. Buna Ermənistan və Gürcüstanın xristian dini memarlığında rast gəlinmir.

Şuşa qalası

Qala XVIII əsrin ortalarında Pənah Əli Xan tərəfindən Qarabağ xanlığını qorumaq üçün tikilmişdir və əvvəlcə Pənahabad adlanırdı. 1747 -ci il də müstəqillik

Şəkil.4 Şuşa qalası

qazandıqdan sonra Qarabağ xanlığının banisi Pənahəli xan Sarıcalı Cavanşir etibarlı bir iqamətgah tikmək qərarına gəlir. İlk olaraq Bayat (1748) və Şahbulağı (1752) qalaları tikilir. Təəssüf ki, onlardan heç biri müasir müdafiə tələblərinə cavab vermir.

Pənahəli Xan yeni bir qala tikmək qərarına gəlir. Yeni iqamətgahın inşası üçün Şuşa yaylası seçilir. Yaylada ən yüksək yer dəniz səviyyəsindən 1600 metr, ən aşağı yer 1300 metr təşkil edirdi. Bu yüksək dağ yaylası Xəlfəli və Daşaltı çaylarının dərin uçurumları ilə əhatə olunmuşdur.

Qala divarının tikintisi yalnız yaylanın şimal-şərq hissəsinin müdafiəsi üçün lazım idi. Qala 1753-cü ildə inşa edilmişdir. Bu qala bir sıra hücumlara dözmüşdür. O, Qarabağın əsas qalası sayılırdı və məhz buna görə də xalq arasında bu şəhər "Qala" adı ilə tanınırdı.

Şuşa qalası (şəkil 4) Azərbaycan memarlığının ən gözəl incilərindən biri hesab olunur. Qala Arran memarlıq məktəbi üslubunda tikilib. Qalanın tikilməsində material olaraq yerli daşlardan və əhəng - yumurta sarısı qarışığından istifadə edilib. Qalanın üç qapısı var; Gəncə,İrəvan və Ağoğlan. Onlardan Gəncə qapısı özünün yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi formada olan mühafizə bürclərinə malikdir. Şuşanın müdafiə divarları daş və əhəng məhlulundan inşa edilməklə 2.5 km uzunluğa malikdir.

Ağdam Cümə məscidi . Məscid Memar Kərbəlayi Səfi xan Qarabaği tərəfindən 1868-1870-ci illərdə tikilmişdir. O, Qarabağ regionunun məscidlərinə xas olan daxili məkanın təşkilinə malikdir; ikimərtəbəli daxili interyer daş sütunlarla bölünür və günbəzdən istifadə olunur. Məscidin iki minarəsi və iki mərtəbəsi var (şəkil 5). Məscidin binası daşdan, binanın fasadının künclərindəki minarələr isə kərpicdən tikilmişdir. Günbəzin mərkəzi dəstəyi olan dörd sütun, daxili məkanın ortasında və yanlarında iki mərtəbəli balkon kvadrat yaradır. İbadət salonuna baxan və qadınlar üçün ibadət yeri olan bu balkonların üstü qübbəlidir. Burada, demək olar ki, hər bir detalda İslama xas olan dördbucaq və dairənin əlaqəli bəzəklərinə rast gəlmək mümkündür. Namaz qılınan zal qurbangahın və eyvanların kənarındakı pəncərələrlə işıqlandırılır. Mehrab ağacının üstündəki binanın dekorasiyası ustad Məhəmməd Nəqqaş Təbrizinin adı ilə bəzdilmişdir. Məscidin inşa olunma tarixi hicri təqvimi ilə 1331 -ci ilə aiddir. Mənbələr Kərbəlayı Səfixinin dostu Məhəmməd Şükuhinin Ağdam Cümə məscidinin divarlarının ilkin versiyası üzərində çalışdığını göstərir. Məscidin girişi Səfəvi memarlığına xas olan böyük bir tağlı portalın içərisindədir. Memar Kərbəlay Səfixan Qarabaği 1817 -ci ildə anadan olub və 1910 -cu ildə vəfat edib. Onun Azərbaycanda Şuşa, Ağdam, Bərdə, Füzuli, eləcə də Odessa və Aşqabadda tikdirdiyi məscidlər tarixi memarlıq nümunələri sayılır. Kərbəla Səfixan Qarabağın sayəsində " Qarabağ Məscid Memarlığı " adlı bir üslub var ki, bu üslubu heç bir şəkildə qarışdırmaq olmaz. 1993 -cü ildə

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və Azərbaycan memarlığının incilərindən sayılan Ağdam şəhəri də erməni təcavüzünün qurbanı olmuşdur. Məscidin minarələri içəridən sökülüb, tavanı bir neçə yerdən sınıb, tikililər və yazılar pozulub. Abidə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001 -ci il tarixli 132 nömrəli qərarı ilə ölkənin mühüm tarixi və mədəniyyət abidələri siyahısına daxil edilmişdir.

Şəkil.5 Ağdam Cümə məscidi

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar və komendantlıqların nəzdində aidiyyəti dövlət orqanlarının (qurumlarının), o cümlədən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılmışdır. Fərmanın 7.8-ci bəndində müvəqqəti komendantlıqlara tarix və mədəniyyət obyektlərinin (abidələr və müəssisələr) ilkin inventarlaşdırılması və mühafizəsi ilə bağlı vəzifələrin yerinə yetirilməsi tapşırılmışdı. [2]

Ədəbiyyat:

1. Ələkbərli Ə., “Qərbi Azərbaycan abidələri”, Bakı, 2007.
2. İsmayılov F., “Tarix və mədəniyyət abidələri; qorunması, istifadəsi və bərpası barədə təlimatlar”, “Nurlar ” Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2013.
3. Məmmədov N., Güllələnən abidələr: Kəlbəcər. “Cəmiyyət və din” qəzeti. Bakı, 08 saylı, 25 iyun-01 iyul 2009-cu il tarixli nömrəsi.
4. Ахундов. Д. А. «Архитектура древнего и ранне-средневекового Азербайджана». Азербайджанское государственное издательство, Баку—1986
5. mct.gov.az›az/umumi-xeberler/13318
6. trend.az›life/interesting/3341894.html

N. Ramazanova

Azerbaijan occupied by armenian vandalism history in the territory - about religious monuments

Keywords: Azerbaijan, history - religion, monument, Albanian, tomb, monastery, castle

Historical monuments are a living archive that illuminates the people's past and keeps its memory fresh. The vandalism of the Armenians against our historical and religious monuments for almost 30 years has led to very serious consequences. According to the data of 1813, the geographical area of Azerbaijan was 410,000 sq. Km, and according to the data of 1991, 86.6 thousand sq. Km. km. About 403 historical monuments have been registered in the occupied territories. Although some of them have been completely rendered useless, they will not succeed in trying to "Armenianize" the remaining ancient Albanian churches in these areas. History speaks for itself, and our state is carrying out important reconstruction and reconstruction work in this area.

Н. Рамазанова

Азербайджан оккупен армянским вандализмом
История на территории - о религиозных памятниках

Ключевые слова: Азербайджан, история - религия, памятник, албанский, гробница, монастырь, крепость

Исторические памятники - это живой архив, который освещает прошлое народа и хранит его память в свежем виде. Вандализм армян против наших исторических и религиозных памятников на протяжении почти 30 лет привел к очень серьезным последствиям. По данным 1813 г., географическая площадь Азербайджана составляла 410 000 кв.км, а по данным 1991 г. - 86,6 тыс. кв.км. На оккупированных территориях зарегистрировано около 403 исторических памятников. Несмотря на то, что некоторые из них почти полностью разрушены, попытки «армянизировать» оставшиеся на этих территориях древние албанские церкви им не удастся. История говорит сама за себя, и со стороны государства ведутся широкомасштабные работы по восстановлению и реконструкции всего Карабахского региона.

Seyed Mansour Seyed Sheraghi

Az.MIU- doctorant

UDC: 72.025.3

ENVIRONMENT AND HISTORICAL AND ARCHITECTURAL MONUMENTS OF SHUHA

Abstract: The architectural heritage of the city of Shusha, which is both a period and a style away from the history and architecture of Baku, has left valuable works.

The historic city of Shusha has seen a lot of destruction and change during the occupation of the enemy, and according to the history of the city of Shusha, the number of architectural heritages is much less than it should be.

On the other hand, due to changes in the urban communication system and the invention of the car and the difference in height in the city and the creation of new communications that should provide the usability of the car, has caused profound and irreversible changes.

On the other hand, during the 27 years of occupation by the enemy and the attempt to destroy the historical monuments of Azerbaijan, it has caused the greatest and deepest destruction.

Demographic, social and political changes in the historical city of Shusha and future needs require careful planning in the field of modern urban planning in the form of historical architecture of the city and these changes have a significant impact on the structure of architectural and historical heritage to avoid unavoidable changes.

In general, it should be said; Before repairing the architectural heritage of Shusha, a city must first be designed and implemented, and in this new city, special attention must be paid to all neighborhoods and high-altitude connections of the city.

In other words, considering the destruction of the historic city of Shusha and the current situation, the basis of the design of this new city should be the historical heritage with their protection zone, and around each historical monument should be related to the use of the same architectural design.

Keywords: history, culture, architecture, monuments, heritage, restoration, protection.

We are happy that with the efforts of the government and the soldiers, the historic homeland of Shusha was freed from the captivity of the enemy.

And the historical city of Shusha can be named as the jewel of the cities of Karabakh.

The architectural heritage of the city of Shusha, which is both a period and a style away from the history and architecture of Baku, has left valuable works.

In other words, the valuable architectural works of Shusha bear the architectural style of Shirvan Shahan palaces, and the combination of stone materials used in the historical buildings of Shusha has caused a special difference from the architecture of Baku, and this difference is a unique identity.

The historic city of Shusha has seen a lot of destruction and change during the occupation of the enemy, and according to the history of the city of Shusha, the number of architectural heritages is much less than it should be.

The city of Shusha has been built at different heights due to its mountainous geography, and this type of urban planning and its historical expansion has caused the separation of architectural heritage.

The historic wall of the city of Shusha is almost destroyed, and except for a few points in contact with the entrance gate and the ruling district, the rest of this valuable historical monument has been destroyed.

On the other hand, due to changes in the urban communication system and the invention of the car and the difference in height in the city and the creation of new communications that should provide the usability of the car, has caused profound and irreversible changes.

On the other hand, during the 27 years of occupation by the enemy and the attempt to destroy the historical monuments of Azerbaijan, it has caused the greatest and deepest destruction.

Also, by examining the plans and the current situation, it is quite obvious that the enemy has destroyed the ancient neighborhoods and built a church with huge areas, and the dimensions of these destructions are more than expected.

Meanwhile, due to the strategic point of the historic city of Shusha and its military use, the enemy has destroyed many buildings and neighborhoods to build military grounds and new military housing buildings.

All these efforts show that the enemy did not try to stay permanently and did not even allow himself to think about permanent residence even after occupying 27 years, and only tried to destroy the entire neighborhoods and historical monuments and build a few churches. No more is expected from a home enemy.

Also, the issues and problems of environmental development of the world's architectural heritage, such as the historic city of Shusha, can be divided into two parts:

First - the architectural heritage surrounded by the urban structure

Second - the heritage of architecture alone and away from urban development

Architectural and historical heritage enclosed in the military structure of the enemy and have been subjected to the most changes and destruction due to settlement.

Demographic, social and political developments of the historical city of Shusha and future needs require careful planning in the field of modern urban planning in the form of historical architecture of the city.

And these developments have a significant impact on the structure of the architectural and historical heritage of unavoidable changes.

The following characteristics in relation to the future urban development of the historic city of Shusha, should play a key role in the preservation or destruction of architectural heritage:

-1Type of use of architectural heritage

-2Dimensions and height of architectural heritage

-3Consumable materials in the heritage of architectural history

In other words, the more majestic and large-scale historical buildings with sanctity are placed in the center of the new urban design of the city, the more appropriate it will be to expand the city with a focus on valuable heritage.

Another very important issue is the use of architectural heritage, which should play a major role in preserving the architectural heritage, and from ancient times, if the use of architectural heritage is in harmony with the main use of the building. This historical heritage can lead to the greatest changes in modern urban planning, such as uses such as religious uses that have always been and should be the hallmarks of historic cities over time.

Meanwhile, in preserving or combining architectural heritage in relation to the surrounding environment, size and volume in architectural heritage has been another influential factor and the use of architectural elements of historical monuments will reflect historical identity in modern urban planning.

Another and very influential issue in preserving and expanding architectural heritage is the type of materials used in historical buildings, and using the form and shape of this architectural heritage and expanding this form will create a unified identity.

In other words, historic buildings made of stone have suffered the least damage over time.

On the other hand, they have been more easily restored during the past, and now the restoration and reconstruction of such works is being done easily.

In addition to the above-mentioned issues, architectural heritage such as castles and walls around ancient cities, has been a factor in the protection

and preservation of urban environments in the past, and these castles and historic walls have provided security throughout history and the structure of a single urban It can create a history like Shusha.

In general, it should be said; Before repairing the architectural heritage of Shusha, a city must first be designed and implemented, and in this new city, special attention must be paid to all neighborhoods and high-altitude connections of the city.

In addition, the remaining valuable heritage should be considered as the main axis of this new city, and to prevent future expansion and threats of urban expansion, a protection zone of appropriate size should be provided for each architectural heritage.

In other words, considering the destruction of the historic city of Shusha and the current situation, the basis of the design of this new city should be the historical heritage with their protection zone, and around each historical monument should be designed using the same architectural work.

In a word, we have to create several historical cores for this historical city and place the city around it with the same historical architecture.

On the other hand, this historical city with new areas must be carefully placed inside the historical fences, and the continuation of the historical fences around this historical center must be expanded and restored.

At the same time, we must consider places for these parts with new architectures outside these historical centers, and in order to expand this new part with new architectures, we must direct them to the outside of this historical urban center.

Design of protection zones of historical monuments The architecture and materials of the historical monument should be used and the height of these protection zones should be considered much less than the height of the historical monument so as not to reduce the greatness and significance of the historical monument.

It should also be noted that the best use of protection zones, cultural use and book study spaces and libraries can be combined with green space.

This historical period and this exemplary 44-day victory of the soldiers of the homeland have placed such a heavy burden on our architects that it is indescribable, and therefore it is suggested that in the protection zone of the historical mosques of Shusha, a magnificent tomb with architecture and historical materials in The interior of the ancient center should be designed and executed, and in the new section with modern architecture, it is suggested that a valuable place be designed and executed for the martyrs of the homeland with modern architecture.

Literature:

1. Adam, R. (1998) Tradition: the driving force of urban identity. IN WARREN, J., WORTHINGTON, J. & TAYLOR, S. (Eds.) Context: new buildings in historic settings. York, Architectural Press.
2. Araoz,G.F. (2008) 'World-Heritage historic urban landscapes: defining and protecting authenticity' APT 2008- Association for Preservation Technology International, 2/3 July, 33-37.
3. Avropa; G. Veyl, Violle-le-Dyuk , M. Qik , L.Y. Lauer, Massel, L. Karbuzye.
4. Cantacuzino, S. (1998) Assessing quality: the pertinent criteria for designing buildings in historic settings. IN WARREN, J., WORTHINGTON, J. & TAYLOR, S. (Eds.) Context: new buildings in historic settings. York, Architectural Press

S. Mansur S. Ş.

Şuşanın ətraf mühiti və tarixi -memarlıq abidələri

Açar sözlər: tarix, mədəniyyət, memarlıq, abidələr, miras, bərpa, qorunma.

Bakının tarixi və memarlığı həm dövr, həm də üslub olaraq Şuşa şəhərinin memarlıq irsində dəyərli əsərlərə nümünə olmuşdur.

Tarixi Şuşa şəhəri düşmənin işğalı zamanı çoxlu dağıntılar və dəyişikliklər görmüş və Şuşa şəhərinin tarixinə görə qeydə alınan memarlıq irslərinin sayı lazım olanda çox az təsbit olunmuşdur.

Digər tərəfdən, şəhəri küçə-yol kommunikasiya sistemindəki dəyişikliklər və avtomobilin ixtirası və şəhərdəki hündürlük fərqi və avtomobilin istifadəsini təmin edəcək yeni kommunikasiyaların yaradılması səbəbiylə dərin və geri dönməz dəyişikliklərə səbəb oldu.

Digər tərəfdən, 27 il ərzində düşmən işğalı Azərbaycanın tarixi abidələrinin dağıdılması cəhdi zamanın ən böyük və ən dərin məhvinə səbəb olmuşdur.

Tarixi Şuşa şəhərindəki demoqrafik, social-siyasi dəyişikliklər və gələcək ehtiyaclar müasir şəhərsalma sahəsində diqqətli planlaşdırma tələb edir və bu qaçılmaz dəyişikliklər şəhərin tarixi memarlığına memarlıq və tarixi irsin quruluşuna əhəmiyyətli təsir göstərir.

Ümumiyyətlə; Şuşanın memarlıq irsini bərpa etməzdən əvvəl şəhər layihə dizayn prosesində keçməli və həyata keçirilməli daha sonar bunlar yeni şəhərdə

oranın bütün məhəllələrinə, hündürlük miqyası şaqüli və üfiqi əlaqələrinə xüsusi diqqət yetirilməlidir.

Başqa sözlə, tarixi Şuşa şəhərinin dağıdılması və mövcud vəziyyəti nəzərə alaraq, yeni şəhərin layihə-dizaynının əsası mühafizə zonası olan tarixi irs olmalı və hər bir tarixi abidənin ətrafında onun istifadəsi ilə bağlı eyni memarlıq dizaynı olmalıdır.

Nərmin Maxsudova

ADMİU, magistrant
maxsudova@gmail.com

UOT: 726.2

ŞUŞA YAŞAYIŞ BİNALARININ BƏRPASI

Xülasə: Məqalədə Qarabağın mirvarisi sayılan Şuşa şəhərinin yaşayış binaları araşdırılır. Burada yaşayış binalarının inşa tarixinə, ustad-memarlarına, memarlıq-fəza, memarlıq-kompozisiya xüsusiyyətlərinə diqqət ayrılır. Binaların interyer və eksteryerinin konstruktiv həlli və bərpa planları izah olunur.

Açar sözlər: Şuşa şəhəri, bina , memarlıq üslubu , Aran memarlıq məktəbi, təmir-bərpa.

Qarabağ xanlığı -1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Cavanşir sülaləsindən olan Pənahəli xan Qarabağ xanlığının əsasını qoymuşdu. Qarabağ xanlığı kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşirdi. Xanlığın sərhədləri Araz çayından Göycə gölünədək, Tərtər çayından bütün düzənlik və Dağlığ Qarabağı, Zəgəzuru, Bərgüşadı əhatə etməklə Mehri, Tatev və Sisiana qədər uzanırdı. Xanlıq Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qarabağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi.

Səfəvi dövründə Qarabağ beylərbəyliyinin paytaxtı Gəncə şəhəri olduğu üçün sonralar isə Əfşar imperiyası dövründə Qarabağ vilayəti Azərbaycan beylərbəyliyinin Təbriz şəhərinə tabe olduğu üçün Qarabağ xanlığının yarandığı zaman burada sosial-iqtisadi mərkəz rolunu oynayan şəhər yox idi. Pənahəli xan bu məqsədlə 1748-ci ildə Kəbirli mahalıında Bayat qalasının tikilməsini əmr etdi. 1751-ci ildə isə Pənahəli xan Ağdam yaxınlığında Şahbulaq yaylağında daha möhkəm qala, yəni Şahbulağ qalasını tikdirdi. Lakin bu qala da coğrafi cəhətdən əlverişli yerdə yerləşmədiyi üçün Şuşakənddən bir qədər aralı,hündür,sıldırım dağ üstündə qalanın, Şuşa qalasının inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Qala Pənahabad, və ya Şuşa adlandırılırdı.

Qarabağ xan sarayı və ya **Pənahəli xan sarayı** – Şuşa şəhərinin tarixi mərkəzində yerləşən və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saraydır. Pənahəli xanın dövründə saray xanın iqamətgahı olmaqla yanaşı, həm də xan ailəsi ilə birlikdə bu sarayda yaşamışdır. Onun oğlu İbrahimxəlil xan ailəsi və əyanları ilə birlikdə Pənahəli xan sarayı yaxınlığında onunla eyni dövrdə inşa edilmiş İbrahimxəlil xan sarayında

yaşamışdır. İbrahimxəlil xanın böyük oğlu Məhəmməd Həsən ağa Şuşa yaylasının cənub-şərqində sıldırım qayanın üstündə ucaldılmış Məhəmmədhəsən ağa sarayında yaşamışdır. Bu saraylardan başqa Şuşada xan ailəsi üzvlərinə məxsus xan qızı Natəvan və Qaraböyük xanım sarayı da vardır. Qarabağ xan sarayı adı müxtəlif mənbələrdə bu sarayların hər birinə aid edilsə də, Qarabağ xanlarının əsas siyasi iqamətgahı ilk Qarabağ xanı Pənahəli xanın saray-qəsri olmuşdur.

Şuşa qalasındakı qəsrlərin özünəməxsus memarlıq xüsusiyyətləri qədim dövrlərdən səyyahlar və şəhər qonaqlarının diqqətini cəlb etmişdir. Məsələn XIX əsrin ortalarında "Qafqaz" (*Кавказ*) qəzetində yazılır: *"Şəhərdəki müxtəlif evlər və yaşayış binaları arasında xan ailəsi üzvlərinin yaşadığı qəsrlər o dəqiqə diqqət çəkir: onlar özünəməxsus xarakterə malikdirlər. Onları künclərində dairəvi qüllələr olan hündür divarlar əhatə edir."* [4]

Tarixi bilinməyən baş plana əsasən müəyyən edilmişdir ki, demək olar ki, bütün Şuşa qəsrləri oxşar konfiqurasiyaya malik olmuşdur: planda düzbucaqlı formaya malik olmaqla, onların dörd küncündə müdafiə qüllələri yerləşdirilmişdi. Daxildən bu divarlara bitişik şəkildə qəsr sakinlərinə xidmət edənlərin yaşaması üçün saray tipli binalar inşa edilirdi. [4] Şuşa qəsrlərinin həcm-məkan və plan formalaşmasının həllinə Şahbulaq qalasının memarlıq xüsusiyyətləri təsir göstərmişdir. [4] Şahbulaq qəsirində olduğu kimi bu qəsrlərin də girişləri şimal istiqamətində yerləşir. [4] Birbaşa girişdən müdafiə olunmaq üçün qapının qarşısında "**Г**" formalı keçidə malik prizmatik örtüklə tamamlanan qüllə ucaldılmışdı. Pənahəli xanın qəsrinin yuxarı hissələri saxlanmamışdır. E. Avalov ehtimal edir ki, Pənahəli xanın qəsri və Qaraböyük xanım qəsirində də Şahbulaq qəsirində olduğu kimi kvadrat formalı qüllə ikimərtəbəli olmuşdur. [4]

İki mərtəbəli saray binasında çoxlu sayda otaqlar, o cümlədən "**T**" formalı böyük parad zalı yerləşir. Zal, binanın kompozisiya mərkəzi rolunu oynayır. Bu zal iki tərəfdən nəhəng qaldırılan şəbəkə pəncərələrə malik idi. [4] Şəbəkə tipli pəncərələr XVIII-XIX əsrlədə Azərbaycanın yaşayış binaları memarlığında geniş yayılmaqla, Şəki xan sarayı, Məhəmmədhəsən ağa sarayı, Mehmandarovların evi, Şəkixanovların evi və başqa yaşayış binalarında dövrümüzə çatmışdır. [4]

Xan qızı Natəvanın evi — Şuşanın ilk zamanlarında inşa edilmiş mülklərindən biridir. Natəvanın sarayı böyük bir ərazini əhatə edən həyət və bu həyətdə müxtəlif xidməəti tikililərə də malikdir. Şuşa şəhərində yerləşən XVIII əsrə aid tarix-memarlıq abidəsidir. Binanın birinci mərtəbəsində xidməti xarakterli və xidmətçilərin yaşaması üçün nəzərdə tutulmuş yeddi otaq yerləşir. Cənub tərəfdə üç giriş qapısı yerləşir. Onlardan ortada yerləşən qapı dəhlizə, yanlarda yerləşən digər iki qapı isə yan otaqlara aparır.

Natəvanın sarayının memarlığı Şuşa şəhərinin yaşayış tikililərinin memarlığı üşün xarakterik olmasa da, böyük maraq kəsb edir. Tikilinin cənub fasadı vertikal şəkildə yerləşdirilmiş bellərlə bölünmüşdür. İkinci mərtəbənin pəncərələrini çərçivəyə alan bellər isə digərləri ilə müqayisədə daha da genişləndirilmişdir

Evin cənub divarı kərpicdən, qalan divarları isə yerli daşlardan inşa edilmişdir. Bina planda 24 x 12.5 metr ölçülərə malik düzbucaqlı formasına malikdir. Binanın yerdən dama qədər olan hündürlüyü 8.5 metrə bərabərdir. Binanın birinci mərtəbəsində xidməti xarakterli və xidmətçilərin yaşaması üçün nəzərdə tutulmuş yeddi otaq yerləşir. Cənub tərəfdə üç giriş qapısı yerləşir. Onlardan ortada yerləşən qapı dəhlizə, yanlarda yerləşən digər iki qapı isə yan otaqlara aparır.

Aşağı mərtəbənin otaqları iki qrupa bölünür ki, onlardan da birinə dörd, digərinə isə üç otaq daxildir. Bu otaq qrupları arasında əlaqə yalnız dəhliz vasitəsiylə həyata keçirilir.

Parad xüsusiyyəti daşıyan ikinci mərtəbəyə evin qərb divarında inşa edilmiş daş pilləkən aparır. İkinci mərtəbənin mərkəzində geniş qonaq zalı, onun ətrafında isə yaşayış üçün nəzərdə tutulmuş dörd otaq yerləşir. Zal, hər iki tərəfdən bütün uzunluğu boyunca 5 x 3.5 metr ölçülərə malik iri şəbəkə pəncərələr vasitəsiylə işıqlandırılır. Cənub divarında böyük giriş qapısı ətrafında daha iki pəncərə yerləşir. Parad zalının hündürlüyü 5 metrə yaxındır. Altında antresollar yerləşən digər dörd otağın hündürlüyü isə bir qədər azdır. Parad zalının interyerinin bəzədilməsində freska rəsmləri və alebastr üzərində oyma naxışlardan istifadə olunmuşdur.

Bölünmələr arasındakı fərqli məsafələr sayəsində binanın memarlığı quruluqdan xilas edilmişdir. Üstdən əlavə edilmiş horizontal bölünmələr sayəsində fasad düzgün və yüngül xarakter əldə etmişdir.

Evin birinci və ikinci mərtəbəsinin kərpic divarı oxvari tağlar və düzbucaqlı formaya malik pəncərələrlə həll edilmişdir. Üçüncü mərtəbə isə kör kərpic divara malikdir. Fasadın bu cür bölünməsi maraqlı işıq-kölgə oyunu effekti yaratmışdır. Binanın yerli daşlardan tikilmiş və şimala baxan fasadı isə öz formaları ilə yerli Şuşa evlərinin memarlığına daha yaxın olsa da, memarlıq işlərinin keyfiyyətinə görə, bir çox bəy-ağa evlərindən geri qalır.

Qaraböyük xanım sarayı və ya **Qara Böyük Xanım bürcü** – Şuşa şəhərinin tarixi mərkəzində yerləşən tarixi saraydır. Mənbələrdə Şuşa qalası ərazisində bir neçə sarayın olması haqqında məlumat verilsə də, onlardan yalnız ikisi- Qaraböyük xanım sarayı və Pənahəli xan sarayı dövrümüzə çatmışdır. Qaraböyük xanım qəsrinin giriş qapısı üzərindəki kitabədə onun hicri 1182-ci ildə (1768) inşa edilməsi göstərilmişdir.

Şuşa qalasındakı qəsrlərin özünəməxsus memarlıq xüsusiyyətləri qədim dövrlərdən səyyahlar və şəhər qonaqlarının diqqətini cəlb etmişdir.

Saray kompleksinə daxil olan birmərtəbəli yaşayış və xidməti binalar binanın daxili perimetri boyunca yerləşdirilmişdir. Onların damında 1.5 metr hündürlükdə qəsrin divarlarında mazğallar yerləşdirilmişdir. Beləliklə yaşayış binalarının damı müdafiə meydançalarına çevrilmişdir.

Şimal istiqamətində yerləşdirilmiş əsas giriş qapısı İbrahimxəlil xan sarayında olduğu kimi həll edilsə də, burada qabağa çıxan prizmatik həcm ikimərtəbəlidir. Onun ikinci mərtəbəsi həyətin yanlarında yerləşən daş pilləkənə aparır. Saray binasının yuxarı mərtəbəsində kompleksin sahibəsi və onun ailəsi məskunlaşmışdı. [4] Otaqların divarları və tağvari tavanları divar rəsmləri ilə bəzədilmişdir.

Saray kompleksini əhatə edən qala divarlarının yuxarı qalxdıqca daralan qüllələri iki yarusludur. Qüllələr gümbəzvari örtüyə malikdir. Qüllələrin birinci və ikinci mərtəbələrində daş kamin – burxarı və niş – taxçaların yerləşməsi onların da müdafiə xüsusiyyətindən başqa həm də yaşayış binası kimi istifadə edildiyini göstərir.

Saray binasının həm tavan, həm də divar hörgüsü yaxşı yonulmuş kiçik ölçülü daşlardan diqqət və səliqə ilə hörülmüşdür. Plastik elementlərin işlənməsində zəriflik hiss olunur.

İbrahimxəlil xan sarayı və ya **İbrahimxəlil xanın qəsri** – Şuşa şəhərinin cənub-şərq hissəsində, Daşaltı kəndi yaxınlığında yerləşən tarixi saraydır. Bəzi mənbələrdə saray həm də Qarabağ xansarayı adlandırılır ki, bu da İbrahimxəlil xanın hakimiyyəti dövründə sarayın xan igamətdahı olması ilə əlaqədardır.

İbrahimxəlil xanın sarayı kvadrat formalı tikili olmaqla dörd tərəfdən qala divarları ilə əhatə olunmuşdur. Qala divarlarının dörd küncündə içəridən açıq olan yarımdairəvi qüllələr yerləşir. Qəsrin içərisindən qüllələrə birləşən yaşayış binalarında sarayda yaşayanlara xidmət edən qulluqçular yaşayırdı. [4]

Qəsrin şimala istiqamətlənən əsas girişi qabağa çıxmış prizmatik həcmlə-kontrforslarla müdafiə olunur. Bu baxımdan qəsrin girişi Şuşa qalasının Gəncə qalasının tətbiq edilmiş texnikanı təkrarlayır. Bu cür tikinti texnikası qapının müdafiəsini gücləndirərək ona birbaşa yaxınlaşma imkanını sıfıra endirir.[4]

Giriş qapısının konstruktiv həlli də diqqəti cəlb edir: bütöv daşdan (2.40 x 0.70 x 0.45 m) hazırlanmış qapı bəndi bütöv daşdan hazırlanmış və 2.10 metr hündürlüyə malik qapı çərçivəsi üzərində dayanır. Qapı bəndi üzərində yaxşı yonulmuş daşlardan inşa edilmiş yüngülləşdirici tağ yerləşir. Tağın timpanı iri yonulmamış daşlardan but hörgüsü ilə tikilmişdir. Giriş qapılarının bu cür həll edilməsi Şuşa şəhərinin memarlığında geniş yayılmışdır. [4] Saray kompleksinə daxil olan bütün tikililər kiçik ölçülü yaxşı yonulmuş daşlardan inşa edilmiş tağ-tavanla örtülmüşdür. Şuşada bu

cür tağ-tavanların inşa texnikası kifayət qədər sadə olmuşdur. Belə ki, tikilinin divarları hörüldükdən sonra onun içi torpaqla doldurulur və torpaq üzərində tağ-tavanın inşasına başlanılırdı. İnşa edilmiş tavanın hörgülərinin qurumasından sonra isə binanın içi torpaqdan təmizlənirdi.

Mehmandarovların evi — Şuşa şəhərində yerləşən saray tipli tarixi yaşayış kompleksi. Azərbaycanın XVIII əsr mülki memarlığının ən maraqlı nümunələrinən biridir. Vaxtilə Mehmandarovlar ailəsinə məxsus olmuş yaşayış kompleksinə Böyük yaşayış binası, Kiçik yaşayış binası və ailə məscidi daxildir. Kompleks daş divarlarla əhatələnmişdir.

Ev, planda kvadrat formaya malikdir. İkinci mərtəbənin dörd otağından üçü evin yan tərəfindəki verandaya, qonaq zalı funksiyasını yerinə yetirən erkerli böyük otaq isə lakonik əsas fasada açılır. [2]

Simmetrikliyin olmamasına baxmayaraq, evin əsas fasadı hissələrin harmonikliyi təəssüratını yaradır, yüngül erker və girişin yaxşı işlənmiş portalı isə fasadı tamamlayır. [2] Binanın yan fasadında yerləşən pilləkən və taxta veranda onun ümumi görünüşünü ağırlaşdırmır. Binanın memarlığında geniş pəncərələri vasitəsiylə yaxşı işıqlandırılmış və zəngin bəzədilmiş qonaq zalı xüsusi yer tutur. [2]

Böyük yaşayış binası və ailə məscidinin interyerləri Usta Qəmbər tərəfindən çəkilmiş və Şəki xan sarayının divar rəsmlərini xatırladan rəsmlərlə bəzədilmişdir. Kompleksə daxil olan Kiçik yaşayış binasında SSRİ dövründə Şuşa Tarix Muzeyi yerəşirdi.

Mehmandarovların evinin kiçik otağının panellərində Usta Qəmbər özünəməxsus və başqa heç yerdə təkrarlamadığı bir motiv işləmişdir. Şpaler rəsm (təkrarlanan naxış) prinsipinin əsas götürüldüyü bu rəsmdə panelərin sütunlarla ənənəvi sektorlara bölünməsi müşahidə edilmir. Burdakı zəngin kompozisiyada bitki budaqları üzərində oturmuş müxtəlif quşlar təsvir edilmişdir. Kompozisiya Şəki xan sarayının ikinci mərtəbəsindəki zalın nişlərindəki rəsmləri xatırladır. Açıq rənglərdən istifadə etməklə yaradılmış bu panel rəsmləri divarın aşağı hissəsində yerləşdiyinə görə zamanla korlanaraq dövrümüzə yaxşı çatmamışdır (həmin otağın digər divar rəsmləri ilə müqayisədə). [4]

Otaqların düzbucaqlı niş təsvirlərində süjetli rəsmlərə yer verilmişdir ki, bu da Şəkixanovların evinin dekorunu xatırladır. Frizlərdə isə Şəki xan sarayında olduğu kimi kompozisiya və rəng baxımından stilləşdirilmiş nəbati naxışlar yer almışdır Şəki xan sarayının frizində əsas gümüşü budaqları realistik təsfirə malik güllər əhatə edir; burada rənglər daha açıq olmaqla, çoxlu miqdarda gümüşü rəngdən istifadə edilmişdir. Mühmandarovların evində isə naxışlar tünd fonda verilmişdir. Frizdəki naxışlar panno timpanlarında da təkrarlanır.

Mehmandarovların evinin parad zalında adətən stalaktitlərin yerləşdiyi hissədə tavan boyunca uzanan və maraqlı frizlə bəzədilmiş oyuq vardır. Bu

friz, çiçək və quş kompozisiyasından formalaşdırılmış böyük medalyon formalı maraqlı naxışlarla bəzədilmişdir.

Mehmandarovların evinin plafonu ümumi kompozisiya baxımından Şəki xan sarayı və Şəkixanovların evinin plafonlarını xatırlatsa da, onun naxışları rəng və kompozisiya baxımından xalçaçılıq motivlərinə daha yaxındır. Qarabağ xalçaçılıq məktəbinə xas mərkəzi medalyonlu və zəngin bəzədilmiş künc naxışlı xalçalarda həmin kompozisiyanın analogiyasını görmək mümkündü

Hacı Qulların mülkü – Şuşa şəhərində yerləşən tarix-memarlıq abidəsidir. Üç mərtəbəli saray tipli evin inşasına 1849-cu [1] ildə İkinci Gildiya taciri Qulu Məhəmmədəli oğlunun sifarişi əsasında başlanılmışdır. Hacı Qulu sarayı kimi tanınan bu mülk öz memarlıq üslubu və milli koloriti ilə Şuşada hər kəsdə heyrət doğururdu. Sarayın 46 otağı və iki böyük qonaq zalı var idi.

Evin uzadılmış düzbucaqlı formasına malik planı, ara divarı boyunca inşa edilmiş və birinci mərtəbədəki xidməti otaqları ikinci mərtəbədəki yemək və yaşayış otaqları ilə birləşdirən pilləkəni ilə diqqət çəkir. Evin tamamilə parad xarakteri daşıyan üçüncü mərtəbəsi iri zal və onun yanlarında yerləşən qonaq otaqlarından ibarətdir.

Evin uzadılmış düzbucaqlı formasına malik planı, ara divarı boyunca inşa edilmiş və birinci mərtəbədəki xidməti otaqları ikinci mərtəbədəki yemək və yaşayış otaqları ilə birləşdirən pilləkəni ilə diqqət çəkir. Evin tamamilə parad xarakteri daşıyan üçüncü mərtəbəsi iri zal və onun yanlarında yerləşən qonaq otaqlarından ibarətdir. Evin həyətə baxan fasadında üç mərtəbəli açıq veranda yerləşir. Tikilinin yan tərəfində yerləşən açıq daş pilləkən bu verandalara aparır. [4]

Bu evin otaqları, xidmət məqsədinə uyğun olaraq müvafiq formada inşa edilmişdir. Zəngin Şuşa evləri üçün xarakterik olan böyük zal formalı qonaq otağı ilə yanaşı burada yemək və yataq otaqları da istifadə profilinə uyğun memarlıq formalarına malikdir. Birinci mərtəbə ilə əlaqə parad və xidmətçilər üçün nəzərdə tutulmuş iki pilləkən vasitəsiylə həyata keçirilir.

Əksər Şuşa ev və saraylarından fərqli olaraq Hacı Qulların mülkü üçün tikilinin bütün fasadlarında yerləşən çoxlu sayda geniş pəncərələr xarakterikdir. Pəncərələr hamısı şəbəkə ilə işlənmişdir.

Əsəd bəyin evi – Şuşa şəhərində, Voroşilov küçəsində yerləşən XVIII əsrə aid tarixi memarlıq abidəsidir. Uzadılmış düzbucaqlı formasına malik evin birinci mərtəbəsindəki otaqlar üç qrupa bölünmüşdür. Evin mərtəbələri arasında daxili əlaqə mövcud deyil. İkinci mərtəbəyə evin fasadının hər iki küncündə inşa edilmiş iki daş pilləkənlə qalxmaq olar.

Qonaq zalı bütün fasad boyunca yerləşdirilmiş nəhəng şəbəkə pəncərəyə malikdir. Həm vestibüllərdən, həm də dəhlizlərdən zalın

ətrafındakı otaqlara qapılar açılır. İri qonaq zalı ilə yanaşı, Əsəd bəyin evinin ikinci mərtəbəsində bir qədər kiçik ölçülərə malik olan və tikilinin qərb tərəfində yerləşən ikinci zal da vardır. Bu iki iri zalla yanaşı evin ikinci mərtəbəsində daha 10 otaq da inşa edilmişdir.

Natəvanın sarayı yaxınlığında yerləşən Əsəd bəyin evinin memarlıq və plan həllində Şəki şəhərində yerləşən Şəkixanovların evi ilə çoxlu ortaq xüsusiyyətləri vardır. [1] Şəkixanovların evində olduğu kimi, Əsəd bəyin də evinin kompozisiya mərkəzində T-formalı böyük zal yerləşir. Evin digər otaqları isə həmin bu zalın ətrafında qruplaşdırılıb. [1]

Əsəd bəyin evini bu cür plana malik əsilzadə evlərindən fərqləndirən əsas xüsusiyyət onun çoxotaqlı olmasıdır. Uzadılmış düzbucaqlı formasına malik evin birinci mərtəbəsindəki otaqlar üç qrupa bölünmüşdür: mərkəzdə iri zal və onun ətrafında kiçik otaqlar, iki tərəfdə isə hər biri iki otaqdan ibarət olan daha iki qrup otaq yerləşir.

Evin mərtəbələri arasında daxili əlaqə mövcud deyil [1]. İkinci mərtəbəyə evin fasadının hər iki küncündə inşa edilmiş iki daş pilləkənlə qalxmaq olar. Pilləkənlərin hər biri xarici pilləkən və dərin tağla yerləşdirilmiş daxili pilləkəndən ibarətdir. [1] Bu pilləkənlər ikinci mərtəbədə yerləşən iki vestibülə aparır. Həmin vestibüllərdən kiçik dəhlizlər vasitəsiylə iri qonaq zalına keçmək mümkündür. Qonaq zalı bütün fasad boyunca yerləşdirilmiş nəhəng şəbəkəli pəncərəyə malikdir. Həm vestibüllərdən, həm də dəhlizlərdən zalın ətrafındakı otaqlara qapılar açılır. İri qonaq zalı ilə yanaşı, Əsəd bəyin evinin ikinci mərtəbəsində bir qədər kiçik ölçülərə malik olan və tikilinin qərb tərəfində yerləşən ikinci zal da vardır. Bu iki iri zalla yanaşı evin ikinci mərtəbəsində daha 10 otaq da inşa edilmişdir. [1]

Evin poliqonal daş hörgüsünə və kiçik pəncərə yerlərinə malik birinci mərtəbəsi üzərində həm bölünmələrinə, həm də inşaat materialına görə daha yüngül təsir bağışlayan ikinci mərtəbə yerləşir. Birinci mərtəbənin pəncərələri metrik tağlar sırası ilə əhatə edilmişdir. Birinci mərtəbənin inşasında yerli ağ qaya daşlarından, ikinci mərtəbənin inşasında isə bişmiş qırmızı kərpicdən istifadə olunmuşdur. [1] Fasadın kompozisiyası üç nəhəng şəbəkəli pəncərə və onların yanında yerləşməklə bir qədər birinci mərtəbəyə keçən iki dərin tağça əsasında qurulmuşdur.

Məhəmmədhəsən ağa sarayı – Şuşa şəhərinin tarixi mərkəzində yerləşən tarixi saraydır. Saray, Şuşa yaylasının cənub-şərqində sıldırım qayanın üstündə ucaldılmışdır. Saray, İbrahimxəlil xanın böyük oğlu Məhəmməd Həsən ağa ailə üzvlərinə məxsus olmuşdur. 1796-cı ildə Şuşanı ələ keçirən Ağa Məhəmməd şah Qacar Məhəmməd Həsən ağa sarayında yaşamağa başlamış və 1797-ci ildə bu sarayda nökər Səfər Əli tərəfindən qətlə yetirilmişdir.

E. Avalov XIX əsrin şəhər planına əsasən sarayın daxili həyətinin də kvadrat formalı olduğunu qeyd edir. [4] 1843-cü ildə Şuşaya səfər etmiş Prussiya dövlət xadimi və yazıçı Avqust fon Haksthauzen həmin sarayın xarici görünüş baxımından ətrafdakı binalardan çox fərqlənmədiyini qeyd edir

Fərəməzovların evi - Şuşa şəhərində yerləşən tarix-memarlıq abidəsi. Şuşanın qədim tacir evlərinin xarakterik xüsusiyyətlərini özündə əks etdirən mülkün birinci mərtəbəsində ticarət məkanları yerləşdirilmişdir.

Şuşanın qədim tacir evlərinin xarakterik xüsusiyyətlərini özündə əks etdirən mülkün birinci mərtəbəsində ticarət məkanları yerləşdirilmişdir. [1]

Evin divarları daş və əhəng-gil məhlulu qarışığından inşa edilmiş, divarın arası da həmin məhlulla üzlənmişdir ki, bu da binanın fasadına xüsusi kolorit verir; birinci mərtəbədə tikilinin fasadı tağvari formalı üç böyük girişə malikdir, ikinci mərtəbədə simmetrik formada üç pəncərə yerləşdirilmişdir. Divar boyunca keçən sadə daş lent pəncərələrin yuxarı ¼ hissəsinə çataraq onların tağını əhatələyir və beləliklə də bir növ çərçivə xarakterini yerinə yetirir.

Hacı Məmmədin evi — Şuşa şəhərinin A. Qaraşərov küçəsində (keçmiş Leytinnat Şmidt) yerləşən iki mərtəbəli ev. Evin otaqları divar rəsmləri ilə zəngin bəzədilmişdi. Tikilmə tarixi XVIII əsrə aiddir.

Mir Möhsün Nəvvabın evi – Şuşa şəhərinin tarixi Mamayı məhəlləsi ərazisindəki Nəvvab küçəsində (keçmiş Komsomolskaya) yerlşən iki mərtəbəli ev.

Azərbaycan şair və rəssamı Mir Möhsün Nəvvab bu evdə yaşamış və fəaliyyət göstərmişdir. SSRİ dövründə evdə sənətkarın ev muzeyi yaradılmışdır. Evin otaqları divar rəsmləri ilə zəngin bəzədilmişdir.

Uğurlu bəyin evi – XVIII əsrə aid Şuşa şəhərində yerləşən ölkə əhəmiyyətli abidə. Molla Pənah Vaqifin inzibati binası (Uğurlu bəyin keçmiş evi)

Üzeyir Hacıbəyovun ev-muzeyi - Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəyovun Şuşada yerləşən ev-muzeyi.

Qasım bəy Zakirin evi – XVIII əsrdə tikilmişdir.

Səfi bəyin evi – Şuşa şəhərində yerləşən XVIII əsrin əvvəllərinə aid tarix-memarlıq abidəsi.

Səfi bəyin zirzəmiyə malik iki mərtəbəli evi plan xüsusiyyətləri baxımından XVIII-XIX əsrlərdə inşa edilmiş Şuşa evlərini təkrarlasa da, ölçüləri baxımından onlardan seçilir. Uzadılmış düzbucaqlı formasına malik evin mərkəzində yanlardan rizalitlərlə əhatələnmiş iki mərtəbəli lodciya yerləşir.

Birinci mərtəbədə xidməti otaqlarla yanaşı rizalitlərdə yerləşdirilmiş iki yaşayış otağı da vardır. Fasadda inşa edilmiş daş pilləkən vasitəsi ilə birinci mərtəbə ilə əlaqələndirilmiş ikinci mərtəbənin mərkəzində böyük qonaq otağı, yanlardakı rizalitlərdə isə iki otaq yerləşir. Otaqların hər ikisi mərkəzi zalla birbaşa əlaqəyə malikdir. Zalın və lodciyanın tavanı, həmçinin qapıların ətrafları zövqlə çəkilmiş freska rəsmləri ilə bəzədilmişdir.

Plan həllinin dəqiqliyi həm də öz əksini fasadların həllində tapmışdır. Planın otaqların yerləşdirilməsini özündə tamamilə əks etdirən fasadlar üç hissəyə bölünmüşdür. Fasadların sadə dekorativ xüsusiyyəti tikilinin lakonik həcm-məkan həllini uğurla tamamlayır.

Hacı Əmirin evi – Şuşa şəhərinin Təbrizli məhəlləsində yerləşən, XVIII əsrin ortalarında tacir Hacı Əmir tərəfindən inşa etdirilmiş tarix-memarlıq abidəsi.

İki mərtəbəli yaşayış binasının birinci mərtəbəsində xidməti və qismən yaşayış otaqları, ikinci mərtəbəsində isə qonaq və yataq otaqları yerləşir. Lakin, ikinci mərtəbədə Şuşa evləri üçün ənənəvi olan lodciyanın yerinə, evlə eyni fasad xətti içində yerləşən açıq eyvana malikdir. [1]

Evin fasadında inşa edilmiş açıq pilləkən eyvana aparır. Eyvandan kiçik keçid otağına keçmək mümkündür. Həmin otaqdan yanlarda yerləşən iki otağa qapı açılır. [3] Yataq otağı kimi istifadə edilmiş həmin iki otaqdan birindən evin daxili həyətinə şəbəkəli pəncərə açılır. Qonaqların qarşılanması üçün nəzərdə tutulmuş digər otağın divarları və tavanı isə freska rəsmləri ilə bəzədilmişdir.

Bəylərin evi – Şuşa şəhəri Komsomolskaya 87 ünvanında yerləşən tarix-memarlıq abidəsidir.

XVIII əsrin sonları – XIX əsrin əvvəllərinə aid bu tikilinin memarlıq xüsusiyyətləri həmin dövrə aid bir çox ənənəvi Şuşa evlərinin memarlığı, eləcə də Azərbaycanın digər dağlıq rayonlarının yaşayış evləri üçün xarakterik olan xüsusiyyətlərə malikdir.

İki mərtəbəli evin daha hündür olan birinci mərtəbəsində xidməti otaqlar və axır yerləşir. Açıq daş pilləkən ikinci mərtəbədə yerləşən və şərqə doğru istiqamətlənən daş lodciyaya aparır. Lodciyanın iki tərəfinə yaşayış otaqları, üçüncü tərəfində isə divar yerləşir. Lodciyaya açılan otaqların divarları oyma işləmələrlə bəzədilmiş taxta qapılar və böyük şəbəkə pəncərələrlə bəzədilmişdir. Həmin otaqların qarşı tərəfdəki (lodciyaya açılan divarın qarşı tərəfiindəki) divarları da oxşar şəkildə - böyük şəbəkə pəncərələrlə həll edilmişdir.

Şuşa şəhərində ictimai tikililərlə yanaşı, mərkəzdə yerləşən yaşayış evləri Şuşa şəhərinin məhəllələrinin formalaşmasına səbəb olmuşdur. Şuşada 17 məhəllə vardı: Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dörd çinar, Dördlər qurdu, Hacı Yusifli, Çöl qala, Qurdlar, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllə.[1]

Hər məhəllədə hamam, məscid və bulaq vardı.Yaşayış evləri küçələrin qırmızı xətti boyu tikilmiş və məhəllələrin formalaşmasında əsas yer tutmuşdur.

Şəkil 1. Mehmandarovların ev muzeyi

Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə erməni vandalları 600-a yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənah xanın sarayı və kitabxanası, Xurşidbanu Natəvanın evi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Ə.B. Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir

Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Hal-hazırda bütün tarixi binaların bərpa edilməsi prosesinə başlanılıb və layihələr əsasında bərpa, konservasiya işləri davam etdirilir. Natavanın ev muzeyinin iki divarı qalmışdır. Natavanın ev muzeyində təmir bərpa işləri aparmaq üçün bütün sənəd və arxiv materialları toplanmalı, bu sənədlər əsasında evin planı və fasadları olduğu kimi təmir-bərpa işləri aparılmalıdır.

Hal-hazırda Mehmandarovların evində də təmir-bərpa işləri aparılır. Evin yaxınlığında İskəndər roketinin hissə və qalıqları tapılmışdır. (Şək.1)

Bu il yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı Bülbülün ev-muzeyini ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən muzeydə aparılan təmir-bərpa və yenidənqurma işləri artıq başa çatıb. Şuşa şəhərinin işğalı zamanı ev yararsız hala

salınıb, yükdaşıyıcı divarlarında çatlar əmələ gəlib və divarlar çöküb. Bərpa zamanı bütün yükdaşıyıcı divarların bünövrəsi möhkəmləndirilib, çat olan divar hissələrində yenidənqurma işləri aparılıb. Binanın daxili otaqlarında çürümüş taxta döşəmələr yeniləri ilə əvəz olunub. Dam örtüyü, qapı və pəncərələri çürüdüyündən və istismara yararsız halda olduğundan, binanın tarixi görkəmini qorumaq şərti ilə yenisi ilə əvəz edilib. Bülbülün ev-muzeyinə məxsus həyətyanı sahə ilkin görkəmi saxlanılmaqla bərpa olunub. Hazırda binada Bülbülün muzey ekspozisiyası qurulub. Ev-muzeyinin həyətində Bülbülün yeni hazırlanan büstü ucaldılıb. Şuşa şəhəri işğalda olduğu dövrdə Bülbülün vandalizmə məruz qalmış büstü isə erməni vəhşiliyini nümayiş etdirmək məqsədilə saxlanılıb. Bərpa işləri zamanı eyvana çıxan divarlarda suvaq altından daş üzərində yonulmuş ərəb əlifbası ilə iki yazı və günəş simvolunu əks etdirən təsvir aşkar olunub. Yazıların birində Qurandan ayə, digərində isə evin tikilmə tarixi qeyd edilib. Divarın üzərində yeni aşkar olunmuş yazıda göstərilir ki, bina 1788-ci ildə inşa edilib. Bina tipoloji mənsubiyyətinə görə Qarabağ və Azərbaycanın tarixi yaşayış binalarının xüsusiyyətini özündə əks etdirir, otaqların daxili quruluşu Azərbaycanın ənənəvi evlərinə xasdır. (Şək.2)

Şəkil 2. Bülbülün ev muzeyi

Şəkil 3. Üzeyir Hacıbəyovun ev muzeyi

Üzeyir Hacıbəylinin Şuşadakı ev muzeyinin bərpası layihəsi hazırdır, yaxın vaxtlarda təmir-yenidənqurma işlərinə başlanacaq.(Şək.3)

Şuşada yaşayış binalarının təmir-bərpa işləri planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır.

Ədəbiyyat:

1. Авалов, Э. В. (1977). Архитектура города Шуши и проблемы сохранения его исторического облика. Баку: Элм.

2. Саламзаде, А. В. (1964). Архитектура Азербайджана XVI-XIX вв. Баку.
3. Фатуллаев, Ш. С. (1970). Памятники Шуши. Баку.
4. Vikipediya- Şuşanın memarlıq abidələri

N. Makhsudova

Restoration of SHusha residential buildings

Keywords: Shusha city, building, architectural style, Arran architectural school, repair-restoration.

The article examines the residential buildings of Shusha, the pearl of Karabakh. Attention is paid to the history of construction of residential buildings, master-architects, architectural-spatial, architectural-compositional features. The constructive solution and restoration plans of the interior and exterior of the buildings are explained.

Н. Максудова

Восстановление жилых домов Шуши

Ключевые слова: город Шуша, здание, архитектурный стиль, Арранская архитектурная школа, ремонт-реставрация.

В статье исследуются жилые дома жемчужины Карабаха - Шуши. Уделяется внимание истории строительства жилых домов, мастерам-архитекторам, архитектурно-пространственным, архитектурно-композиционным особенностям. Объясняются конструктивное решение и планы реставрации интерьера и экстерьера зданий.

ŞƏHƏRSALMA, LANDŞAFT MEMARLIĞI VƏ DİZAYN

Эльчин Ф. Алиев

Института Архитектуры и Искусства НАНА,
доктор философии по искусствоведению,
elexer.5@mail.ru

УДК: 711.1

ФАКТОРЫ ВЛИЯНИЯ НА СОЗДАНИЕ НОВОГО АРХИТЕКТУРНО-ХУДОЖЕСТВЕННОГО ОБРАЗА ГОРОДА ШУШИ

Аннотация: Один из ключевых вопросов градостроительства: человек создает город или город создает человека? Город – не просто набор зданий и улиц. Город – организм, а также, место, система и структура. Все это относится к будущему состоянию и формированию облика Шуши.

Говоря об эстетике, необходимо четко поставить вопрос будущего назначения города. Главное - образ города, целостная фигура-объем и знаковый силуэт, который будет виден издалека и нести символическую нагрузку.

Образ должен изобразить функцию города-крепости. Он, кстати, так исторически и закладывался. Шуша стала сегодня маркером военной функции и победы. Наряду с этим основополагающим принципом, будущее города должно усвоить международную функцию регионального центра исламской культуры.

Ключевые слова: город, человек, город-крепость, оккупация, Шуша, исламская культура, региональный центр, «форсайт» методика.

Один из ключевых вопросов градостроительства: человек создает город или город создает человека? Город – не просто набор зданий и улиц. Город – организм, а также, место, система и структура. Все это относится к будущему состоянию и формированию облика Шуши.

Что делать с освобожденным от оккупации городом, в котором 30 лет отсутствовало коренное население, его городские жители, представители семей, которые жили поколениями в этом городе? За 30 лет сформировалось новое поколение, которое никогда не жило в городе своих родителей. Под вопросом стоит возврат на постоянное жительство городской молодежи, жившей в Шуше до оккупации, которым

сейчас за 50 или 60 лет. На данный момент нет четкого функционального видения этой категории шушинцев. Чем они будут заниматься в таком возрасте. То есть, историческая преемственность поколений жителей прервана.

Преемственность остается в сохранении и реставрации архитектурных памятников и исторических кварталов с объектами досоветского периода архитектуры и градостроительства. Также, в этом контексте важны исторические памятники, объекты, здания, связанные с великими деятелями культуры, науки и политики. Это опорные зоны формирования генплана будущего города Шуши. Все остальное подлежит принципиальному обновлению. Восстанавливать города с советским обликом не имеет смысла. Реставрировать отдельные памятники архитектуры необходимо с привлечением лучших специалистов - это аксиома. Помимо реставрации, какие-то объекты потребуют консервации, а, какие-то – реновации. Генплан города должен учитывать исторически сложившуюся застройку и традиции. Там, где это сохранилось в виде архитектурной среды кварталов, улиц и площадей. Это восстановление культурного ядра исторической части.

Остальное должно формироваться по-новому, в соответствии с главным фактором - назначением города. Просто «город для жилья» - это утопия. Сегодня города или развиваются, или деградируют. Это зависит от их назначения, прежде всего, экономического профиля. Значит, зонирование генплана восстановленных городов Карабаха, в том числе Шуши, будет зависеть от экономического набора производств и элементов их жизнеобеспечения. Надо определить различие этих городов по назначению, по градообразующему профилю. Отдельный вопрос - транспортные узлы и подключение этих городов к региональным и международным коммуникациям, с обслуживающим персоналом, состоящим из местного населения.

Что касается самой архитектуры города Шуши, прежде всего, должен быть введен жесткий запрет на нарушение этажности. Только одно, двух и трехэтажные строения. Обилие зеленых насаждений, скверов и парков с местной уютной атмосферой. Удобная градостроительная планировка с учетом прогнозов развития и укрупнения города. Ведь нужно думать не только о сегодняшнем дне.

Очень важно использование региональных традиций архитектурных элементов, таких как черепичные крыши, балконы-айнабенды, кирпичная кладка и породы местных камней для фасадов. Все это очевидно и предсказуемо. Говоря об эстетике, необходимо четко поставить вопрос будущего назначения города. Главное - образ города, целостная

фигура-объем и знаковый силуэт, который будет виден издалека и нести символическую нагрузку.

Образ должен изобразить функцию города-крепости. Он, кстати, так исторически и закладывался. Шуша стала сегодня маркером военной функции и победы. Все остальное, в том числе славное музыкальное, литературное прошлое и иные культурные компоненты остались пока в прошлом. Он должен стать единым символом. Создать военный город-крепость на основе традиционной эстетики с современной инженерной инфраструктурой для военных и их семей, а также зданий, объектов и зон отдыха для их обслуживания - жизненно необходимо. В контексте современной военно-политической ситуации Шуша призвана стать, прежде всего, военным городом. А, по внешнему виду эстетически красивой, но с грозной символикой крепости и доминанты региона. Туризм же с отелями и объектами развлечения имеет смысл развивать в Кельбаджаре и Лачыне, с учетом их природной составляющей.

Помимо военно-политической составляющей будущего назначения города Шуши, есть другие важные компоненты, объявленные для реализации высшим руководством страны. 5 января 2021 года Президент Азербайджана Ильхам Алиев объявил город Шуша культурной столицей страны. «Ее историческое и культурное значение и исключительная моральная ценность для азербайджанского народа заставляют относиться к Шуше с особой заботой и чуткостью. В этой связи дальнейшее совершенствование государственного управления и правового регулирования в Шуше послужит не только восстановлению и сохранению историко-культурного наследия в городе, но и создаст условия для его непрерывного развития», - цитата из текста распоряжения главы государства. В этом же распоряжении фигурирует тезис "восстановления исторического облика города Шуша, возвращения ему былой славы и возобновления традиционной содержательной культурной жизни».

Генеральный директор Исламской организации по вопросам науки, образования и культуры (ИСЕСКО) Салим бин Мухаммад аль-Малик на пресс-конференции в Университете АДА 14 января 2021 заявил: «Мы предлагаем объявить Шушу столицей исламского мира». С учетом этих установок, для города Шуши появляются два измерения, помимо предложенной военно-политической. Это: Культура и Ислам. С учетом этих доктрин, Шуша приобретает значение международного масштаба в регионе.

Как, и современные военно-политические инновации, так и культурно-религиозные компоненты не могут быть музейным наследием и отражением прошлого. Речь идет о современном формате, как культуры, так и исламского мира, устремленного в будущее. Естественно, с

бережным отношением к прошлому и истории, как подосновы будущего. Для осуществления будущей программы с несколькими формирующими компонентами градостроительной структуры Шуши, требуются проектирование и строительство объектов специального назначения. Их объем и параметры потребуют разработки перспективной программы действий по методологии «форсайт», как системы методов экспертной оценки стратегических направлений художественно-культурного и инновационного развития. Всё это надо сделать до работы архитекторов и разработчиков генплана градостроителями. То есть, необходимо экспертная подоснова для проектирования. Для этого должны быть проведены предварительные исследования, на основе которых строятся гипотезы, и только после этого организуются обсуждения группами экспертов, которые начинают выстраивать на основе выводов настоящего пути в будущее. Прогнозирование экспертов из различных областей должно предварить проектирование.

Теперь, говоря о «форсайт» методике, надо возвратиться к экономическому фактору развития города Шуши. В процессе выбора сценария градостроительного процесса могут применяться различные критерии для определения наиболее предпочтительных вариантов. Так, например, при выборе технологий, может использоваться критерий достижения максимального экономического роста, а при построении технологической дорожной карты для города – выявление потенциальных рыночных ниш и выбор технологий, позволяющих максимально быстро разработать конкурентоспособные продукты для возникающих рынков. Речь идет о месте Шуши в региональной структуре экономики всего Карабаха, а также регионального разделения труда на международном рынке окружающих Азербайджан стран. Выбор стратегии развития нужно производить на основе последовательности широких экспертных консультаций, что позволит предвидеть самые неожиданные пути развития событий и возможные факторы противодействия, в том числе масштабные пандемии и экономические или политические непредвиденные «черные лебеди» (по терминологии Нассима Талеба).

Форсайт метод исходит из того, что наступление «желательного» варианта будущего во многом зависит от действий, предпринимаемых сегодня, поэтому выбор вариантов сопровождается разработкой мер, обеспечивающих оптимальную траекторию инновационного развития. В этом контексте возникает вопрос транспортно-экономической составляющей города Шуши с учетом будущих изменений потребностей. Вопросы разного профиля будущего Шуши должны стать предметом обсуждения не только ученых, но и политиков, бизнесменов, специалистов-практиков из разных отраслей экономики, культуры и религии.

Организация систематических попыток “заглянуть в будущее” приводит к формированию более высокой культуры управления и в итоге – к формированию более обоснованной научно-технической и инновационной политики развития города.

Дав описание подоснов для формирования и проектирования, стоит сделать акцент о будущем образе города Шуши. Выше было сказано о военной символике общего контура и силуэта города. Это важнейший знаковый формат для восприятия извне. Это касается не только самих жителей и граждан Азербайджана, но и противников, а также союзников из сопредельных стран. Символика силуэта города – долговременный фактор психологического воздействия. Воздействие есть результат восприятия. Восприятие имеет свою специфику и связано с социологией воображения.

Аспекты качеств во времени проживания-переживания человека, можно сопоставить со Знанием (прошлое), Восприятием (настоящее), Проектированием (будущее). Этот тезис предполагается в режимах и конструкциях Воображения. Говоря об историческом или коллективном прошлом, люди воображают «как», «что» и «почему» было. Будущее как проект, не обходится без воображения. Настоящее является продуктом и функцией восприятия, которое никак не может отсечь воображение и быть абсолютным тождеством «происходящему». Абсолютен — Бог, а, человек — ограничен, относителен и со-относителен. Исключение составляют пророки, как синтез абсолютного знания, восприятия и проектирования, проживающие моменты получения божественного откровения от Абсолюта. Возвратимся к остальным людям, соответственно к проблеме неминуемого воображения. По социологии воображения наиболее интересна теория Жильбера Дюрана. Почему познание нуждается в смысловом мосте с притчами и символами? В этом контексте осознается глобальное значение Искусства, как режима и конструкции Воображения. Речь идет в данном случае об Искусстве Архитектуры. Архитектура выступает в аспектах знания-восприятия-проектирования.

То, что мы сегодня называем архитектурой в современном смысле слова, стало строительным дизайном по содержанию и технологии. Ключевым аспектом характера строительного дизайна стала фрактальность. Фрактал (лат. fractus — дроблёный, сломанный, разбитый) — множество, обладающее свойством самоподобия. Фрактальные объекты в точности или приближённо совпадают с частью себя самого, то есть целое имеет ту же форму, что и одна или более частей. Фрактальное дробление — одна из моделей картины мира, воспринимаемая сегодня в контексте глобального информационного потопа. Когда нет конечной точки смысла, остановки суждений и определений. Для кого-то

фрактальность мира «игра в хаос», для кого-то кошмар, для кого-то гарантия от ограничений, для кого-то креативный режим и т.д. Говоря о фрактале, мы говорим об умозрительной модели. Хотя в природе огромное количество фрактальных структур, типа облаков, снежинок или крон деревьев. В художественных фильмах часто используется выражение: «ты не видишь целого», или «ты не видишь общей картины». Фрагментация и зацикленность на фрагментах — естественное состояние общества. Видение целого — проблема, для разрешения которой требуются усилия. Видение целого — субъектность. Субъектность определения «начала». Мировое искусство архитектуры всегда занималось соотношением целого и части. Традиционная линия в искусстве — это парадигма Целого. Особенно, в традиционной архитектуре. Современное архитектурный дизайн создал гигантское поле дробления форм, смыслов и поклонения фрагменту. Ирония в том, что такая фрагментация не останавливается, а продолжает фрактально (или фатально) самовоспроизводится в своем дроблении. Это занимает внимание и сознание современного проектировщика с большинством зрителей и потребителей. На фоне обозначенного процесса кто-то обращается (или возвращается) к понятию «Логос». Логос, от древнегреческого λόγος — слово, мысль, смысл, понятие, причина. Впервые терминологически использован в философии Гераклитом, которого волновало первооснова мира. Поэтому образ города должен основываться на Логос, если он не хочет потерять свое лицо и образность.

Каковы компоненты для формирования образа Шуши? В первую очередь – военная Крепость. Далее – инновационная Культура. Завершение — духовность Ислама. В данном случае, необходимо объединить в художественное целое три компонента. Синтез в триединстве. Чтобы представить визуально данный тезис, стоит обратиться к историческому прецеденту, реализованному в средневековой Франции. Речь идет об аббатстве Мон-Сен-Мишель, небольшом скалистом острове, превращённом в остров-крепость, на северо-западном побережье Франции. Вершину скалы завершает доминанта — величественный храм с высоким шпилем. Архитектура монастыря уникальна тем, что монастырские службы не окружают монастырский двор, но построены на разных уровнях. Культовые сооружения венчают гору, создавая верхний пояс города-крепости. Средний пояс состоит из жилых строений горожан. Нижний пояс представляет из себя кольцо крепостных стен. Таким образом, религиозно-культовая, культурно-общественная и военно-крепостная составляющие города создают уникальный по красоте облик и целостный образ по символике. Учитывая горный ландшафт расположения города Шуши, можно сказать, что аналогия с архи-

тектурно-градостроительной структурой аббатства Мон-Сен-Мишель уместна, с учетом местных особенностей и инновационных технологий.

Завершая вышесказанное, отметим, что особую красоту и оригинальность облику городов Карабаха и, прежде всего Шуше, придаст архитектурно-дизайнерская система, разработанная на основе древних и средневековых культурных традиций Азербайджана. Речь идет о фундаментальной теории и методике Сиявуша Дадаша, по идеям ученого Худу Мамедова. Сиявуш Дадаш смог конвертировать традицию ковра, миниатюры и архитектуры в современные формы. Архитектурно-дизайнерская концепция как синтез традиции и инноваций уже сформирована. Группе архитекторов (многим поколениям его учеников) осталось реализовать эту методику, как в градостроительном масштабе, так и в отдельных зданиях.

E. F. Aliyev

Factors influencing the creation of a new artistic and architectural image of Shusha city

Key words: city, man, city-fortress, occupation, Shusha, Islamic culture, re-gional center, “foresight ”method.

One of the main issues of urban development: Does man create a city, or does a city create a man? The city is not just a collection of buildings and streets. A city is an organism, but also a place, a system and a structure. All these applies to the future of Shusha and the formation of its appearance.

When talking about aesthetics, the issue of the future purpose of the city should be clearly raised. The main thing - the image of the city, which can be seen from afar and will carry a symbolic load, the uniform volume and the silhouette of the sign.

The image of the city should reflect the function of the Shusha fortress. By the way, it is historically so. Today Shusha has become a symbol of military servi-ce and victory. Along with this basic principle, the future of the city must assume the function of a regional center of international Islamic culture.

E. F.Əliyev

Şuşa şəhərinin yeni bədii memariq simasının yaranmasına təsir edən faktorlar

Açar sözlər: şəhər, insan, şəhər-qala, işğal, Şuşa, İslam mədəniyyəti, bölgə mərkəzi, "forsayt" metod.

Şəhərsalmanın əsas suallarından biri: insan şəhər yaradır, yoxsa şəhər insanı yaradır? Şəhər təkcə bina və küçə yığınığı deyil. Şəhər bir orqanizmdir, həm də bir məkan, sistem və quruluşdur. Bütün bunlar Şuşanın gələcək vəziyyətinə və görünüşünün formalaşmasına aiddir.

Estetika haqqında danışarkən, şəhərin gələcək məqsədi ilə bağlı məsələni aydın şəkildə gündəmə gətirmək lazımdır.

Şəhərin obrazı Şuşa qalasının funksiyasını əks etdirməlidir. Yeri gəlmişkən, tarixən belə qoyulub. Şuşa bu gün hərbi funksiyanın və qələbənin nişanəsinə çevrilib. Bu əsas prinsiplə yanaşı, şəhərin gələcəyi beynəlxalq İslam mədəniyyətinin regional mərkəzinin funksiyasını mənimsəməlidir.

Etibar Bədəlov

Coğrafiya üzrə fəlsəfə doktoru, dosent.
AMEA akad. H.Ə.Əliyev ad. Coğrafiya İnstitutu
badalov.1958@mail.ru

UOT: 314; 711.01

QARABAĞ VƏ ŞƏRQI ZƏNGƏZUR IQTISADI RAYONLARININ ŞƏHƏR MƏSKUNLAŞMASI VƏ ONLARIN GƏLƏCƏK INKIŞAF PERSPEKTIVI

Xülasə. Məqalədə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında şəhər məskunlaşmasının formalaşması və inkişafı, həmçinin iqtisadi rayonlar üzrə şəhər əhalisinin və urbanizasiya səviyyəsinin dinamikası təhlil edilmişdir. Regionda II Vətən müharibəsindən sonra işğalda olan və olmayan şəhərlərin müasir vəziyyəti və problemləri araşdırılmışdır. Hər iki regionun gələcək inkişaf perspektivi üçün yeni yaranan məskunlaşmanın A, B və C zonaları üzrə təbii-coğrafi mühit, əhali və iqtisadi potensial amillərinə uyğun olaraq qruplaşma aparılmış, buna uyğun şəhərlərin inkişafı və şəhərsalma problemləri, onların həlli istiqamətləri üzrə təklif və tövsiyələr verilmişdir.

Açar sözlər*:* şəhər məskunlaşması, urbanizasiya, şəhər, qəsəbə, məskunlaşma zonası, şəhərsalma

Qarabağ və Şərqi Zəngəzur ərazisi Azərbaycanın qədim tarixi torpaqları olub, qədim şəhər məskənlərinin formalaşdığı məkanlardan biri olmuşdur. Bu ərazidə qədim şəhər məskəni Bərdə idi, onun yaranması e.ə. I minillikdən əvvəl baş versədə, lakin çiçəklənmə mərhələsi e.ə IV-II əsrlər (Albaniya mərhələsi) və VII-X əsrlər (ərəb xilafəti dövrü) baş vermiş, XIII-XVIII əsrlərdə tənəzzül dövrü keçirmişdir. XVIII əsrin ortaları bu ərazidə Qarabağ xanlığının yaranması ilə Şuşa şəhəri tikilir və xanlığın paytaxtı olur, Ağdam kiçik ticarət mərkəzi kimi fərqlənirdi. Şuşanın inkişafında baş verən köklü dəyişiliklər kapitalizm münasibətlərinin inkişafı ilə bağlı olaraq baş vermişdir. Azərbaycanın XIX və XX əsrin əvvəli sonra ən böyük şəhərlərindən biri idi. Bu dövrdə Ağdam və Füzuli (Karyaqin) kiçik şəhərlər idi.

Şəhər məskunlaşması. Qarabağ və Şərqi Zəngəzur ərazisində şəhər məskunlaşmasının əsas formalaşma mərhələsi Sovet hakimiyyətinin ilk illərində baş vermişdir. Bu dövrün əvvəllərində Şuşa şəhərində 1918-ci ildə ermənilərin apardığı soyqırım hadisəsi, 1920-ci illərdə də bolşeviklər tərəfindən davam etmiş və şəhərin əhalisi 44 min nəfərdən 5 min nəfərə kimi

azalmış, burada olan ermənilərin böyük hissəsi 1923-cü ildə yeni yaradılan Xankəndi şəhərinə köçürlür. 1923-ci ildə Laçına şəhər statusu verilir. Həmçinin bu dövrdə şəhər statusunu 1948-1949-cu illərdə Bərdə və Tərtər, 1962-1967-cı illərdə Ağcabədi və Zəngilan, 1980-cı ildə Kəlbəcər və Cəbrayıl, 1989-1991-cı illərdə Ağdərə, Xocalı, Xocavənd və Qubadlı almış, 2007-ci ildə Horadizə şəhər statusu verilmişdir [5].

1991-ci ildə istiqlaliyyətimizin bərpa edilməsi, 1992-1994-cü illərdə I Vətən mühüribəsinin baş verməsi, Ermənistan dövləti tərəfindən Şərqi Zəngəzur ərazisi tamamilə və Qarabağın böyük hissəsi işğal edilmiş, burada olan şəhər və kəndlərimizi xarabalığa çevirmişdir. Bu dövrdə Şərqi Zəngəzurda 5 şəhər və 11 qəsəbənin hamısı, Qarabağda isə 11 şəhər və 8 qəsəbədən 7 şəhər və 5 qəsəbə işğal olunmuşdu. Rayonlar üzrə Şərqi Zəngəzur iqtisadi rayonun bütün inzibati əraziləri, Qarabağın inzibati rayonları arasında Şuşa, Xocalı, Xocavənd, Tərtərin bir hissəsi keçmiş Ağdərə , Ağdamın (78%) və Füzulinin (60%) işğal edilmişdi.

2020-ci ildə 44 günlük II Vətən mühüribəsində qazanılan zəfər nəticəsində torpaqlarımız düşməndən azad olunmuş, müharibədən sonra 7 şəhərin ancaq xarabalıqları və Şuşa qismən qalmış, Qarabağın dağıntıya çox məruz qalan şəhəri Tərtər, nisbətən az məruz qalan Ağcabədi, Bərdə və Horadiz, qəsəbələrdən Quzanlı, Hindarx olmuşdur. Sülhməramlı nəzarətində olan şəhərlər Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Lacın və qəsəbələrdən Əsgəran, Qırmızı Bazar, Turşsudur. Hazırda həmçinin Fizuli rayonunda 16 və Ağdam rayonunda 13 qəsəbə tikilməkdədir. Hər iki iqtisadi rayonda quruculuq işləri davam edir, yol infrastrukturu sürətlə çəkilir, Şuşa və Tərtər şəhərlərinin bərpasında böyük işlər görülmüş, Ağdam şəhərinin yenidən tikintisinə başlanmış, digər şəhərlər də layihələr üzrə yenidən tikiləcəkdir.

Cədvəl 1.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları (2020)

İqtisadi rayonlar	ərazi		əhali		şəhər əhalisi		Urbani-zasiya %
	(min kv.km)	Payı %	Say (min n.)	Payı %	Say (min n.)	Payı %	
Azərbaycan	86,6	100	10119,11	100	5358,5	100	53,0
Qarabağ	8,99	10,4	904,5	8,9	300,6	5,6	33,2
o.c. sülhməramlı nəzarətində	3,20	-	40,0	-	30,0	-	
Azərbaycan musiqi mədəniyyətinin inkişafında Hüseynqulu Sarabski kimi fədailərin adı heç vaxt unudulmamalıdır. Azərbaycan incəsənətində, mədəniyyətində belə sənətkarlar son dərəcə nadir və əvəzolunmazdır. Sənət, maariflənmə və tərəqqi yolunda var gücü ilə çalışan, qarşısında duran çətinləklərə əzmlə sinə gərən, tutduğu yoldan dönməyən Hüseynqulu Sarabskinin yaradıcılıq fəaliyyəti son dərəcə geniş və müxtəlif olmuşdur. O, həm opera səhnəsində, həm dramatik teatrda müğənni və aktyor kimi çıxış etmiş, rejissorluq sahəsində özünü sınamış, teatr üçün dram əsərləri yazmış, mahnı bəstələmiş, folklorşünaslıqla məşğul olmuş, musiqinin tədrisi ilə bağlı pedaqoji iş aparmış, ictimai xadim kimi fəaliyyət göstərmişdir. Bütün bu aspektləri sənətkar tam bir vəhdət halında öz yaradıcılığında böyük bacarıqla uzlaşdıra bilmişdir.

Hüseynqulu Sarabski bütün bunlarla yanaşı, həm də gözəl muğam bilicisi və ifaçısı olmuşdur. O, güclü, yüksək səsə, geniş nəfəsə malik bir xanəndə idi. Yaxşı məlum olduğu kimi, Hüseynqulu Sarabski muğamları

yüksək tessiturada, güclü səslə, ekspressiv, kəskin emosional "not"da oxuması ilə şöhrət tapmışdır.Hüseynqulu Sarabski muğam ifaçıları, xüsusilə də, Qarabağ xanəndələri ilə sıx təmasda, yaxın yaradıcılıq əlaqəsində olmuşdur. Belə ustad xanəndələrdən Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski, Zülfi Adıgözəlov və başqaları onunla yaxın dostluq münasibətində olmuş, həmşinin, konsert proqramlarında, qastrol səfərlərində də birlikdəiştirak etmişlər.

Hüseynqulu Sarabskimim AMEA-nın Əlyazmalat İnstitutunda saxlanan şəxsi arxifində onun Qarabağ xanəndələri və Qarabağ muğam məktəbi haqqında maraqlı fikirləri və xatirələri saxlanılır (f.15). O, Qarabağın ustad xanəndə və instrumental ifaçılarnın sənətini yüksək qiymətləndirmiş vəöz yazılarında daima onların sənətinə istinad etmişdir, bir nümunə olaraq onların sənətini, ifa etdikləri muğamları misal göstərmişdir.

Qarabağ muğam sənətinin bir məktəb kimi formalaşmasında XIX əsrin ortalarından başlayaraq Şuşada müxtəlif tədris ocaqlarının (Xarrat Qulunun), həmçinin, muğam sənətini, muğamları tədris edən digər musiqili-ədəbi məclislərinin (Hacı Hüsünün Mir Mövsüm Nəvvabla birlikdə yaratdığı "Xanəndələr", X.Natavanın "Məclisi-üns", M. Nəvvabın "Məclisi fəramuşan" və ya "Məclisi-xamuşan" məclislərinin) təşkili və fəaliyyəti mühüm rol oynamışdır. Muğam məclislərində dövrün tanınmış xanəndə və sazəndələri ilə yanaşı şairlər, rəssamlar, ədiblər də iştirak edərək öz sənətlərini püxtələşdirmiş və qarşılıqlı təsir nəticəsində daha da zənginləşdirmişlər.

Şuşa məclislərində musiqinin estetik problemləri, ifaçılıq, muğam sənəti kimi məsələlər müzakirə edilir, muğamların ifasına 2-3 saat vaxt ayrılırdı. Məclislərdə ifa olunan muğam dəstgahlarında bütün keçidlərə riayət edilməsi tələb olunurdu. Muğam ifaçılığında ciddi tələblərin irəli sürülməsi musiqiçiləri öz ifa səviyyələrini yüksəkdə qoruyub saxlanılmasına kömək edirdi. Hətta, bir muğam bir neçə xanəndə tərəfindən oxunduqdan sonra həmin ifalar müqayisə edilərək təhlil olunurdu. Belə muğam məclislərində mahir muğam biliciləri bu və ya digər ifanı geniş müzakirə edir, hansı qəzələin seçilən muğama daha yatımlı olmasını aydınlaşdırırdılar. Xanəndənin işlətdiyi zəngulələr, xallar, çalarlar geniş təhlil olunurdu. Belə müzakirələr bütövlükdə muğamın, ifaçılıq sənətinin inkişaf etməsinə təkan verirdi. Qarabağ muğam məclislərinin məqsədi yeni xanəndələr nəsli yetişdirmək, xanəndəlik sənətinin xalq arasında yayılmasına nail olmaq və Azərbaycan muğamını inkişaf etdirməkdən ibarət idi.

Hüseynqulu Sarabski pedaqoji fəaliyyəti zamanı hər zaman öz şagirdlərinə Qarabağ muğam məktəbinin, Qarabağ xanəndələrinin muğam sənətində əldə etdikləri nailiyyətlərindən böyük fərəhlə söhbət açırdı. O,

gənc nəslə muğamın tədrisində məhz Qarabağ xanəndələrindən öyrənməyi məsləhət görürdü. Bununla bağlı H.Sarabski "Muğamat və el mahnıları" məqaləsində yazırdı: "Dərs zamanı lazımdır tələbələri sistematik bir surətdə yaxşı tar çalanlarla tanış etmək – onları klasa dəvət edib Azərbaycan muğamları və el mahnıları çaldırmaq.

Həmçinin, yaxşı oxuyanları dəvət edib klasda oxutmalı və bundan kifayətlənməyib köhnə qramafon plastinkalarını qaldırıb tələbələri Keçəçi Məmməd, Ələsgər, Seyid, İslam, Cabar və başqalarının oxuduqları muğamları ilə tanış etməli" (f.25, s.v.26). Sarabskinin sadaladığı bu Qarabağ xanəndələri - Keçəçi oğlu Məhəmməd, Seyid Şuşinski, İslam Abdullayev, Cabbar Qaryağdıoğlu, həqiqətən, öz ifaları ilə Azərbaycan muğam sənətini yeni şöbə və guşələrlə zənginləşdirmişlər.

Danılmaz faktdır ki, Qarabağ hər zaman muğam ifaçılığı üçün güclü səslər, istedadlı xanəndələr yetişdirmişdir. Ən məşhur zil səslər Qarabağ muğam məktəbində formalaşmışdır: Hacı Hüsü, Əbdülbaği Zülalov, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, İslam Abdullayev, Məşədi Məhəmməd Fərzəliyev, Məcid Behbudov, Bülbül, Xan Şuşinski, Seyid Şuşinski və başqaları öz səsləri ilə məşhurlaşmışlar. Bütün bunları nəzərə alaraq H.Sarabski belə bir sual ilə müraciət edir: "Oxuyanlar öz sənətlərində nə ilə şöhrət tapmışlar?" bundan sonra özü belə bir cavab verir: "Əlbəttə, zəngulə və ləhcə ilə. Zəngulə həmişə boğaz, kəllə və dilçəyin vasitəsilə əmələ gəlir. Zəngulənin də zəifi və güclüsü var. Oxuyan var zəngulə vuranda qulaxlar cingildəyir. Oxuyan da var zəngulə vurur, ancaq heç bir təsir buraxmır, zəif çıxır" (f.15, s.v. 26). Şübhəsiz, sadalanan müsbət cəhətlərin Qarabağ xanəndələrində olduğunu, onların şaqraq zəngulələri, şirin ləhcələri ilə dinləyicini valeh etmələrini o, dəfələrlə qeyd edirdi.

Qarabağ muğam məktəbinin inkişafının yüksək mərhələsi Cabbar Qaryağdı oğlunun adı iləbağlı olmuşdur. O, xalq şənliklərinin, muğam məclislərinin, ilk "Şərq konsertlərinin" fəal iştirakçısı olmaqla yanaşı, həm də səsi qrammafon valına yazılan ilk xanəndə kimi məşhurlaşmışdır.

Cabba Qaryağdı oğlu muğam dəstgahlarımızı özünəməxsus ifa edərək onların təkmilləşməsinəöz töhfəsini vermişdir. O, "Rast", "Çahargah", "Segah", "Mahur" muğamlarının yeni variantlarının (bura yeni guşələr, xallar əlavə edərək), bir çox təsnif və mahnıların (sonralar xalq mahnısı kimi məlum olan) yaradıcısı olmuş, xüsusilə, "Çahargah" muğamını özünəməxsus tərzdə ifa etdiyinə görəseçilmişdir. Onun "Mənsuriyyə" şöbəsini fövqəladə bir istedadla oxuması muğam sənətində bir möcüzə sayılırdı. Burada onun gözəl yollar, üsullar tapıb seçməsi, dəstgahın ən çətin gediş-gəliş yollarında orijinal tərzdə mahərətlə gəzişmələr etməsi yüksək ifaçılıq nümunəsi kimi dəyərləndirilir.

Qarabağ xannədəlik məktəbini təmsil edən Seyid Şuşinski Azərbaycan muğamını inkişaf etdirərək daha da irəli aparmışdır. O, bir çox muğamlara

yeni xallar, guşələr əlavə edən, gözlənilməz keçidlər edən, bir çoxlarını isə birləşdirib oxuyan yenilikçi sənətkar kimi tarixə düşmüşdür. Bunlardan "Rast-Humayun", "Qatar–Bayatı", "Şur-Şahnaz" və s. göstərmək olar. Bir muğamdan digərinə modulyasiya etmək bacarığını da o, Cabbar Qaryağdı oğlundan əxz edərək inkişaf etdirmişdir. Məsələn, "Bayatı-Şiraz" muğamında onun "Xavəran" şöbəsindən "Qatar"a keçidi xanəndədən güclü səs və böyük cəsarətlə yanaşı, həm də yüksək professionalizm və ustalıq tələb edirdi. Bundan əlavə o, bəhrsiz muğam şöbəsindən bəhrli hissəyə böyük bacarıqla keçidlər etməyə qadir idi. Seyid Şuşinskinin bir novator xanəndə olması muğamlara yeni şöbələr əlavə etməsində də özünü göstərir. Məsələn, "Rast" və "Kürd-Şahnaz"a ilk dəfə olaraq "Dilkeş" şöbəsini daxil etmişdir.

Seyid Şuşinski muğam ifaçılığında şöbələr arasında təzadlığı artırmış, muğamın dramaturji prinsiplərinin daha da zənginləşməsinə, ideya-fəlsəfi məzmunun çoxcəhətli və dolğun bir şəkildə ifadəsinə nail olmuşdur. Bu, xanəndənin ifasında səslənən "Çahargah" muğamını dinlədikdə təsdiqini tapır. Belə ki, Seyid Şuşinski "Cahargah" dəstgahını ənənəvi şəkildə deyil, yəni hamının ifa etdiyi kimi "Cövhəri" ilə deyil, zildən "Mənsuriyyə" üstə müqəddimə verməklə başlar, 10-15 dəqiqə yüksək pərdələrdə oxuduqdan sonra isə muğamın mayəsinə qayıdardı. Bu prinsip onun tələbələri tərəfindən də mənimsənilərək ifaçılıqda tətbiq olunmuşdur.

Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndələrindən biri olan İslam Abdullayev isə "Segah"ı, xüsusilə də, "Yetim segah" muğamını olduqca lirik, həyəcanlı ifa etdiyinə görə nəinki Azərbaycanda, bütün Qafqazda və Yaxın Şərqdə böyük şöhrət tapmışdır. Onu, hətta, belə gözəl və əvəzolunmaz ifasına görə "Segah İslam" da adlandırırdılar.

Qarabağ xanəndələri nəinki mahir ifaları, həm də yaradıcı təxəyyülü ilə seçilərək Azərbaycan muğam sənətini yeni muğam dəstgahları ilə zənginləşdirirdilər. Məsələn, qocaman xanəndə Cabbar Qaryağdının məlumatına görə, Hacı Hüsü Sadıxcanın müşayiəti ilə birgə "Qatar" muğamını yaratmışdır.

Qarabağ xanəndələrinin bu cür nailiyyətləri H.Sarabskini bir peşəkar ifaçı kimi daima maraqlandırırdı. Onların yaradıcılığını dərindən izləyən və müşahidə edən H.Sarabski hər bir xanəndənin özünəməxsusluğunu və fərdiliyini müqayisə yolu ilə öz tələbələrinin nəzərinə çatdırırdı. Bununla bağlı o yazırdı: "Üç oxuyan bir Çahargah dəstgahı oxuyanda görünür ki, hər biri başqa çür oxuyur, ancaq qulax asandan soruşsan deyəcəkdir üçü də Çahargahdır. Oxuyanların səslərinin gücündə də dərəcəsi var. Oxuyanların hər biri də bir kökdə oxuyur. Cabbarın kökü başqadır, Seyidinki başqadır, Ələsgərinki başqadır. Bunların hamısı yaxşı oxuyur, hər biri öz qabiliyyəti sayəsində Çahargah ***"yaradır"*** (kursiv müəllifindir – R.M.). Sarabskinin çox düzgün qeyd etdiyi kimi, həqiqətən, eyni muğam müxtəlif xanəndələr

tərəfindən müxtəlif təfsirlərdə təqdim olunur, hər bir ustad xanəndə muğama öz "naxışını", öz "ilməsini" vururdu.

Hüseynqulu Sarabski Qarabağ xanəndələrinin ifa etdikləri muğamların bütün Azərbaycan xaqının ruhuna tam cavab verdiyini və hərənin öz yaradıcılıq yolu olmasına baxmayaraq, onların hamısının Azərbaycan muğamı oxuduğunu nəzərə çatdırırdı.Bununla bağlı o yazırdı:"Bizim xanəndələrimiz ... İsfahan, şur, mahur, çahargah, segah-zabul və başqa şeylər oxuyurlar, özü də başqa üsulda, yəni Azərbaycan üsulunda.

Deməli, indi oxuduğumuz muğamat Azərbaycanındır. Mən və bir çox köhnə Azərbaycan xanəndələri İran və ərəb oxuyanları görməmişik və onlardan öyrənməmişik. Öyrəndiklərimiz Azərbaycan xanəndələrindən, Azərbaycan aşıqlarından olmuşdur" (f. 15, s.v. 26).

Qarabağın təbiətinin gözəlliyi ruhu oxşayan melodiyaların yaranmasına təkan vermişdir. Belə bir mühitdə dünyaya göz açan insan bu ecazkar muğam aləminin əbədi sehrinə düşür və istər-istəməz bu məkanın təsirinə məruz qalırdı. Belə təsirdən yaranan muğamlardan biri də məşhur "Qarabağ şikəstəsi"dir.Qarabağın musiqi rəmzinə çevrilən bu ritmik-muğamda Qarabağın təbiəti ilə musiqisi sanki vəhdət təşkil etmişdir. "Qarabağ-şikəstəsi"nin qüssə, kədər, vətən həsrəti ifadə edən poetik əsasının böyük ürək yanğısı ilə oxunması onun əsl Azərbaycan ruhunu canlandırırdı. Bununla bağlı H.Sarabski yazırdı: "Bizim 4 cür şikəstəmiz var. Mən cürətlə deyə bilərəm ki, bu şikəstələr ancaq Azərbaycan xalqınındır. Harada olsam, dünyanın hansı hissəsində olsam, "Qarabağ şikəstəsi"ni eşitsəm, mütləq bilərəm ki bunu oxuyan azərbaycanlıdır..." (f.15, s.v.26).

"Mən aşiqəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran (aləm) cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ".

XIX əsrdə zərbi muğam kimi yaranan bu muğama Qarabağ xanı İbrahim xanın qızı şairə Ağabəyım Ağanın yazdığı bayatıda müəllif sanki Qarabağın başına nələrin gələcəyini öncədən hiss etmişdir. Bununla belə muğam nə qədər kədərli olsa da, insanları intiqama, mübarizəyə səsləyən bir cəngi, haray kimi oxunur. H.Sarabski də bu mağamı hər zaman sevə-sevə ifa etmişdir. O, "Qarabağ şikəstəsi"nin mükəmməl ifaçılarından biri olmuşdur. Onun müasirlərinin xatirələrinə əsasən Hüseynqulu Sarabskinin "Qarabağ şikəstə"sini qocaman xanəndə Cabbar Qaryağdı oğlu, Xan Şuşinski, Yavər və Minəvvər Kələntərlilər, Cahan Talışınskaya kimi görkəmli xanəndələrlə birlikdə oxuması dinləyiciyə təsirini dəfələrlə gücləndirmiş və olduqca ecazkar səslənmişdir. "Qrabağ şikıstə"sinin belə bir kollektiv ifası sonralar da ənənə halına çevrilərək xanəndələrin diqqətini

özünə cəlb etmişdir. Məsələn, 1959-cu ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə Böyük Teatrın səhnəsində görkəmli xanəndə Xan Şuşinski və artıq Hüseynqulu Sarabskinin yetirmələri olan Şövkət Ələkbərova və Sara Qədimova ilə birlikdə ifasında səslənən "Qarabağ şikəstəsi" sələflərin ruhunu canlandırırdı.

Azərbaycan muğam sənətinin inkişafında Qarabağ xanəndələri ilə yanaşı, tarzənlərinin də böyük rol oynadığını H. Sarabski öz yazılarında vurğulayırdı. Xüsusilə, Sadıxcanın rekonstruksiya etdiyi tarın üstünlüyünü və əhəmiyyətini yüksək qiymətləndirirdi. Bununla bağlı o yazırdı: "Azərbaycan tarı (quruluşunda, səsində, simlərində) İran tarından bam başqa və səs cəhətdən güclü və simfonikdir. Zənnimcə, İranda hal-hazırda bizim tar işlənir, çünki onların tarları ibtidai bir şəkildədir" (f. 15, s.v. 26).

Hüseynqulu Sarabski, xüsusi olaraq Qarabağ muğam məktəbinin istedadlı nümayəndələrindən biri olan Qurban Pirimovun ifasını çox sevirdi. Qurban Pirimov Opera Teatrının səhnəsində muğam operalarını müşayiət etmiş və H. Sarabski ilə yaradıcılıq əlaqəsində olmuşdur. Böyük tarzənin sənəti, ifası H. Sarabskini hər zaman həyəcanlandırmış və mütəəssir etmişdir. Hətta, ömrünün son dəqiqələrində o, məhz Qurban Primovun ifasını dinləmiş və gözlərini dahi Üzeyir bəyin "Leyli və Məcnun" operasının sədaları altında əbədi olaraq yummuşdur.

Beləliklə, arxiv materiallarından məlum olduğu kimi, Hüseynqulu Sarabskinin Qarabağ muğam məktəbi haqqında fikirlərində onun Azərbaycan muğam sənətinin ayrılmaz tərkib hissəsi olan Qarabağ xanəndələrinin və instrumentalistlərinin yüksək ifaçılıq keyfiyyətləri, yaradıcılıq uğurları, yenilikləri, Azərbaycan milli musiqi mədəniyyətinə verdikləri töfhələri və ümumiyyətlə, muğam sənətinin inkişafındakı rolu professional səviyyədə əsaslandırılaraq əksini tapmışdır.

R. Mammadova

Huseynqulu Sarabsky's article about Garabagh mugams

Key words: mugham, Garabagh, khanende, history.

In "Huseynqulu Sarabsky's article about Garabagh mugams" there are presented archive materials from H. Sarabsky's fund of the Institute of manuscripts named after M. Fizuli. H. Sarabky's magnificent knowledge about the basis of Azerbaijan mugham, in particular, the peculiarities of Garabagh khanendes' school is underlined in the article. H. Sarabsky's personal friendship was connected with many of them.

Important valuable thoughts by H. Sarabsky about Garabagh mugams and representatives of Garabagh school are considered in this article.

H. Sarabsky marks the national specific character of garabagh mughams, their beauty, peculiarities of rendering.

Р. Мамедова

Гусейнкули Сарабский о Карабахских мугамах

Ключевые слова: мугам, Карабах, ханенде, история.

В статье «Гусейнкули Сарабский о карабахских мугамах» представлены архивные материалы из фонда Г. Сарабского Института рукописей им. М.Физули. В статье подчеркивается великолепное знание Г. Сарабским основ азербайджанского мугама, в частности, особенностей школы карабахских ханенде. Со многими из них Г. Сарабского связывала личная дружба.

В данной статье рассматриваются важные, ценные мысли Г. Сарабского о карабахских мугамах, и представителях карабахской школы.

Г. Сарабский отмечает национальную специфику карабахских мугамов, их красоту, особенности исполнения.

İSSN 2311-5777
Volume 21 №1 2021 140-156

Kübra Əliyeva

AMEA-nın Memarlıq və İncəsənət İnstitutu
"Qafqaz Albaniyasının Memarlıq və İncəsənəti" şöbəsinin rəhbəri
Dr. Prof. Əməkdar incəsənət xadimi
aliyeva_kubra@mail.ru

UOT 745/749

QARABAĞIN ANTROPOMORF VƏ ZOOMORF TƏSVIRLI DIVAR XALÇALARI

Açar sözlər: zoomorf, antropomorf, divar xalçaları, "Atlı-İtli", "Rüstəm və Söhrab", "Koroğlu və Nigar", flamenko.

Giriş. Qarabağın Antropomorf və Zoomorf təsvirli divar xalçalarından bəhz etməzdən əvvəl, Qarabağın xalçalarının bədii və texniki xüsussiyətləri haqqında qısaca məlumat verək.

Qarabağın xalçaları texniki cəhəddən hündür xovuna, böyük ölçülərinə, bədii cəhəddən al-əlvan koloritinə və orijinal çoxsaylı kompozisiyalarına görə Azərbaycanın digər məktəblərinin xalçalarından fərqlənir. İstisna olaraq, kompozisiya çoxluğuna görə, Qarabağ xalçaları Cənubi Azərbaycan xalçalarından geridə qalır.

Qarabağ xalçaçılıq məktəbinə gəlincə, bu məktəbin yaranması tarixən ilk orta əsrlərə aid olub. Qarabağda 4 istiqamətdə xalı və xalçalar toxunurdu.

1. Qoyunçuluqla məşqul olub, yayda dağa, qışda arana köçən yarımköçəri tərəkəmələrin yaratdıqları xovsuz yalnız həndəsi naxışlarla bəzənən xalça və xalça məmulatları.
2. Oturaq kənd əhalisinin toxuduqları və məişətdə istifadə etdikləri çul, məfrəş, çuval, süfrə, xalı-xalça, hansı ki həyat şəraiti ilə əlaqədar olaraq, quş və heyvan təsvirlərinin xalçalarda tətbiqi.
3. Şəhər və onun ətraf kəndlərindəki yeni informasiyaların təsiri nəticəsində yaranan həndəsi və nəbati naxışlı xalçalar.
4. Rəssamların çeşniləri əsasında yaranmış və Təbriz xalça məktəblərin ənənələrini dəyişərək yaratdıqları yeni böyük ölçülü, 3-4 hissədən dəst xəli-gəbə tipli saray xalçaları. [1, s. – 22-27]

Qarabağ xalçaların bədii tərtibatının formalaşmasında 5 faktor əsas yer tutur:

Ənənəvi Qarabağa aid olan həndəsi və nəbati naxışlı (simvolik xarakter daşıyan elementlər, damğalar və totemlərin təsviri) xalçalar.

Şək.1. Xalça "Bəhmənli". Qarabağ .
Azərbaycan XX əsrin əvvəli. Yun, xovlu.
Ölçüsü: 210 x 155sm

1. Rusiya, Avropa və Şərq ölkələrindən gətirilən tekstil, o cümlədən, parça, süfrə, çarpayı örtüyü, rus şalları və fransadan gətirilən corablar, örtüklər, və sənaye məhsullarının üzərində olan rəsmlərdən iqtibas edilən naxışlı xalçalar.

2. Təbriz xalça məktəbinə xas olan kompozisiya və naxışlar əsasında toxunan xalçalar.

Şək.3.“Balıq”xalısı, Qarabağ məktəbi. XIX əsr (Lətif Kərimovun “Azərbaycan xalçası” kitabından “Yazıçı” 1985)

Şək.4.“Nəlbəkigül”. Yanlıq xalıbalası. Qarabağ. Azərbaycan. XIX əsr Yun, xovlu toxunuşlu, əl işi. Ölçüsü: 102x385sm

3. Memarlıqda divar və tavan bəzəklərinin təsiri ilə yaranan kompozisiyalar.

Şək.5. “Ləmpə”dəst xalı-gəbə. Azərbaycan İncəsənət muzeyi

4. Süjetli xalça və xalça məmulatları.

Şək.6. Şəddə. Qarabağ məktəbi. Gürcüsta n Dövlət Muzeyi. Tiflis. XVII əsr

Şək.7.Qarabağa aid dəvə çulu. Xovuz, XX-ci əsrin əvvəlləri

Şək.8. Qarabağa aid dəvə çulu. Xovuz, XX-ci əsrin əvvəlləri

Qarabağın xalçalarının arasahəsi bir qayda olaraq, həndəsi və nəbati motivlərlə, böyük olçülü, rombvari göllərlə formalaşır. Bəzən göllərin əvəzinə bu ərazidə yaşayan ayrı-ayrı tayfaların totem xarakterli stilizə edilmiş heyvan və onlara vurulan damğa təsvirləri də nəzərə çarpır. Nəbati naxışlardan, qızılgül rəsmlərinin tətbiqi, Qarabağ xalçalarına xas olub, və demək olar ki, onların əsas simvolik işarəsi kimi qəbul edilə bilər. Üç, bəzən də beş hissədən ibarət toxunan dəst xəli-gəbələr, yalnız Qarabağın xalçaçıların fantaziyasının məhsuludur və dünyanın heç bir yerində toxunmur.

Qarabağda toxunan əjdahalı xalçalar, dünyanın bütün muzeylərində ən nadir kompozisiyaya malik xalça kimi saxlanılır. Əjdahalı xalçaların ən böyük kolleksiyası Vaşinqtonun Tekstil muzeyində mühafizə edilir. XV əsrə aid, üzərinda "Əjdaha və Simurqun döyüş" səhnəsini əks etdirən, çox kiçik bir xalça, Almaniyanın Berlin şəhərində Perqam muzeyində saxlanılır.

Qarabağ məktəbinin xalçaları Bərdə, Şuşa, Ləmbəran, Ağdam, Fizuli, Laçın, Ağcabədi, Tərtər, Xocavənd, Zəngilan, Cəbrayıl, Kəlbəcər, Qubadlı şəhərlərdə və onların saysız-hesabsız kəndlərində, vaxtı ilə ruslar tərəfindən, ermənilərə hədiyyə verilmiş Hadrut, Daşbulaq, Tuğ, Çələbi, Minkənd kəndlərində toxunmuşdur. Bu xalçaların sıxlığı 30x30, 40x40 toxunur, 1 m^2-də 90 mindən 160 minə, bəzəndə 200 min ilmə yerləşən xalılara rast gəlmək olur. Tünd sürməyi, qara və qırmızı rəngi arasahə bu xalçalara xarakterikdir. İstifadə edilən bütün rənglərin komponovkası yüksək emosional qüvvəyə malikdir. [2, s. – 19-20]

Qeyd etmək lazımdır ki, başı bəlalı Qarabağın əsrlər boyu yad işğalçılar tərəfindən zəbt edilmişdi, bu baxımdan XIX əsrin əvvəllərində çar rusiyasının Cənubi Qafqaza genişmiqyaslı hücümu nəticəsində, Şimali

Azərbaycan xanlıqları, o cümlədən Qarabağ xanlıqının da ixtiyarı onların əllərinə keçdi. Bu ərazidə ilk orta əsrlərdən, Bərdə şəhərinin, daha sonra xanlıqlar dövründə, Şuşa şəhərindən, istər Qafqaz, istər Avropa ölkələrindən, Qarabağa gələn rəssam, yazıçı, səfirlər, əsasən də rusların Qarabağı istila edən dövrdə, demək olar ki Qarabağ nəyinki Qafqazın, hətda Avropa ölkələrinin diqqət mərkəzində olmuşdur. Elə o zamandan, Qarabağın məhşur kişiləri və qadınları Rusiyada və Avropanın digər ölkələrində təhsil alıb və Azərbaycana qayıdırdılar və Qarabağın məhşur generalları, Rusiya çarının ordusunda qulluq etmişdilər. Kərim bəy Mehmandarov, Üzeyir Hacıbəyov kimi görkəmli şəxslərin Şuşada böyük malikanəsi var idi.

Məlum olduğu kimi dünyada, və o cümlədən Azərbaycanda, toxuculuğun müxtəlif növləri yaranan gündən, parça, xovlu və xovsuz xalçalardan həm örtük, geyim və həm də ilkin yaşayış məskənlərin (dəyə, çadır, torpaq evlərin) döşəmələrini və divarlarını bəzəmək üçün istifadə edilirmiş. Belə toxuculuq məmulatlarının tarixi eradan çox-çox əvvəllərə aid olub, onların bədii tərtibatında həm sadə, həm də müxtəlif mürəkkəb təsvirlər və naxışlardan istifadə edilirmiş. Bu baxımdan, Altayın Pazırıq kurqanından tapılmış, eradan əvvəl V-IV əsrlərə aid Midyada toxunmuş xovlu və xovsuz xalça nümunələrini qeyd etmək olar. Dördkünc formaya malik olan xovlu xalçanın bədii tərtibatında biri-birinin arxası ilə düzülən atlı insan, ayrıca at və maral təsvirlərini müşaidə etmək olar. Həmin kurqandan tapılan, üzərində ağızlarını açıb mahnı oxuyan iki yan görünüşlü qadın təsvirləri olan, xovsuz xalça da bunu bir dəfə sübuta yetirir ki, hələ o dövrdə, istər texniki, istərsə də bədii cəhəddən yuksək səviyyəli, konkret hadisəni özündə əks etdirən süjetli xalçalar toxunurmuş. Hətda tarixi məmbələrdə, Sasani dövründə (III-VII əsrlərə aid), üzərində baharın təbiyət təsvirini (bağ, bağça) əks etdirən yun və ipək iplərlə, toxunub, daş qaşlarla zinətlənmiş divar xalçalarının mövcüdluğu haqqında da məlumat vardır. [3, s. – 43, 74]

Şək.9. Üzərində ən qədim dövrə aid maral təsvirləri olan Altaydan tapılmış

Şək.10. 5-ci Pazırıq kurqanından tapılan, üzərinda maqam oxuyan iki yargörünüşlü rəsmli kilim nümunəsi. Xovsuz, V-IV əsrlər

Məlum olduğu kimi, XIV-XVII əsrlərdə, Azərbaycanda memarlıq və miniatür sənətinin inkişafı bütün Azərbaycan incəsənətinə, o cümlədən xalça sənətinə də təsir etmişdir. İstər Səlcuklar, istər Səfəvi dövründə, incəsənətin sürətli inkişafı, o cümlədən kaşı sənətinin memarlıqda tətbiqi ilə əlaqədar olaraq, dini binalar, məsçidlərin, sarayların zəngin bədii tərtibatı təbii ki nəyinki Cənubi Azərbaycanda, eyni zamanda Şimali Azərbaycanın da incəsənətinə təsir etdi. Bu dövrdə sadə kənd evlərin və xalçaların bədii tərtibatında yeni-yeni naxış və təsvirlər yer almağa başladı. XVIII-ci əsrlərdə xanlıqların yaranması dövründə, Qarabağ xanlığının baş şəhəri olan Şuşanın, yeni tikilən binalarının, o cümlədən, Xan Sarayı, və tanınmış şəxsiyyətlərinin tikdirdikləri iki-üç mərtəbəli malikanələrin bədii tərtibatında, Cənubi Azərbaycanda və Səfəvi dövrü şəhərlərində, olduğu kimi istifadə edilən divar, tavan və buxarıların zəngin rəsmlərinin dəbə düşməsi, xalçaçı ustalar arasında divar xalçaların yaranma səbəblərindən biri olur. Əgər XIX və XX-ci əsrin əvvəllərində, xalq arasında "Atlı-İtli", "Rüstəm və Söhrab", "Lenin və Nəriman Nərimanov" və xovsuz toxunuşlu "Dəvəli" adlanan süjetli xalçalar dəbdə idi sə, tədricən süjetlərin mövzusu dəyişilib, fərqli heyvan təsvirləri, o cümlədən, şir, maral, quş rəsmləri olan xalçalar yaradılmağa başlanır. [4, s. – 26-36]

Şək.11. "Atlı-itli" xalçası. Şuşa, Qarabağ. 1326 hicri, 1908-ci il. xovlu, yun. 200x 130 sm

Şək.12. Şəddə. Qarabağ məktəbi. Gürcüstan Dövlət Muzeyi. Tiflis. XVII əsr

Şək.13. Rüstəm və Söhrab. Qarabağ. 1911 Azərbaycan Milli İncəsənət muzeyi XVII

Bərdə, Ağdam, Şuşa və Tərtər kimi şəhərlərdə Qafqazdan, İrandan, Avropadan gələn informasiyanın çoxluğundan irəli gələrək, 90-ci illərdən başlayaraq, divar xalçalarındaki təsvirlərin mövzuları dəyişməyə başlayır. Rusiyadan Qarabağa gələn "krest" tikmə numünələrin eskizləri, İspaniyadan gələn üzərində "flamenko" rəqsli yelpiklərin, ağacdan olan "Palex" qab-qacaqların təsvirləri, tədricən xalçaların üzərində görünməyə başlayır.

Şək.14. "Flamenko" təsvirli xalça. Bərdə rayonu, şəxsi istifadə

Şək.15. Türkiyənin Bardız bölgəsində Qarabağın flamenko rəqsini ifa edən İspan qızlarının təsvirili xalçası

Qarabağın süjetli xalça sənətinin kompozisiya və bədii tərtibatında mövzular tədricən dəyişməyə başlayır. Təbii ki, indi yeni yaranan nümunələr, iqtibas edilən zaman, Qarabağ xalçaçılıq sənətinə xas olan üsluba məruz qalırd. Hər ustanın fərqli zövqündən asılı olaraq, obrazların bədii tərtibatında yeni əlavələr edilirdi. Və belə xalçalar evlərdə bu günə qədər istifadə edildiyinə görə çox zaman satılmırdı, elə bu səbədən də, Azərbaycan muzeylərində də, onların nümunələri bu günlərdə yoxdur. Bundan əlavə bu xalçaların muzeyə düşməməsi səbəblərindən biri də muzey işçiləri tərəfindən aşağı səviyyəli hesab edilməsi olmuşdur.

Material toplanışı zamanı, Qarabağın divar xalçalarının fərqli nümunələrinin saysız-hesabsız olması mənə belə bir ideya verdi ki, bu ayrıca bir mövzu kimi işlənməlidir. Və bu mövzu, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında mənim yetirməm Zeynalova Arzu Nizami qızı tərəfindən "Qarabağın süjetli xalçaları" adlı dissertasiya işi kimi işlənərək, 4 il ərzində ərsəyə gəldi. Hazırda Arzu xanım bu mövzunu monoqrafiya şəklində çapa hazırlayır.

Qarabağ xalçaçıların həddindən artıq sevdikləri və divardan, çarpayının və yaxudda taxtın arxasından asdıqları bu xalçalar istər kompozisiya, istərsə də təsvirlərin yerləşdirilməsi baxımından fərqlidirlər. Yəni Qarabağın klassik döşəmə üçün nəzərdə tutulan xalçalarının ölçüləri həddən artıq çox olur, eni uzununa nisbətən 2-3 dəfə ensiz olur. Bu prinsip elə süjetli xalçalarda da saxlanılır, onların ölçüsü taxtın və yaxud da ki çarpayının ölçüsünə uyğun olaraq toxunnur.

Qarabağ xalça sənətinə rəngvermə xüsusiyyətinə uyğun olaraq, arasahənin rəngi qırmızı, tünd-sürməyi və qara rənglərdə götürülür. Heyvan

təsvirləri arasahədə üfüqi istiqamətdə bir birinin arxasında düzülərək ya sağ, və ya sol tərəfə istiqamətlənirlər. Heyvan təsvirləri yan görünüşlu olub, bir növ abstrakt formalarda təzahür edir. Heyvan təsvirlərinin gövdə hissələrinin ölçüləri çox zaman həddindən artıq uzadılıb, qrotesk formada təzahür edilir.

Şək.16. "Atlı-itli" xalçası. Şuşa, Qarabağ 1326 hicri, 1908-ci il. xo-vlu, yun. 200x 130 sm Azərbaycan Tarix Muzeyi. İnv №

"Atlı-İtli" xalçalarında at və it təsvirləri pozalarına görə fərqlidilər. Yan görünüşlü atlar başlarını aşağı dikərək hərəkət vəziyyətində təsvir olunub. Atların zəngin bəzəkləri və sakit addımlı hərəkəti bildirən təsvirləri, süjetdə hər hansı bir şən mərasim təsəvvürü yaradır. İtin oturmuş pozası, onun atların hərəkətlərini seyr etdiklərini görsədir. Azərbaycan Milli Xalça Muzeyində saxlanılan digər "Atlı-İtli" xalçasında, stilizə edilmiş kişi təsvirləri, heyvan təsvirlərinə nisbətən, olduqca cılız, öngörünüşlü və statik verilmişdir. Kişi təsvirləri atın üstündə və yanında bir aşırı olaraq təsvir edilmişdir. İtlərin boyununda qırmızı bantın olması hansısa bir şadlıq mərasimin simvolu kimi verilmişdir. Mütləq qeyd etmək lazımdır ki, "Atlı-İtlı" adlı xalçalar, ərə gedən qızlar üçün nəzərdə tutulurdu və yuksək qiymətləndirirdi. Ona görə də belə xalçaların rəng tərtibatında şux-əlvan rənglərdən, o cümlədə qırmızı, yaşıl, sarı, nadir hallarda açıq firuzəyi rənglərdən istifadə edilirdi.

Şək.17. "Atlı-itli" xalçası. Şuşa. Azərbaycan Hicri 1344 /1925ci il. Yun, xovlu. 137x238sm Azərbaycan Xalça

Qarabağ xalçaçıları ilə apardığım müsahibələrdən məlum olur ki "Atlı-İtlı" xalçaları yalnız peşəkar xalçaçılar tərəfindən toxunurmuş. Baxmayaraq ki, "Atlı-İtlı" xalçalarının saysız hesabsız nümunələri mövcüddur, və bu nümunələr biri-birindən çox az fərqlənirlər. Bu süjetdə atın zəngin bəzəyi və sakit yerişi, şadlıq mərasiminin işarəsi kimi qəbul edilə bilər.

Şək.18. "Atlı-itli" xalçası. Şuşa. Azərbaycan. XX əsrin əvvəli. Yun, xovlu. 275x124sm Azərbaycan Xalça muzeyi. İnv № 3338

XX-ci əsrdə "Atlı-İtli" xalçaları klassik ənənəvi "Atlı-İtli" xalçalarindan fərqli olaraq yeni kompozisiyada toxunmaqa başlayır. Bu xalçalar uzunsov gəbə formasında olaraq, at və it təsvirləri üfüqi deyil, şaquli istiqamətində yerləşdirilir. Kompozisiya daha da mürəkkəbləşir, heyvan təsvirlərin araları sıx doldurularaq, yeni stilizə edilmiş tovuz quşları rəsmləri ilə zənginləşdirilir. Atlar klassik nümunələrdə olduğu kimi, hərəkətdə, itlər və quşlar yan görunuşlu və dinamikada əks edilir. İtlər başlarını yuxarı qaldırıb, qulaqlarını şəkliyərək, sanki uzaqdan gələn səsi dinləyirlər. Qeyd etmək lazımdır ki, hər iki xalçanın arasahəsinin qara rəngdə olması da məhz bu xalçaların Şuşada toxulmasını bir daha sübüt edir. "Mazı" adlanan ağac meyvəsi ilə boyanan qara rəng, Şuşalı xalçaçıların ən sevdiyi rənglərdən biri hesab olunur. Hər iki xalçanın haşiyələri daha enli olub, ümumi kompozisiyanın ifadəliyini artırır, və sanki divar pannosunun çərçivəsi rolunu oynayır. Ümumi koloritdə kontrast rənglərdən (qara, sarı, ağ, qırmızı) istifadə olunub. Arasahənin bütün perimetrini əhatə edən haşiyə, stilizə edilmiş sadə nəbati naxışların ritmik təkrari ilə formalaşmışdır.

"Atlı-İtli" xalçalarının digər bəzi nümunələrində itlərin təsvirləri demək olar ki arasahədən çıxarılır, kompozisiyada yalnız atlar üz-üzə təsvir edilir, və atların rəngləri fərqli olur, ailə sevgi ilə əlaqələndirilir. Belə nümunələrdə atların gövdə hissələri xalçaçı usta tərəfindən dəyişilərək, həddindən artıq uzunlaşdırılır, qroteskə uğrayır. Xalçanın qırmızı yerli arasahəsinin kənarlarında üçbucaq formalı təkrar edilən sarı, ağ rəngli bəzəklər ümumi kompozisiyanı tamamlayır. Belə bədii tərtibat Azərbaycanın

kənd rayonlarında yaxın vaxtlarına qədər dəbdə olan "gərdəkbaşı" elementinin bir nümunəsi kimi qəbul edilə bilər.

Şək.19. "Atlı-itli" xalçası. Şuşa. Azərbaycan. XX əsrin əvvəli. Yun, xovlu. 263x116sm. Azərbaycan Xalça muzeyi.

Şək.20."Atlı-itli" xalçası. Şuşa. Azərbaycan. Şəxskolleksiya

Şək.21. At təsvirli divar xalısı.Qarabağ, XX əsrin ortaları. Yun xovlu. 211x137

XX-ci əsrdə Qarabağın süjetli xalçalarında yeni fərqli heyvan təsvirləri təzahür edir, onlardan biri də şir təsviridir. Məlumdur ki, şir yırtıcı heyvan

kimi nağıllarımızda neqativ obraz kimi təsvir edilir. Lakin çox güman ki, bu təsvir, astronomik şir bürcü ilə əlaqədar olaraq, xalça sənətinə qəlmiş və o bürcdə doğulan uşaqlara həsr edilməsi ilə əlaqədardır.

Şək.22. Şir təsvirli divar xalçası.Qarabağ.Yun, xovlu. XX əsrin ortaları 215x135

Göründüyü kimi, xalçaçı ustalar şirin bədənini yan görünüşlü, başını isə ön görünüşdə təsvir etmişlər. Şirin üz ifadəsi sanki ətraf mühüti sehr edən pozitiv obraz kimi göstərilmişdir. Lakin əks xarakterli şir təsvirli xalçalarda mövcüddur ki, çox güman ki onların obrazı hansısa bir rəsm əsərindən köçürülmüşdür - hər iki xalçanın eyni şir təsviri ilə bəzənməsi, bunu bir daha sübuta yetirir.

Şək.23. Şir təsvirli divar xalçası.Qarabağ.Yun, xovlu. XX əsrin ortaları 215x135

Şək.24. Şir təsvirli divarxalçası. Qarabağ. Yun. Xovlu.176x127 (II variant)

Şək.25. "Koroğlu və Nigar", Cəbrayıl rayonu, XX əsrin axrı, şəxsi kolleksiya

Antropomotf təsvirli divar xalçalarının bir nümunəsi də, tarixi və folklor nümunəsi olan Koroğluya həsr edilmişdir. Cəbrayıl rayonunda olan və Sumqayıtda yaşayan qadının, toxuduğu bu xalçada Koroğlunun Nigarı qaçırtması təsviri olmuşdur. Arxa planda aylı gecə, evlərin qrafik rəsmləri, ön planda isə dörtnala çarpan ağ rəngli atın üzərində kişi və qadır təsvirləri verilmişdir ki, bu təsvirlər öz geyimləri etibarı ilə daha çox, milli rus geyimlərini xatırladır. Bu da onu gorsədir ki xalçaçı usta bu xalçanın rəsmini hansısa bir açıqcadan götürmüşdür.

Nəticə etibarı ilə qeyd etmək lazımdır ki, xalq sənəti heç zaman ölmür. O, ənənəvi olaraq, bütün maniyələrə baxmayaraq inkişaf edir və yaşayır. Bu baxımdan Qarabağda xalça sənəti mənfur qonşuların öz adlarına çıxaraq, Erməni xalçaları adlandırlarına baxmayaraq, bu gün də xalq tərəfindən inkişaf etdirilir. Qarabağ Azərbaycandır. Və Qarabağ incəsənəti onun xalqı kimi ölməz və əbədidir.

Son 30 ildə qaçqınlıq dövründə, Qarabağ xalçaçılarının qürbətdə toxuduqları, bir neçə xalça nümunələrini də sizin nəzərinizə çatdırmaq istəyirəm.

Şək.26. Qarabağ Yun xovlu. 228x101 XX əsrin sonları

Şək.27. Bərdə. İki Şir. Xovlu. Yun. 170x300 sm 30x30 XX əsrin sonları. Şəxsi istifadədə

Şək.28. Qarabağ. Pişikli. Xovlu. Yun. 85x135 sm. 30x30. 1991 -ci il Tərtər. şəxsi istifadə

Şək.29. Kəlbəcər. Marallar təbiətdə. 155x235 sm 35x40. 1981.

Şək.30. Kəlbəcər. Marallar təbiətdə. 155x235 sm 35x40. 1981. Bakı. şəxsi istifadə

Bu günlərdə Qarabağın Erməni vandallarından geri qayıtmasının bir illiyini bayram edəcəyik. Bütün Qarabağlılar kimi, məndə, 30 il Vətənimin həsrətini çəkənnən sonra, ona qovuşacağıma ümüdüm var, və inanıram ki, bu 44 günlük müharibəni qələbə ilə başa vurmağa bizə yaşadan ali baş komandanımız İlham Əliyev cənablarının etdiyi böyük qəhrəmanlığı, mən Alban çarı, Cavanşir ilə bir sırada görürəm, və bütün Qarabağ və Qarabağ xalçaçıların adından Möhtərəm Prezidentimizin özünə və ailəsinə can sağlığı və uzun ömür arzulayıram. Bu 44 günlük müharibədə, öz şirin canlarından keçən bütün Şəhidlərin ruhu qarşısında, biz Qarabağlılar və şəxsən mən, baş əyirəm. Yerləri behişd olsun. Amin, Yarəbbimiz.

Ədəbiyyat:

1. Tağı M. “Həyatım...”, Azərbaycan-Türkiyə Nəşriyyat Poliqrafiya Şirkəti. Redaktor: Çingiz Qacar. (ili yoxdur)

2. Абдуллаева Н. А. «Ковровое Искусство Азербайджана», Баку, изд-во «ЭЛМ» – 1971 г., с. 149
3. Алиева К.М. «Безворсовые ковры Азербайджана XVII-XX вв. Баку, изд-во «ИШЫГ», 1988 г., с. 144
4. Кяримов Л. «Азербайджанский Ковер», том 1, Баку – Ленинград – 1961 г., с. 289
5. Руденко С.И. «Древнейшие в мире художественные ковры и ткани», Москва, изд-во «ИСКУССТВО» - 1968 г., с. 131
6. Тагиева Р. «Сюжетные ковры Азербайджана», Баку – 1988 г., с. 134

K. Aliyeva

Wall carpets of Karabakh with anthropomorphic and zoomorphic images

Key Words: zoomorphic, anthropomorphic, wall carpets, “Atli-Itli” (The horse with a dog), “Rustam and Sohrab”, “Koroghlu and Nigar”, flamenco.

The article deals with Karabakh wall carpets depicting various animals and people woven among folk artisans. A brief technical and artistic analysis is given, as well as the origins of the plots. The origins of the plots include heroes of historical works, folk tales, epics and ready-made drawings taken from various types of visual arts. Many subjects include Spanish dance - Flamenco, also portraits of the leaders of the Communist Party of the USSR. The designs in these carpets are abstract, stylized, and sometimes pictures of people and animals are so distorted that they look like grotesque. The main pictures of Karabakh wall carpets are hung on the walls behind the backs of the couches.

Folk homespun carpets of Karabakh are also divided into several types according to the place of use - carpets for covering floors; carpets of various shapes and sizes, such as papons, various carpet bags for salts, for storing cereals, large bags - chuvals, also motley bags - khurjuns, for wearing one-day meals. The folk masters of Karabakh, in the middlefield of the carpet, mainly depicted various types of totem animals, birds and insects.

К. Алиева

Карабахские настенные ковры с антропоморфными и зооморфными изображениями

Ключевые слова: зооморфные, антропоморфные, настенные ковры, «Атлы-Итли» (Лошадь с собакой), «Рустам и Сохраб», «Кёроглу и Нигяр», фламенко.

В статье речь идёт о Карабахских настенных коврах, с изображением различных животных и людей, сотканных среди народных умельцев. Даётся краткий технический и художественный анализ, а также истоки сюжетов. Истоки сюжетов включают в себя героев исторических произведений, народных сказок, эпосов, а также готовые рисунки, взятые из различных видов изобразительного искусства. Многие сюжеты включают в себя танцы Испании – Фламенко, а также портреты лидеров Коммунистической партии СССР. Рисунки в этих коврах абстрактные, стилизуются, и иногда изображения людей и животных настолько искажаются, что становятся похожи на гротеск. Основные картинки настенных ковров Карабаха вешаются на стены за спинками тахтов.

Народные домотканные ковры Карабаха по месту использо-вания тоже делятся на несколько видов – ковры для покрытия полов; ковровые изделия, различной формы и размеров, таких как папоны, различные ковровые сумы для солей, для хранения злаков, большие торбы – чувалы, а также пёстрые сумы – хурджуны, для ношения однодневного питания. Народные мастера Карабаха, на серединном поле ковра в основном изображали различные виды тотемных животных, птиц и насекомых.

İSSN 2311-5777
Volume 21 №1 2021 157-163

Севиль Фархадова

доктор искусствоведения, профессор,
зав. отделом «Мугамоведения»
Института архитектуры и искусства НАНА

УДК: 781.7

МУГАМ КАК КОНЦЕПТУАЛЬНАЯ ОСНОВА ТРАДИЦИОННОГО НАСЛЕДИЯ КАРАБАХА

Аннотация: В настоящей статье осмысление сути концептуального содержания мугама как альтернативного типа мышления увязывается с освобождением Карабаха и объявлением города Шуша культурным центром Азербайджана - событием предваряемым военным столкновением, вновь актуализировавшем формулу жизнь-смерть.

Освещается суть различия смысловой нагрузки этой формулы в контрастной драматургии мугама и конфликтой сюжетной драматургии, связанной с фабулой жизни Излагаемые суждения строятся на логическом обосновании специфики и значимости духовного интуитивного познания, нацеленного на озаренность Истиной.

Отмечается предрасположенность и предпочтительность сольного пения в единичном и массовом сознании как неопровержимый аргумент принадлежности азербайджанской культуры к самому истоку духовного Знания. Акцентируется сущностная роль категории нравственности - внутренней чистоты, чистоты намерений, создающих гармонию творческого мышления и Мысли. Излагаемые суждения подтверждаются на конкретных примерах богатого разнообразием традиционного наследия Карабаха, а также феноменальностью таланта азербайджанского композитора – мыслителя Узеира Гаджибейли.

Ключевые слова: духовный поиск-озарение, мугам, гармония, мышление.

События текущего времени – победоносное сражение за Карабах и провозглашение города Шуша культурным центром побуждают к размышлению о значимости этого события для будущего возрождения духовной жизни в Карабахе и в Азербайджане в целом.

Картина культурного и экологического вандализма, представленная разрушенными за годы оккупации домами, оскверненными памятниками древности, стертыми с лица земли шедеврами зодчества, в совокупности с выкорчеванным, сожженным природным богатством края, казалось бы, не оставляющие надежду на восполнимость в бли-

жайщем будущем духовного, творческого потенциала, веками создававшего основу для полнокровной жизнедеятельности коренного азербайджанского населения Карабаха, если бы наряду с противостоящей врагу сокрушительной воинской мощью не присутствовала более действенная, превозмогающая невзгоды и боль «мягкая сила» - память поколений воспитанных на неподвластных физическому уничтожению вечных ценностях. Издавна главным источником этой жизненной силы было наследуемое, базисное для азербайджанской культуры в целом, концептуальное мугамное мышление. Отмеченным, вероятно, объясняется внутренний позыв у воинов – освободителей к пению мугама на родной Карабахской земле, как звучания востребованной кризисной ситуацией извечно бурдонипующей ноты мудрствования. Особенно знаменательным и значимым оно было в главной высотной точке Карабаха - цитадели мугамной Мысли, в Шуше. Пение мугама в каждом из случаев имело знаковый смысл и означало возвращение вместе с коренным населением гармонии созидания во всех его проявлениях – семейных, социальных, трудовых, творческих. И еще оно означало возрождение в перспективе уникальной, не имеющей аналога мугамной школы ханенде, с которой связаны исторически известные имена, такие как Джаббар Гарягдыоглу, Кечечи оглу Мухаммед, Мешади Мухаммед Фарзалиев, Меджит Бехбутов, Сеид Шушинский и Хан Шушинский Абульфат Алиев, Муртуз Мешади Рза оглу Мамедов (Бюль-Бюль) и многие др. Вклад каждого из них это не только яркая страница мугамного исполнительства, но и талантливо проявленная грань безграничного мугамного энергийного потенциала, создающая гармоничный настрой для творческого развития в соответствии с конкретным историческим временем. Думается, что именно отмеченным отличием – умением ощущать и проявлять постоянство языком эпохи, вписывались в память поколений отдельные имена, и в дальнейшем ассоциирующиеся с наиболее примечательными и значительными событиями конкретного исторического времени. Отмеченным, в свою очередь, обусловленно само существование преемственности в мугамной исполнительской традиции.

Ярким показателем непрерывающей связи поколений было звучание мугама Баяты Шираз на музыкальном фестивале в Шуше, исполненного пронзительно чистым голосом юного ханенде Кенана Байрамлы, словно аккумулировавшим в себя акустическую атмосферу, созданную самой природой, усиленную к тому же особым возвышенным духовным настроем слушателей. Проникновенное исполненне стало очередным свидетельством правомерности утвердившейся за многие годы высочайшей оценки уровня вокального мастерства азербаджанских певцов-ханенде, выраженной репликой - «поет как дышит, поет

как азербайджанец!» Примечательность замеченного отличия заключается в изначальном основополагающем значение звука голоса во внутреннем контакте с невидимым и проявленным мирами. По словам прославленного певца Бюль-Бюля: «певцы, пение которых продолжалось бесперерывно полтора-два часа, были лишь в Азербайджане». Существование в Карабахе, как и в некоторых других регионах Азербайджана вокальных школ – ханенде - одно из множества неопровержимых доказательств, свидетельствующих о том, что в азербайджанской культуре мугамное наследие не заимствованное, а исконное базисное генетически наследуемое богатство.

В отношении вышеупомянутого выступления молодого ханенде уместно отметить примечательность самой реакции слушателей, долгие годы живших мечтой о возвращении в заветные места, где царила атмосфера духовности и творчества - ткались получившие мировую известность ковры, сочинялись бессмертные стихи, мудростью поэтического слога рождался мугам-дастгях. Само присутствие на Джыдыр дюзю было сопряжено таинственным погружением в атмосферу творчества. Запомнилось не только что и как пелось, но и как воспринималось услышанное. Во встречном контакте исполнитель - слушатель совершалось мугамное действо – внутренний прорыв к глубинам памяти многих поколений - живущих и ушедших, в унисон «говорящих» на доступном в эти мгновения языке духовных кодов – на языке традиции.

Приводимый из недавнего прошлого пример – одно из свидетельств живучести мугамной традиции как практики внутренней концентрации и пробуждения канала сверхчувственного восприятия, происходящее на фоне экстремальной ситуации военного противоборства, актуализировавшего сквозную для концептуального содержания мугама формулу «смерть–жизнь». В мугамной практике одновременно трактуемую как «уход и возвращение». В свете отмеченного заострим внимание на том, что в отличии от классической конфликтной драматургии художественных произведений, основанных на той же формуле, но в обратной последовательности – «жизнь-смерть», то есть «начало и конец» (прерванность), в контрастной, но не конфликтной драмагургии мугама она, символизируя непрерывность творческих прорывов-озарений, звучит жизнеутверждающе. Сама же бесконфликтность мугамной драматургии следствие того, что она не связана с фабулой земной жизни. Суть и феноменальность мугамного концептуального мышления заключается во внутренней включенности в создающий напряжение духовный поиск– рост до прорыва в запредельность и озаренности Светом Истины. Собственно, именно сакральным актом духовного возвышения до вершин Истины объясняется феноменальность творче-

ского озарения и одновременно феноменальность мугамного творчества.

Мугамное мышление это единичный акт возведения храма внутри себя при помощи внутреннего «свето-лучевого» компаса – интуиции. Процессуальность возведения внутреннего храма завершающаяся, озаренностью Истиной по существу представляет изначальную внеконфессиональную форму совершения акта веры. Купола визуально представленных храмовых сооружений являются внешним оттиском внутреннего мугамного свето-лучевого зодчества, вещественно представленного совершенной формой мугам-дастгяха.

Сам акт рождения Мысли результат контрастного волнового мышления и восприятия, основанного на принципе «чет-нечет» (или по аналогии «тень и свет», «свертка-развертка», «внутреннее-внешнее» и др.). Изначально мугам осознается как духовное явление и, соответственно, духовное пение. Таковым он остается и в исламской культуре. (Вспомним о сложном взаимоотношении музыки и религии в исламе и особой роли в исламской ритуальной практике мугамного духовного пения). И в дальнейшем, развиваясь одновременно в светском русле, он остается на прежней духовной платформе органично вписываясь в некоторые философские, научные и художественные концепции, обуславливая неувядаемость классического наследия - поэзии, музыки и иных шедевров культуры, пропитанных энергией творческих прорывов-озарений. К таковым относятся и музыкальные откровения гениального азербайджанского композитора – мыслителя, с детства воспитанного на ценностях Карабахской мугамной школы духовного возвышения Узеира Гаджибейли. Жизненый и творческий путь гениального композитора – мыслителя У.Гаджибейли показательный пример связанности творческой потенции, творческих стимулов как со средой обитания, так и в чём то унаследованной, а также воспитанной нравственной чистотой. С чистотой ассоциируется место взросления будущего композитора - сама кристальная прозрачность и взыскующая к поэтическому слогу, к музыке одухотворяющая красота природы Шуши, обуславливающая высокий творческий тонус его коренного населения. Цельная, гармоничная натура У.Гаджибейли как творческой личности во многом обусловлена вышедарованной способностью озаряться и проявлять энергию Мысли-Идеи, что является привелегией мугамного мышления. Мугамное мышление созидательно по своей сути, потому что оно нацелено на внутреннее очищение, озарение - просветление. Отмеченная особенность объясняет магию музыки У.Гаджибейли, заключающуюся в ее способности пробуждать дух, когда в реальности звуковая мысль воспринимается не только слухом, но и всем своим существом, и не как опосредованный звуком этнически

окрашенный смысловой сегмент, а как дышащая пульсирующая жизнь в своей подлинности. Непостижимо сильное духовное воздействие музыки У.Гаджибейли стало причиной его единоличного авторства гимнов Азербайджана.

В высвеченном ракурсе проблема мугама связана, прежде всего, с постижением исконных возможностей человеческого сознания, проявляемых в акте познания. Независимо от области знания, любой продукт творчества, во все времена представляет лишь результат мыслительного процесса. Источником же всех знаний является процесс поиска Истины, стимулирующий творческое развитие – рост до новых прорывов, новых озарений. Трансцендентная Мысль приобщала к «рогу изобилия», из которого разносилось знание, создававшее импульсы для расцвета этнических культур. Отмеченное предполагает наличие в общем развитии Мысли сквозных лучевых знаков, символов, сюжетов, тем – лучами расходящихся из одной и той же сути, одного и того же смыслового ядра.

Задавшись целью рассмотрения древнейшей культуры Карабаха в свете единого для Азербайджаской культуры в целом концептуального содержания мугама, трудно ограничиться рамками одной культуры. Принимая в расчет важность и перспективность специального углубленного изучения в качестве самостоятельного разностороннего исследования процесса преобразования единого концептуального ядра в смысловую множественность и, оставаясь в рамках заявленной темы, позволю себе лишь небольшое отступление - с трансцендентной звуковой Мыслью связана не только многостороннесть и многоуровневость структурной и сюжетной содержательности, по-разному расцвечиваемой национальными культурами, но и преобразование изначального смысла в этническую или национальную единицу. В свете отмеченного любопытной представляется следущая мысль, высказанная по поводу эпической традиции: « Когда немецкие романтики развивали идею о народе – творце, стоило задуматься над тем, где, собствено, существовал этот единый народ и не являлась ли сама стихия эпоса мощным творцом эллинского народа из материала разрозненных племен. Именно через эпос ахейцы, беотийцы, фракийцы ионийцы, жители островов – узнавали о себе как о великом народе эллинов. Стало быть, тот самый народ, который можно было бы считать источником эпоса, впервые создавался этим эпосом, создавая его».[2] Аналогично отмеченному можно сказать, что азербайджанский народ, с незапамятных времен живущий в стихии мугама и дастана, осознавал свое этническое единство через мугам и дастан. И в этом случае народ создавал мугам и дастан, одновременно мугам и дастан создавал народ как этническую единицу.[1]

В настоящее время перед музыкальной наукой и исполнительской практикой стоит непростая задача: на фоне крайне противоречивой культурной жизни общества, осмыслив достижения и потери прежних лет, приложить максимум усилий для симметричного развития творческой мысли в руслах исполнительской практики и научного знания, одновременно создания необходимого духовного климата способствующего сохранению и приумножению традиционного музыкального наследия, ядром которого является мугам. Думается, что отмеченное станет одной из главных задач возрождаемого культурного центра в Шуше.

Литература:

1. Ахутин А.В. «Слово и миф». Преднаука, генезис античной науки и ее значение. М. «Наука» 1991, с.7

2.Бюль-Бюль . Составитель Г.Гулиева Изд-во «Ишыг», 1983.

3.Фархадова М.Т. Муга – монодия как тип мышления. «Елм», Баку 2001, 233

S. Farkhadova

Mugam as a conceptual basis for the traditional heritage of Karabakh

Key words: spiritual search- insight, mugam, harmony, thinking.

In this article, comprehending the essence of the conceptual content of mugam as an alternative type of thinking is linked with the liberation of Karabakh and the declaration of the city of Shusha as the cultural center of Azerbaijan - an event preceded by a military clash, which again actualized the life-death formula.

The essence of the difference between the semantic load of this formula in the contrasting drama of mugham and the conflict plot drama associated with the plot of life is highlighted.The stated judgments are based on the logical substantiation of the specificity and significance of spiritual intuitive knowledge aimed at illumination with the Truth.

The essence of the difference between the semantic load of this formula in the contrasting drama of mugham and the conflict plot drama associated with the plot of life is highlighted.The stated judgments are based on the logical substantiation of the specificity and significance of spiritual intuitive knowledge aimed at illumination with the Truth.

The propensity and preference for solo singing in the individual and mass consciousness is noted as an irrefutable argument for the belonging of Azerbaijani culture to the very source of spiritual Knowledge.

The essential role of the category of morality is emphasized - inner purity, purity of intentions, creating harmony of creative thinking and Thought. The stated judgments are confirmed by specific examples of the rich diversity of the traditional heritage of Karabakh, as well as the phenomenal talent of the Azerbaijani composer and thinker Uzeyir Hajibeyli.

S. Fərhadova

Qarabağ ənənəvi irsin muğam konseptual əsasları

Açar sözlər: ruhən axtarış-nurlanma, muqam, ahəngdarlıq, təfəkkür.

Məqalədə alternativ düşüncə tipi kimi muğamın konseptual məzmunu mahiyyətinin dərki həyat-ölüm düsturunu yenidən aktuallaşdırmış müharibə nəticəsində Qarabağın azad edilməsi və Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi ilə əlaqələndirilir.

Bu düsturun muğamın təzadlı dramaturgiyasındakı semantik yükü və həyat fabulası ilə bağlı münaqişəli süjet dramaturgiyası arasındakı fərqin mahiyyəti izah edilir. İrəli sürülən mühakimələr həqiqətlə nurlanmağa yönəlmiş ruhi, fəhmi idrakın özgünlüyü və əhəmiyyətinin məntiqi əsaslandırılması üzərində qurulur.

Fərdi və kütləvi şüurda solo ifaya meyliliyi və üstünlük verilməsinin Azərbaycan mədəniyyətinin ruhi idrakın mənbəyinə mənsub olduğuna təkzibedilməz surətdə dəlalət etdiyi vurğulanır. Əxlaq kateqoriyasının – koqnitiv təfəkkür və ideya harmoniyası yaradan batini paklıq, niyyət saflığının əsaslı rolu vurğulanır.

Şərh edilən mülahizələr Qarabağın zəngin müxtəlifliyiə malik ənənəvi irsinə, həmçinin Azərbaycan bəstəkarı və mütəfəkkiri Üzeyir Hacıbəylinin fenomenal istedadına dair konkret nümunələrlə təsdiqlənir.

İSSN 2311-5777
Volume 21 №1 2021 164-176

İradə Köçərli

Sənətşünaslıq üzrə elmlər doktoru
Professor
AMEA Memarlıq və İncəsənət İnstitutu
i.kocharli@gmail.com

UOT: 781.5

QARABAĞ ŞİKƏSTƏSİ – ZƏFƏRİN GUR NƏĞMƏSİ

Annotasiya. Qarabağ – musiqi mədəniyyətimizin bütün qollarının bir-birilə sıx çulğalaşdığı, bir-birilə zənginləşdiyi bir diyardır, musiqi yaradıcılığının hər bir sahəsinin – xalq mahnı və rəqs yaradıcılığı, aşıq və muğam sənəti, dini musiqi yaradıcılığının birgə fəaliyyət göstərdiyi bölgələrdən biridir. Azərbaycan musiqi mədəniyyətinin yaradıcılıq qolları yüzilliklər boyu, bu yurdda yanaşı addımlamış, qarşılıqlı faydalanma, qarşılıqlı əlaqə və təsir zəminində yaşamışdır. Demək mümkündür ki, Azərbaycan milli musiqi irsinin böyük bir hissəsi məhz Qarabağın payına düşür. "Qarabağı", "Uzundərə", "Güllücə", "Qaradağı", "Arazbarı", "Gülüstanı", "Əsgəranı", "Tərəkəmə", "Çanaqqala" və bu kimi bir çox oyun havaları Qarabağın kənd və obalarının adı ilə bağlıdır. Xalq mahnıları və aşıq havaları içərisində Qarabağla bağlı olan adlar, eyni zamanda poetik mətnində bu diyarın səfalı yerlərinin adlarını daşıyan havalar da kifayət qədərdir: "Qarabağda bir dənəsən", "Xarı bülbül", "Gəlin gedək Daşaltına gəzməyə", "Qarabağ gözəlləməsi", "Qarabağ şikəstəsi", "Qarabağ dübeytisi" və s.

Açar sözlər: Qarabağ şikəstəsi, Şuşa, Sadıxcanın reforması, xanəndə, aşıq, muğam

Aşıq sənətinin "qızıl dövrü" hesab edilən XVI-XVII yüzilliklərdə və ondan sonrakı dövrlərdə də Qarabağ mədəni mühiti böyük sənətkarlar yetişdirmişdir. Qurbani (XVI ə.), Lələ (XVII ə.), Abdalgülablı Valeh (XVIII ə.), Aşıq Pəri (XIXə.) kimi qüdrətli saz-söz ustadları məhz bu mühitdə yaşayıb yaratmışlar. Onların yaratdıqları zəngin və parlaq mədəni irs həm musiqi mədəniyyəti, həm də Azərbaycan yazılı ədəbiyyatının inkişafına böyük təkan vermişdir. Aşıq ədəbiyyatından bəhs edərkən Məmmədhüseyn Təhmasib aşıqlıq mədəniyyətinin hakim mövqeyini qeyd edərək yazırdı: "XVII-XVIII əsrlərdə aşıq ədəbiyyatı, aşıq şeiri o qədər geniş yayılmış, elə böyük şəxsiyyətlər yetirmişdir ki, hətta yazılı ədəbiyyatın önündə getməyə, ona istiqamət verməyə başlamış, Vaqif ədəbi məktəbinin formalaşmasında

həlledici rol oynamışdır" [1,s.488]. XVII-XIX yüzilliklərdə aşıq ədəbiyyatı özünün çiçəklənmə dövrünü yaşamış, xalq arasında və eləcə də, mədəniyyət sahəsində hakim mövqe tutmuşdur. Aşıq sənəti musiqi mədəniyyətinin bütün sahələrinə təsir etmiş, muğamların milliləşməsinə, aşıq havaları əsasında yeni bir janrın – "Qarabağ şikəstəsi, Arazbarı, Mani, Kərəmi və s. kimi zərbi-muğam ünvanlı, xanəndələrin sevə-sevə oxuduqları musiqi nümunələrinin yaranmasına gətirib çıxarmışdır. Bir çox aşıq havaları xalq mahnısı statusu qazanmışdır.

XVIII yüzilliyin ikinci yarısından başlayaraq Şuşa şəhəri Elmi-mədəni mərkəzlərdən biri kimi formalaşmışdı. Memar Kərbəlayi Səfihin tikdiyi "Göy məsçid", məhəllə məsçidləri, Qala-saray kompleksi, karvansaralar, iki-üç mərtəbəli gözəl bina və saraylar Şuşanı milli memarlıq muzeyinə çevirmişdi. Böyük şair Molla Pənah Vaqif məhz bu şəhərdə - Qarabağ mühitində yaşayıb yaratmışdır. Q.Zakir, X.Natəvan, N.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov, Y.V.Çəmənzəminli, F.Köçərli və b. yaradıcılıq yoluna bu şəhərdə başlamış, Mirzə Adıgözəl bəy, Mirzə Camal Qarabağı, Əhməd bəy Cavanşir, Mir Mehdi Xəzani kimi salnaməçilər burada yetişmişdilər. Azərbaycan muğam və ifaçılıq sənətinin inkişafında müstəsna rol oynamış ilk musiqi məclisləri də burada yaranmışdı. Xurşudbanu Natəvan "Məclisi-üns", Mir Möhsün Nəvvab Məclisi-fərəmuşan", "Məclisi-xanəndə" məclislərinin yaradıcıları idilər. Musiqi məbədi sayılan Şuşada "Xan Qarabağı, Növrəs, Məmayi, Baki, Alı Yüzbaşı oğlu Həsən "Beytül Xamuşan" məclisində, digər şair, müğənni və çalğıçılar (Mirzə Sadiq Piran, Mirzə Rəhim Fənan, Mirzə Məmməd Katib və b.) "Məclisi-üns" məclisində" [2,s.156] toplaşmış, Şuşada həvəskar gənclər M.F.Axundovun komediyalarını, V.Şekspirin "Otello" və "Adəm və Həvva"sını tamaşaya qoymuş, "Leyli Məcnunun qəbri üstündə" musiqili səhnəciyini göstərmişlər.

Şuşanın musiqi həyatını təsvir edən Y.V.Çəmənzəminli yazırdı: "küçədə evimizin qarşısındakı quyuluqda gözəl şərqilər söylərdilər, saz... çalınardı. Nə oxuyanlar vardı! Axşam çağı qatıq almağa gedən uşaqlar qazanı yanağına dayayıb, elə bayatı və şikəstə oxuyardılar ki, adamın gösləri yaşarırdı. Vaqif və Zakirin vətəni olan bu şəhərə təbiət şeir, musiqi və şərqi ilhamı bağışlamışdı. Qafqazın bütün adlı-sanlı türk xanəndə və sazəndələrini bu şəhər yetişdirərdi. Məşədi İsi, Hacı Üsü, Qaryağdı oğlu Cabbar, Əbdül Bağı, Seyid, İslam kimi oxuyanlar, Sadıxcan kimi çalanlar Şuşada yetişmişdir." [3,s.291].

Bu sıranı bəstəkar, xanəndə, sazəndə və aşıqların adları ilə sanki sonsuza qədər uzatmaq olar: Dahi Üzeyir bəy Hacıbəyli, Z.Hacıbəyov, Niyazi, S.Hacıbəyov...

Şuşa – hamımız üçün – bütün Azərbaycan xalqı üçün müqəddəsdir. Lakin biz musiqiçilər üçün Şuşanın öz yeri var. Şuşa – Azərbaycanın musiqi beşiyidir. Səcdə etdiyi "Məkkə"sidir. Mədəniyyət ocağıdır. Musiqimizin

peyğəmbəri, dahi Üzeyir bəyin ana yurdudur. Bütün Qafqazın, əslində, Yaxın Şərqin Konservatoriyasıdır. Musiqi xəzinəmizin, zəngin sənət örnəklərinin əksər çoxluğu məhz Qarabağın xanəndə və sazəndələrinin, eləcə də, ustad aşıqlarının adı ilə bağlıdır. Azərbaycan milli musiqi irsinin böyük bir hissəsi məhz Qarabağın payına düşür – desək, yanılmarıq. Bunu hamımızın sevə-sevə dinlədiyimiz musiqi folklor nümunələrinin – el havalarının adları da deyir: "Qarabağı", "Uzundərə", "Güllücə", "Qaradağı", "Arazbarı", "Gülüstanı", "Əsgəranı", "Tərəkəmə", "Çanaqqala" [4], və bu kimi bir çox oyun havaları Qarabağın dağlı-yamaclı, güllü-çiçəkli, gözəl təbiətə malik, igid oğul və qızlarının yaşadığı kənd və obalarının adı ilə bağlıdır.

Xalq mahnıları içərisində Qarabağla bağlı olan adlar, eyni zamanda poetik mətnində bu diyarın səfalı yerlərinin adlarını daşıyan havalar da kifayət qədərdir: "Qarabağda bir dənəsən", "Qarabağın yollarına düşəydim", "Şuşa ceyranı", "Bağın bağımca varmı", "Azərbaycan maralı" (Ay qız gəzmə aralı), "Xarı bülbül" ("Vətən bağı"), "Şuşalı" ("Neylərəm"), "Alma" ("Alma almaya bənzər"), "Laçın", "Qoy gülüm gəlsin" ("Qarabağın düzü var"), "Aman yar" ("Gəlin gedək Daşaltına gəzməyə"), "Yarım çıxdı qabaqdan" ("Gəlin gedək Xan bağına, xəzələ"), "Yadıma sən düşəndə" ("Şuşa, Şirvan dağ üstə"), "Evləri Tərtər üstə", "Necə qıydın" ("Gəlin gedək Xoruzlunun düzünə"), "Naxçıvanın gədiyindən aşaydım", "Eyləmi daşlı dağlar" və başqaları.

"Qarabağ dübeytisi", "Qarabağ kərəmisi", "Qarabağ ləngəri", "Qarabağ qaytağısı", "Qarabağ gözəlləməsi", "Qarabağ şikəstəsi", "Qarabağ kəsməsi", "Arazbarı" və bir çox havaları isə bu yurdun aşıqlarının yaratdığı sənət nümunələridir ki, məhz Qarabağda ərsəyə gəlib, elimizin bütün yerlərinə səs salaraq yayılıb, yeni-yeni sənət örnəklərinin yaranmasına səbəb olub.

Belə bir bir mühitdə – aşıq və xanəndə sənətinin yanaşı addımladığı, hətta kəsişdiyi bir məkanda yaradıcı mühit formalaşır, qarşılıqlı münasibətlər yaşanırdı. "Azərbaycan musiqi tarixi" kitabında oxuyuruq: "Azərbaycan musiqisinin müxtəlif qollarının, xüsusilə, muğamın və aşıq yaradıcılığının qarşılıqlı təsiri nəticəsində zənginləşməsi prosesi güclənirdi. Aşıq musiqisinin təsiri xanəndəlik sənətinə xüsusi təravət verir və muğamı yeni çalarlarla zənginləşdirirdi." [5,s.452]. Xalq şənliklərinə, toy-düyünlərə həm sazəndə, həm də aşıq dəstələri dəvət olunar, növbə ilə çıxış edər, ilk təşkil olunan "Şərq konsertləri" və "Şərq gecələri"ndən başlayaraq (1901-Şuşa, 1902- Bakı və s.) eyni səhnəni bölüşər, hətta birlikdə oxuyardılar.

Qarabağ mühitində yetişmiş böyük sənətkar – Azərbaycan milli oxuma üslubunun yaradıcısı hesab edilən Cabbar Qaryağdı oğlu görkəmli xanəndə - muğam ustadı kimi musiqi tarixinə daxil olmuşdur. Bununla belə o, xalq musiqi yaradıcılığını, mahnı və rəqsləri, el havalarını, eləcə də, aşıq

yaradıcılığını da dərindən bilmiş, bu ruhda şeirlər yazmış, mahnılar bəstələmiş, el havalarını oxuyan ilk xanəndə kimi də tarixə düşmüşdür. "Cabbar Qaryağdı oğlu böyük muğam ustası olmaqla bərabər musiqi folklorumuzun, xalq mahnılarımızın gözəl bilicisi və bəstəcisi idi... Təsadüfi deyildi ki, Cabbar Qaryağdı oğlunu musiqi folklorumuzun "canlı ensiklopediyası" adlandırırdılar. O, 500 yaxın xalq mahnısını əzbər bilirdi və onlardan 300-nü fonovalikə yazdırmışdır" [5,s.472]. "Qaryağdının musiqi yaddaşı – xalq melodiyalarının əsil xəzinəsidir." [6, s.16].

Ümumiyyətlə, Qarabağın musiqi sərvətinin, o cümlədən, musiqili-ədəbi folklorunun yaşaması, bu günə çatdırılması faktı, ilk növbədə, Cabbar Qaryağdı oğlunun adı ilə bağlıdır desək, yanılmarıq. C.Qaryağdı oğlu məhz Qarabağ mühitində formalaşmışdı, bu yerlərin musiqi sərvətinin həm yaradıcısı, həm daşıyıcısı, həm də ötürücüsü olmuşdur. Məlum olduğu kimi, Cabbar Qaryağdı oğlu Şuşada doğulmuş, ömrünün 39 ilini Şuşanın ən səfalı, mənzərəli məkanlarından birində - Cıdır düzünə yaxın "Seyidlər" məhəlləsində yaşamışdır. Böyük sənətkar kimi məhz burada yetişmişdi və xalq nəğməkarı kimi böyük ad qazanmışdı. 1900-cu illərdən başlayaraq, o, ilin çox hissəsini Bakı şəhərində yaşayaraq müxtəlif konsertlərdə, tamaşalarda çıxış etmiş, toy-düyünlərdə oxumuşdur. 1909-cu ildə Bakıda ev tikdirmiş və ailə həyatı quraraq həyatının sonrakı 36 ilini burada yaşayıb-yaratmışdır. Yay aylarını isə Şuşada keçirən böyük xanəndə doğma yurdu ilə sıx tellərini kəsməmiş, üstəlik, Qarabağın zəngin musiqi sərvətini, o cümlədən, Qarabağ musiqi folklorunu da özü ilə birlikdə Bakıya gətirmişdir. Cabbar Qaryağdı oğlunun oxuduğu xalq mahnıları, təsniflər, el havaları və s. tez bir zamanda bütün Azərbaycana yayılmışdır. Fonovaliklərə yazdırdığı havalar da yaddaşında qoruyub saxladığı, sevə-sevə oxuduğu həmin musiqi irsinin ayrı-ayrı sənət inciləridir. Azərbaycan milli musiqi mədəniyyətinin bütün qollarını (muğam və aşıq sənətini, xalq yaradıcılığını, eləcə də, dini musiqini) bütün qanı və ruhu ilə dərk edərək özündə cəmləməsi və gələcək nəsillərə ötürməsi Cabbar Qaryağdı oğlu fenomeninin əsas qayəsidir.

Başqa bir böyük muğam ustası – Seyid Şuşinski yaradıcılığına aşıq kimi başlamış, gənc yaşlarında aşıq dəstəsində oxumuşdur. "Arazbarı" aşıq havasını zərbi-muğam şəklində ilk oxuyan da məhz o olmuş, zil səsi, coşqun zəngulələri, ifaçılıq məharəti ilə hamını heyran etmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Bakı şəhərinə köçmüş (1919) və fəaliyyətini burada davam etdirmişdir. O, 1926-1933-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasında, 1943-1963-dək Musiqi texnikumunda dərs deyib. H.Rzayeva, R.Muradova, İ.Rzayev, Ə.Əliyev, Y.Məmmədov və başqaları onun yetirmələridir.

Görkəmli müğənni Bülbül, "23-24 yaşınadək həm xanəndə, həm də aşıq" [7, s.202], kimi fəaliyyət göstərmiş, həm aşıq, həm el havaları, həm də muğam və təsnifləri böyük məharətlə ifa etmişdir. Azərbaycan musiqisinin,

eləcə də, aşıq yaradıcılığına bütün qəlbi ilə bağlı olan Bülbül, 1921-ci ildən Bakı şəhərində yaşayıb-yaradıb, professional vokal ifaçılığı məktəbinin, Konservatoriya nəzdində Elmi Tədqiqat Musiqi Kabinetinin və s. yaradıcısı olub, Azərbaycan musiqi mədəniyyətinin inkişafına misilsiz töhfələr verib.

Qarabağ musiqi mühitinin böyük ustadı, böyük tarzən – Aşıq Valehin nəticəsi Qurban Pirimov ilk öncə sazda çalmış, sonra tar ifaçılığına keçmiş və ustad tarzən kimi tanınmışdır. Aşıq Valehin nəvəsi Aşıq Abbasqulu isə, Sadıxcan, C.Qaryağdı oğlu və başqaları ilə eyni məclis və səhnələri bölüşmüş, tarda çalmağı bacarmış, tarın müşayiəti ilə muğam oxumuş, muğam zəngulələrini aşıq havalarına daxil etmişdir.

Adları çəkilən bu şəxsiyyətlərin hər biri Azərbaycan mədəniyyəti tarixində misilsiz xidmətləri olan şəxslərdir. Onların hər biri həm qədim aşıq sənəti, həm zəngin muğam sənəti, həm də çoxçeşidli xalq mahnı və rəqs havalarına dərindən, bütün incəliklərinə kimi bələd olmuş və öz yaradıcılığında bu sənət qollarının üzvi vəhdətinə – ortaq səs-məqam, səs-intonasiya birliyinə, milli oxuma üslubunun formalaşmasına, parlaq ifa imkanlarının pöhrələnməsinə nail olmuşlar. Bu sənətkarların dahi simalarının sirri də məhz bundadır – desək, zənnimizcə yanılmarıq.

Göründüyü kimi, Qarabağ musiqi məktəbinin, ifaçılıq ənənələrinin, zəngin musiqi mədəniyyətinin yayılmasında bu diyarın musiqiçilərinin böyük rolu olmuşdur. İlk növbədə, Şuşada, o cümlədən, Qarabağın ayrı-ayrı bölgələrində doğulub, boya-başa çatmış, xanəndə, sazəndə, aşıq kimi formalaşmış musiqiçilər Azərbaycanın əksər şəhər və kəndlərində, Qafqazın, və yaxın ölkələrin bir çox şəhərlərində konsertlər vermiş, oxuyub-çaldıqları şaqraq havalar ilə doğma vətənin sədasını hər tərəfə yaymışlar. Şuşada doğulub boya-başa çatmış xanəndə və sazəndələrin çox hissəsi, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan əvvəl və sonra, bu və ya digər səbəblərdən, Bakıya, Gəncəyə və başqa şəhərlərə köçmüş və burada fəaliyyətlərini davam etdirmiş, musiqi məktəblərində dərslər vermiş və gələcək nəsillərin yetişməsində müstəsna rol oynamışlar. Hər bir musiqiçi öz ifası, ustad dərsləri ilə yeni nəslə, həm də, Qarabağın sanki bir hissəciyini də ötürmüş, Şuşa şəhərinin zəngin musiqi ruhunu aşılamışlar. Qarabağ musiqi mühitinə xas olan obrazlılıq – təbiətə vurğunluq, füsunkar dağlarınçeşmələrin, gözəllərin poetik təsviri, hadisələrə dərin emosional münasibət, saf, içdən gələn musiqi intonasiyaları, əsil milli ruh, səs tembrinin özünəməxsusluğu, şaqraq zəngulələr, zəngin melodik, metr-ritmik müxtəliflik, zil səsli xanəndələrin, xüsusilə, sevilməsi, ifa zamanı dərin hisslərin çatdırılması, və ya coşqun emosionallıq və bu kimi özəlliklər Qarabağdan Azərbaycanın bütün bölgələrinə daşınmış və yeni nəsil xanəndələri tərəfindən inkişaf etdirilmişdir. Bu baxımdan, demək mümkündür ki, Qarabağ məktəbi musiqi mədəniyyətimizin böyük bir mərhələsini təşkil edir,

"Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaratmışlar və onu təkcə öz vətənlərində deyil, Şərqin başqa ölkələrində də təmsil etmişlər." [6, s.17].

Bu yazı çərçivəsində, biz, diqqəti Azərbaycan tarının yaradıcısı – Qarabağ mühitinin yetirməsi, böyük musiqiçi Mirzə Sadıq Əsəd oğluya (Sadıxcan) yönəltmək istərdik. Məlum olduğu kimi, tar uzun əsrlik bir inkişaf tarixi keçmiş, dəyişikliklərə uğramış, təkmilləşmə prosesi yaşamışdır. Yaxın keçmişdə tar üzərində aparılmış ən böyük dəyişikliklərdən biri XIX əsrin altmışıncı illərində - məhz Azərbaycanda, Qarabağın Şuşa şəhərində baş tutmuşdur. Sadıxcanın həyata keçirdiyi reforma nəticəsində, hal-hazırda bütün Qafqazda, Qafqazyanı ölkələrdə, Orta Asiyada geniş yayılan sırf milli Azərbaycan tarı yaranmışdır.

Mirzə Sadıx, dövrünün böyük tar ustası Əli Əsgərdən dərs almışdır. O fitri istedada malik, virtuoz tar ifaçısı kimi yetişmiş, yeni muğam növlərinin, o cümlədən, sırf milli janrlardan biri olan "zərbi-muğam"ların yaradıcısı, muğamın, eləcə də, xalq musiqisinin mahir bilicisi, tar alətinin novator ustası, kamança ifaçısı, ən önəmlisi, milli musiqi təfəkkürünün daşıyıcısı olmuşdur.

Sadıxcanın reforması nəticəsində tar alətinin pərdə düzülüşünün dəyişilməsi və bununla bağlı olaraq formalaşmış bir mühüm məqama diqqəti yönəltmək istərdik.

Sadıxcanın pərdələrin sayını azaldaraq 17-ni saxlamış, pərdələrin düzümünü dəyişdirmişdir [8].Tarın yeni səs düzümünü yaradarkən Sadıxcan aşıq sazına xas olan böyük major tersiyasını (5/4–386 sent) tara daxil etmişdir. Tar alətinin tanınmış araşdırıcısı V.Əbülqasımov "Azərbaycan tarı" əsərində yazır: "Mirzə Sadıx Əsəd oğlu yeni tarda beşsimli tardakı böyük tersiya ucalığını (348c) qəbul etməmiş və həmin pərdəni bir qədər irəli çəkərək böyük tersiya ucalığını 384 sentə (6-cı pərdə) çatdırmışdır. Bununla Mirzə Sadıq "Segah" tonikasının mövqeyini tamamilə düzgün və həm də "Segah"ın ("Xaric Segah" – "Orta Segah" – "Mirzə Hüseyn Segah"ı) məhz Azərbaycanda nə sayaq səslənməsi və nə üslubda ifa olunması prinsipini nəzərdə tutaraq təyin etməyi bacarmışdır." (fərq 384-343=41 sent olmuş-dur.): [8, s.47, 36-37]. Bu – Sadıxcanın tar reformasının ən mühüm yeniliyi-dir. Tarın rekonstruksiyasında belə bir dəyişikliyin edilməsi Azərbaycan musiqisinin, Azərbaycan muğamının daha zəngin, daha parlaq milli xüsusiyyətlər, milli çalar, milli rəng əldə etməsinə, məqam-intonasiya məzmununun daxili gözəlliklərinin, üstün və özəl milli keyfiyyətlərinin üzə çıxarılmasına şərait yaratdı. Eyni zamanda, "Segah" muğamının inkişaf etməsi, yeni-yeni növlərinin yaranması, "Segah"ın əksər muğamlara nüfuz etməsi prosesi gücləndi.

Müəllif əsərdə həm beşsimli tarın, həm də on bir simli tarın pərdələrinin düzümünün sentlərlə ölçüsünü vermişdir. Azərbaycan xalq çalğı alətlərinin görkəmli tədqiqatçısı S.Abdullayeva isə "Azərbaycan xalq çalğı

alətləri" əsərində bir neçə saz alətinin pərdələrinin sentlərlə ölçülərini vermişdir. Məsələn: Ə.Rzayevin sazında böyük tersiyalardan biri – *do-mi* arasında ölçü 384 sent göstərilmişdir.

Sadıxcanın bu pərdəni tara daxil etməsi ilə, Azərbaycan tarı XIX əsrə qədər tarzənlərimiz tərəfindən çalınan qədim şərq tarından fərqlənmişdir. Xalq arasında geniş şöhrət qazanmış "Qarabağ şikəstəsi"nin və digər şikəstələrin, eləcə də, "Segah" muğamının, xalq havalarının tarda ifası dəqiqləşmiş, milli intonasiyaları daha düzgün ifadə etmək mümkün olmuş, daha dürüst səslənmə əldə edilmişdir.

Tarın üzərində yeniliklərin aparılması nə ilə bağlı idi? Zərurət nədən yaranmışdı? Fikrimizcə, Azərbaycan xalqının əsrlər boyu yaratdığı, inkişaf etdirdiyi melodik-səs, məqam-intonasiya məcmusu toplanaraq formalaşmışdı. Xalq bunu öz nəfəsində qoruyub saxlayır, oxuduğu havalarda, eyni zamanda, çaldığı alətlərdə də səsləndirir və cilalayırdı. Belə alətlərdən biri də qədim saz idi.

Qeyd olunduğu kimi, Sadıxcanın yaşadığı mühitdə - Qarabağda muğam sənəti ilə yanaşı aşıq musiqisi, saz ifaçılığı da geniş yayılmışdı (F.bəy Köçərli təkcə Gülablıda fəaliyyət göstərən 26 aşığın adını çəkmişdir). Azərbaycan musiqisinin iki möhtəşəm qolu – muğam sənəti və aşıq yaradıcılığının qarşılıqlı əlaqə və təsiri nəticəsində zənginləşmə prosesi artırdı. Xalq tərəfindən sevilən, geniş yayılmış bir sıra aşıq havaları xanəndə yaradıcılığına sirayət edir və xanəndələr tərəfindən oxunurdu. Çox sevilən havalardan biri də aşıq "şikəstə"ləri idi. Beşsimli tarda bu havaların milli intonasiya səciyyəsini ifadə etmək, olduğu kimi çalmaq mümkün deyildi. Zərurət buradan yaranmışdı. Qarabağ hələ də böyük ustad Aşıq Valehin təsiri altında yaşayırdı [9.s.18, 21-23]. Mənbələrə görə, Qarabağ şikəstəsi, Qarabağ kərəmisi, Qarabağ dübeytisi, Arazbarı və b. havaları da məhz Aşıq Valeh yaratmışdı. Belə bir mühitdə - aşıq mühiti ilə sıx təmasda yaşayan Sadıxcan sinədə çalınan sazı görüb-eşitmişdi, onun səsi və havacatı ilə böyümüşdü. Çox yəqin ki, tarı da saz kimi, sinəyə qaldırıb çalmaq istəyi buradan qaynaqlanmışdı.

O, çalğı, səs, texniki imkan baxımdan onu qane etməyən alətdə çalmaq istəmirdi və "ürəyinin başında" çalınan doğma hava, təmiz səs, milli səslənmə axtarışında idi. O istəyinə çatdı və adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdırdı.

Beləliklə, Sadıxcanın tarda yeni səs sistemini yaratması ilə Azərbaycan tarı XIX əsrə qədər tarzənlərimiz tərəfindən çalınan qədim şərq tarından fərqlənmişdir. Bu dəyişikliklər alətin milliləşməsinə, onun xalq alətinə çevrilməsinə, Azərbaycan muğamının xalq musiqisi ilə qovuşmasına, daha zəngin və parlaq milli çalarlar əldə etməsinə, milli məqam-intonasiya məzmununun üzə çıxmasına imkan yaratmışdır. "Segah", "Şur" muğamlarının, xalq havalarının, "Qarabağ şikəstəsi" və digər şikəstələrin tarda ifası

dəqiqləşmiş, milli intonasiyaları daha düzgün ifadə etmək mümkün olmuşdur.

Hər bir xalqın milli özünəməxsusluğunu təyin edən bir çox amillər vardır. Bu amillər xalqın həyatının hər bir sahəsində mövcuddur və özünün bənzərsizliyi, sabitliyi və yaşarılığı ilə fərqlənir. Bu baxımdan, Azərbaycan musiqisində, milli-ictimai toplum olaraq hamı tərəfindən dərk olunmuş və qəbul edilmiş, özündə milli musiqinin tipikləşmiş ifadə vasitələrini – poetik, melodik, metr-ritmik, məzmun, ovqat, ifa xüsusiyyətlərinin üzvi vəhdətini cəmləmiş ənənəvi hava-formullardan, hava-modellərdən biri məhz şikəstədir.

Azərbaycan xalq yaradıcılığının bir çox sahələrində - aşıq musiqi yaradıcılığı, aşıq poeziyası, eləcə də muğam sənətində "şikəstə"lərin xüsusi yeri vardır: şikəstə-ağı, şikəstə-bayatı, aşıq şikəstələri, şikəstə - zərbi-muğamlar və muğam şöbəsi – şikəsteyi-fars və hətta, şikəstə-məqam. Şikəstələrin məzmun, obraz, ovqat, bədii təsir dairəsi xalqımızın mənəvi aləminə, hisslər dünyasına çox yaxın və doğmadır. Bu musiqi özəllikləri şikəstələrin geniş yayılmasına və sevilməsinə, nəsildən-nəslə keçərək bu günümüzə gəlib çatmasına əsas zəmin olmuşdur. Bu el havaları xalqın şad günlərində onlara yüksək zövq və sevinc hissləri bəxş etmiş, qəmli vaxtlarında isə sanki kədəri, ağrını ovundurmağa, soyutmağa qadir olmuşdur.

Azərbaycan ifaçılıq sənətinin ən qüdrətli sənətkarları - Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, o cümlədən, Keçəçi oğlu Məhəmməd, Zabul Qasım, Məşədi Məmməd Fərzəliyev, Seyid Şuşinski, Xan Şuşinski və bir çoxları "Qarabağ şikəstəsi"ni böyük məharət və şövqlə oxumuşlar. Bunun nəticəsidir ki, Azərbaycanda məşhur xanəndələrimizin sayca çox az olan vallarına – Keçəçi oğlu Məhəmmədin (1912-ci il, Sport-Rekord, Varşava), Aşıq Abbasqulunun (1914, Sport-Rekord, Tiflis) vallarına başqa musiqi havaları ilə yanaşı, şikəstələr də daxil edilmişdir. XX yüzillikdə və çağdaş dövrümüzdə yaşayıb-yaradan xanəndələrimiz də şikəstələrin mahir ifaçıları kimi məşhurlaşmışlar.

Qeyd edək ki, Azərbaycan bəstəkarları ilk əsərlərini yaradarkən xalqı professional musiqiyə alışdırmaq, cəlb etmək məqsədilə xalq ruhuna daha yaxın olan musiqi nümunələrindən, janr və formalardan istifadə etmiş və bu mənada, məhz şikəstələr bəstəkar və tamaşaçı arasında bir növ vasitəçi rolunu oynamışdır. Bunun əsas səbəbi o idi ki, məhz şikəstələr, hər bir azərbaycanlının milli duyumu, mənəvi aləminə çox doğma idi və hamının daxilən duyduğu, yaddaşına həmişəlik hopmuş, saf bir "segah" üstündə yoğrulmuş musiqi nümunələri idi. Şikəstələrin milli özəlliyini duyan və şikəstələrdən əsərlərində tapıntı kimi istifadə edən də bizim ölməz bəstəkarlar olmuşlar. Ü.Hacıbəyli "Əsli və Kərəm", Z.Hacıbəyov "Aşıq Qərib", R.M.Qliyer "Şahsənəm" və b. operalarına "Qarabağ şikəstəsi"ni daxil etmişlər.

"Qarabağ şikəstəsi"ndən danışarkən istər-istəməz daha bir qarabağlı – Xan Şuşinski yada düşür. Bu ad isə bizi bir daha gözəl Qarabağ torpağına, Şuşaya aparıb çıxarır.

Xan Şuşinski bu torpaqda göz açmışdı. Bu torpağın suyundan, havasından udmuşdu, burada boya-başa çatmışdı. Təsadüfi deyildir ki, öz dövründə **Qarabağ şikəstəsini** onun qədər təsirli oxuyan olmamışdır. Xanın səsi Allahın Davud Peyğəmbərə bəxş etdiyi füsunkar səslə - "Ləhni Davud"la müqayisə edilirdi. Səsinin milli koloriti, milli çalarları var idi. O həm muğam və zərbi muğamların, xalq mahnılarının, eləcə də aşıq havalarının mahir ifaçısı idi. Xan Şuşinskinin ifa üslubunun özü bu bədii qovuşuqluğun təcəssümü idi. Özünün dediyinə görə, aşıqdan eşitdiyi "Apardı sellər Saranı" havasını, "Əlində sazın, qurbanı" və b. havaları xanəndə ifaçılığına gətirən, ona yeni həyat verən də Xan idi.

Sonralar bir çox xanəndə və sazəndələr, müxtəlif müğənni və ifaçılar bu havanı oxuyub, ona yeni rəng, yeni nəfəs qatıb, öz yaradıcı möhürünü vurub. Son otuz ildə isə bu möhtəşəm musiqi nümunəsi yeni obraz, yeni məzmun çalarları, qəhrəmanlıq, mərdlik cizgiləri əldə edib. Müxtəlif təfsirlərlə, yeni interpretasiyalarla təqdim edilməklə "Qarabağ şikəstəsi" xalqın ruhunu təzələyib, həm ürəyini sazladıb, həm yaddaşını oyadıb, həm də mübarizəyə səsləyib, qələbəyə doğru aparıb. Qarabağın musiqi rəmzinə çevrilib. Azərbaycan xalqının məhtəşəm qələbəsi isə bu havaya yeni məna qatıb. Artıq Qarabağ şikəstəsi – bu qədim yurdun zəfər himnidir. Ürəyimizin ən iç qatlarından, neçə illərin həsrətindən qopan sədasıdır, Qarabağ mübarizəsinin qələbə akkordlarıdır: "Sən azadsan – Şuşa!"

....Uca dağ başında, sıldırım qayaların üstündə məğrur bir yurd ocağı görünür: sanki bir üzük qaşıdır, sanki bir baş tacıdır, sanki Uca Tanrının öz əli ilə çəkdiyi, xeyir-duası ilə yaratdığı, həm dahiyanə, həm də sadə - təbii bir gözəlliyin özüdür... Bizi keçmişimizə bağlayan, milli ruhumuzun rəmzi olan qədim Şuşadır.

Uzaqdan yenə də doğma bir səs gəlir – "Qarabağ şikəstəsi" havalanır. Bu dəfə isə oxuyan xalqımızın igid oğlu – Qalib Azərbaycan əsgəridir. O qəhrəman ömrünün bütün yaşantılarını – torpaq itkisi, vətən həsrəti, mübarizəsi, qələbəsi... sevgisini səsinə yansıdaraq hayqırır:

Əzizinəm, Qarabağ,
Şəki, Şirvan Qarabağ.
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ!!!! [10].

Qeydlər və ədəbiyyat siyahısı

1. M.Təhmasib. Seçilmiş əsərləri. I cild, Bakı -2010
2. T.Köçərli. Qarabağ. Bakı, 2006
3. Y.V.Çəmənzəminli. Əsərləri. III cild,
4. Çanaqqala Şuşa şəhərinə girişdə yerləşən yer adıdır. Lakin, ola bilsin ki, bu hava türklərin "Çanaqqala zəfəri" ilə bağlı olaraq yaranmışdır. Çanaqqala savaşında Azərbaycanlı əsgərlər də vuruşmuşdur.
5. Bax: Azərbaycan musiqi tarixi. I cild. Bakı, 2012
6. F.Şuşinski. Azərbaycan xalq musiqiçiləri. Bakı-1985
7. Bülbül. Musiqi sənəti haqqında. Bakı- 1968
8. Bu haqda daha ətraflı bax: V.Əbülqasımov "Azərbaycan tarı. Bakı, 1989
9. Kolanlı Həsən Şıxavəndli "Aşıq Valeh" adlı kitabında qeyd edir ki, Firudin bəy Köçərli "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərində yazır: Qarabağın aşıqları, neyçi və balabançıları, sazəndələri, xanəndə və nəvazəndələrinin əksəriyyəti Gülablıdan çıxıb (Aşıq Valehin doğulduğu kənd – İ.K.), onun abu-havası ilə pərvəriş tapmışlar." Daha sonra oxuyuruq: Gülablı kəndində aşıq dəstələri yaranır, zurna-balaban həmin dəstələrə daxil olur. Bizə gəlib çatan məlumata görə, bu kənddə 29 zurnaçı dəstəsi olmuşdur. Onlar içərisində zurnaçı Əkbərin dəstəsində: Aşıq Qaraş, Aşıq Məmmədoğlu, Hüseyn zurnaçı, Hüseyn oğlu Məmməd, Aşıq Məhi Muxtar oğlu, Aşıq Baxış, Aşıq Nəcəfqulu, Aşıq Aslan, Aşıq Balakişi, Aşıq Cahangir, Aşıq Əzim, Aşıq Şahməmməd, Aşıq Çərkəz, Aşıq Musa, Aşıq Əli, Aşıq Məhərrəm, Aşıq Səməd, Aşıq Aşıq Allahverdi, Aşıq Yadigar, Aşıq Abbasqulu, Aşıq Cəlal, Aşıq Qənbər, Aşıq Əhməd, balabançı Kərbalayi Fərəc. Valehin törəmələri: Aşıq Abbasqulu, Zərnigar, Aşıq Qara, Aşıq Ağalar, Aşıq Səməd, Aşıq Məhəmməd Zərnigar oğlu, balabançı Baxşəli və nəhayət, deyilir ki, Aşıq Valeh qədim saz havalarımıza "Qarabağ dübeytisi", "Qarabağ kərəmisi", "Qarabağ ləngəri", "Qarabağ qaytağısı", "Qarabağ gözəlləməsi", "Qarabağ şikəstəsi", "Arazbarı", "Aran gözəlləməsi" kimi incilər verib." Bakı, 2011, s.18, 21-23.
10. Sonda Şuşada doğulub-yetişmiş, sonralar, əsasən, Bakı şəhərinə və Azərbaycanın digər şəhərlərinə köçüb-yaşamış və ya Bakıda konsertlər vermiş böyük musiqiçilərin tam olmayan siyahısını təqdim edirik:

1. Mirzə Muxtar (1841-Şuşa-1929-Bakı) *– aktyor, xanəndə, musiqişünas – bir çox aktyor və xanəndələrin yetişməsində böyük rol oynayıb.*

2. ***Abdul Bağı Bülbülcan – (1841-Şuşa-1927-Bakı)*** *– xanəndə, Şərq Konservatoriyasında, Azərbaycan Dövlət Türk musiqi məktəbində (1923-1927) dərs deyib. (Tiflis dövrü-1875-1905)*
3. ***Mirzə Sadıx Əsəd oğlu (Sadıxcan-1846-Şuşa-1902-Şuşa) –*** *tarzən, tar reformatoru, Bakıya dəvət edilib, konsert və məclislərdə iştirak edib, aylarla M.M.Mansurovun malikanəsində qonaq olub, eyni zamanda, onun oğullarına tarın sirlərini öyrədib.*
4. ***Məşədi Zeynal (1850-ci illər-Şuşa-1918-Bakı) –*** *tarzən, Bakıda opera, dram tamaşaları, xeyriyə gecələrində çalıb, coxlu sayda tarzən yetişdirib.*
5. ***Cabbar Qaryağdı oğlu (1861-Şuşa-1944-Bakı)*** *– 1901-ci ildən Bakı şəhərində yaşayıb və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib.*
6. ***Keçəçi oğlu Məhəmməd (1864-Şuşa-1940-Bakı) –*** *1926-cı ildə Ü.Hacıbəyli tərəfindən Bakıya dəvət alıb və Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib.*
7. ***Malıbəyli Həmid (1869-Şuşa-1922)*** *– XX əsrin əvvəllərindən Gəncəyə köçüb. Səsi batandan sonra tarda çalıb və böyük xanəndələri müşayiət edib.*
8. ***Məşədi Məmməd Fərzəliyev (187?-Şuşa -1962-İstambul)*** *(Tiflis dövrü - 1911-1919) – 1923-1929-cü ildə Məşədi Cəmil Əmirovun dəvətilə Gəncəyə gəlib, Musiqi məktəbində dərs deyib.*
9. ***Məşədi Cəmil Əmirov (1875-Şuşa -1928-Bakı)*** *– 1907-ci ildə Gəncəyə köçüb və muğam kurslarında dərs deyib, 1923-cü ildən Musiqi məktəbində direktor vəzifəsində çalışıb və tar aləti üzrə dərs deyib.*
10. ***İslam Abdullayev (1876-Şuşa -1964-Bakı) –*** *Gəncədə xalq çalğı alətləri orkestri yaradıb, Ağdamda dərs deyib. Bakıda – 1964-cü ildə rəhmətə gedib.*
11. ***Qurban Pirimov (1880-Şuşa-1965-Bakı)*** *– 1905-ci ildə Bakıya gəlib. Musiqi Texnikumunda dərs deyib. Çoxlu yetirmələri var: Bəhram Mansurov, Hacı Məmmədov, Əhsən Dadaşov, Həbib Bayramov və b.*
12. ***Seyid Şuşinski – (1889-Şuşa -1965-Bakı)*** *– 1919-cu ildən Bakıda yaşayb, 1926-1933-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasında, 1943-1963-dək Musiqi texnikumunda dərs deyib. (Tiflis dövrü-1912-1919)*
13. ***Musa Şuşinski (1893-Şuşa -1971)*** *– Gəncədə yaşayıb, musiqi məktəbində dərs deyib.*
14. ***Bülbül – (1897-Şuşa -1961-Bakı) –*** *1921-ci ildən Bakı şəhərində yaşayıb, professional vokal ifaçılığı məktəbinin yaradıcılarından biri olub.*

15. ***Zülfü Adıgözəlov – (1898-Şuşa -1963-Bakı)*** *– 1924-cü ildə Gəncədə fəaliyyətə başlayıb, 1927-ci illərdə Bakıya gəlib, burada yaşayıb və konsertlər verib, tamaşalarda oynayıb.*
16. ***Xan Şuşinski (1901-Şuşa-1979-Bakı) –*** *1939-cü ildə Bakıya gəlib. Burada fəaliyyət göstərib. Musiqi texnikumunda dərs deyib, 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində "Muğam studiyası" yaradıb və burada gənc xanəndələrə muğam öyrədib*

İ. Kocharly

"Karabakh's shikasta" – victory song

Key words: "Karabakh's shikasta", Shusha, Sadikhdjan's reform, khanende, ashug, mugham

The article is devoted to the Karabakh musicians and their contribution to the development of Azerbaijani music.

The article highlights the creativity of ashugs, khanende, musicians living and working in Karabakh - Shusha, and also focuses on Sadikhdjan's reform of tar, art of khanende Jabbar Garyagdy oglu, samples of folk music collected and outlined by him, and other unprecedented work of him, as well as lots of others artists contribution to ashug and mugham study.

It is noted that many outstanding Shusha musicians performed during the Soviet era in Baku, Ganja, Aghdam and other cities. They lived, taught in educational institutions, gave concerts and carried musical pearls of Karabakh throughout Azerbaijan. And the "Karabakh's shikasta" has become a symbol of our struggle.

И. Кочарли

Карабах шикестеси – песнь борьбы и победы

Ключевые слова: «Карабах шикестеси» Шуша, реформа Садыхджана, ханенде, ашыг, мугам

Статья посвящена карабахским музыкантам и их вкладу в развитие азербайджанской музыки.

В статье освещается творчество ашугов, ханенде, сазистов, живших и творивших в Карабахе - Шуше, так же подчеркивается реформа тара Садыхджаном, искусство ханенде Джаббара Гарягды оглу, сбор

образцов народной музыки, их запись и другие его беспрецедентные заслуги, а так же большой вклад многих других деятелей искусства в сферу ашыгского творчества и мугама.

Отмечается, что многие выдающиеся шушинские музыканты в советское время жили и творили в Баку, Гяндже, Агдаме и других городах. Они выступали, преподавали в учебных заведениях, вели концертную деятельность и тем самым распространили музыкальное наследие Карабаха по всему Азербайджану. А «Карабах шикестеси» стал символом нашей борьбы.

İSSN 2311-5777
Volume 21 №1 2021 177-182

Xəzər Zeynalov

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
AMEA Memarlıq və İncəsənət İnstitutu

UOT: 75.04

AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ QARABAĞ MÖVZUSU

Xülasə: Məqalədə Qarabağ mövzusuna həsr olunmuş təsviri sənət əsərlərindən danışılır. Azərbaycan incəsənətində bu mövzu hələ ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərində meydana gəlmişdir. 2020-ci ildəki qalibiyyətli müharibədən sonra bu mövzunun inkişafında yeni mərhələ başlanmışdır. Müəllif qeyd edir ki, rəssamlar, xüsusən gənc nəsil nümayəndələri, Qarabağ torpağının azadlığına səbəb olmuş hadisələrə coşqunluqla reaksiya vermişlər. Həmin dövrdən nisbətən az vaxt keçməsinə baxmayaraq rəssam və heykəltəraşlar maraqlı əsərlər ərsəyə gətirmiş, Azərbaycan döyüşçülərinin qəhrəmanlığını əks etdirmiş, şəhidlərimizin obrazlarını yaratmışlar. Mühüm olan budur ki, Qarabağ mövzusunun konteksti dəyişmişdir. Əgər əvvəllər bu mövzuda, Xocalı faciəsinə həsr edilmiş əsərlər seriyasında olduğu kimi, hüzn və kədər motivləri üstün idisə, bu gün artıq rəssamlar öz tablolarında qələbə sevincini, qaçqınların öz torpaqlarına qayıtmasını əks etdirir, azad edilmiş ərazilərdə nəhəng tikinti işlərini təsvir edirlər.

Açar sözlər: Təsviri sənətdə Qarabağ mövzusu, rəngkarlıq, heykəltəraşlıq, Əşrəf Heybətov, Müstəqil Balayev.

Qarabağ mövzusu Azərbaycan təsviri sənətində ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərindən etibarən formalaşmağa başlayıb. İlk dövrlərdə daha çox hüzn, kədər ifadə edən bu mövzu, tədricən həm də vətənpərvərlik, qəhrəmanlıq, dövlətçilik kimi ideya-bədii keyfiyyətlər kəsb edib. Geniş mənada 20 yanvar faciəsi, Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş şəhidlərin unudulmaz xatirəsi kimi süjet və mövzular da Qarabağ hadisələri kontekstində qəbul edilə bilər.

Müasir Azərbaycan təsviri sənətində Qarabağ mövzusuna bir çox rəssam və heykəltəraş müraciət etmişdir. Onların arasında həm yaşlı və orta, həm də gənc nəslin nümayəndələri vardır. Hələ Qarabağ hadisələrinin ilk dövrlərində qocaman rəssamlar - Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Ağa Mehdiyev, Elmira Şahtaxtinskaya, Sara Manafova, Əyyub Hüseynov, Hafiz Məmmədov və başqaları bu mövzuya müraciət etmişdilər. Sonralar

həmin mövzu Nazim Məmmədov, Vaqif Ucatay, Sakit Məmmədov, Əşrəf Heybətov, Rza Avşarov, Elşən Hacızadə, Həmzə Abdullayev, Vüqar Əli və başqalarının yaradıcılığında davam və inkişaf etdirildi.

Milli təsviri sənətimizdə Qarabağ mövzusunun ən kədərli, faciəvi motivi, şübhəsiz ki, Xocalı soyqırımıdır. Bu mövzuya bir çox rəssamlar ürək ağrısı ilə müraciət ediblər [1, s. 230]. Onların içərisində tanınmış rəssam Nazim Məmmədovun xüsusi rolu vardır. Vətənpərvər sənətkar 1992-2004-cü illərdə Xocalı faciəsinə həsr edilmiş bütöv bir seriya yaratmışdır. Əsasən qrafik kompozisiyalardan ibarət olan bu seriyaya 40-a yaxın rəsm daxildir. Zahirən bir qədər abstrakt sənət xarakteri daşıyan bu rəsmlərdə Xocalı faciəsinin müxtəlif səhnələri göz önündə canlanır [2].

Qarabağ mövzusu Xalq rəssamı Əşrəf Heybətovun yaradıcılığında da geniş təmsil olunub. Artıq çoxdan bəridir ki, Almaniyada yaşayan rəssam bir an olsun belə vətəni unutmur, öz tablolarında Azərbaycanı, Bakını, xüsusən onun qədim tarixini özündə yaşadan İçərişəhəri sevə-sevə təsvir edir. Deyildiyi kimi, rəssam Qarabağ mövzusuna da müraciət edir. Onun yaratdığı "Xocalı" adlı (2010) pannoda emosional gərginlik, ağrı və kədər hissləri hökm sürür. Monumental təsir bağışlayan bu pannoda qırmızı rəng üstündür. Bu, Xocalıda tökülən qanların rəmzi əks-sədasıdır.

20 yanvar hadisələri Kamil Nəcəfzadə, Arif Hüseynov, Hafiz Əliyev kimi qocaman rəssamların son dövr yaradıcılığında əks olunmuşdur. Əməkdar incəsənət xadimi Əyyub Hüseynovun bu mövzuda işlədiyi "Bakıda 20 yanvar faciəsi" (1997) tablosu diqqəti xüsusilə cəlb edir. Ekspressiv əhvali-ruhiyyəli bu tabloda o müdhiş gecədə əliyalın insanların haqq-ədalət uğrunda küçələrə çıxması, tankların onların üstünə yeridilməsi dramatik səpkidə öz əksini tapır.

Əməkdar rəssam Həmzə Abdullayev 2003-cü ildə "Yandırılmış vətən" adlı tablo işləmişdir. Həmin əsərdə azərbaycanlıların qaranlıq gecədə vahimə, təlaş içində Şuşanı tərk edərək çöllərə üz tutması təsvir olunub. Arxa planda isə kimsəsiz qalmış Şuşanın od içində görüntüsü yer alır. İndi artıq o əzablı günlər artıq arxada qalıb. Hazırda rəssamlarımız azad edilmiş, yenidən qurulan və qurulacaq Şuşanın gözəl mənzərələrini işləyirlər.

Fərəhli haldır ki, son illərdə Qarabağ mövzusunda çəkilən işlərin ümumi əhvali-ruhiyyəsi əsaslı surətdə dəyişilib. 2016-cı ilin aprel döyüş-lərində Azərbaycan ordusunun qazandığı qələbə rəssamları yeni yaradıcılıq axtarışlarına ruhlandırdı. Aprel döyüşlərindəki qələbə irəlidəki böyük zəfərlərin müjdəsi idi. Tezliklə arzular reallığa çevrildi və qəhrəman ordumuz torpaqlarımızı azad etdi. Bu, incəsənətdə Qarabağ mövzusunda böyük dönüşün əsası oldu. Rəssamlar zəfərdən ilham alaraq Qarabağ mövzusunda artıq yeni əhvali-ruhiyyəli, tamamilə fərqli əsərlər çəkməyə başladılar.

İdeya-bədii əsasında möhtəşəm zəfər yürüşü dayanan ilk əsərlərdən birini istedadlı rəssam Vüqar Əli yaratmışdır. "Qələbə" adlı bu tabloda Azərbaycan döyüşçüsü şahə qalxmış at belində təsvir edilib. Atın şahə qalxması, döyüşçümüzün onun belində məğrur bir tərzdə əyləşməsi Azərbaycan ordusunun igidliliyi, qələbə əzmini rəmzi formalarda əks etdirir. Tablonun kolorit həlli də müəyyən mənada rəmzi xarakter daşıyır. Vüqar Əli tabloda üç əsas rəngdən – qırmızı, göy və yaşıl rənglərdən istifadə etmişdir ki, bu da Azərbaycan bayrağının rənglərini əks etdirir. Əsər qələbə, sevinc, qəhrəmanlıq və nikbinliyi özündə birləşdirir.

Əşrəf Heybətovun "Qarabağda qələbə bayramı" adlı triptixi böyük zəfərə həsr edilib. Triptixdə Azərbaycan xalqının hədsiz sevinci, insanların çalıb-oynaması, yallı getməsi təsvir olunub. Çoxfiqurlu triptixin mərkəzi hissəsində əlində üçrəngli Azərbaycan bayrağı tutmuş qalib əsgərimiz təsvir edilmişdir. Triptixdəki lokal kompozisiyalar onun ətrafında qruplaşdırılmışdır. 2010-cu ildə "Xocalı" pannosunda ağrı və kədər hissləri ifadə etmiş Əşrəf Heybətov 2021-ci ildə yaratdığı triptixdə ümumxalq sevincinin əsl bayram mənzərəsini təcəssüm etdirmiş, böyük qayıdışı sənətin dili ilə ifadə etmiş, təsviri sənətdə Qarabağ mövzusunun yeni, tamamilə fərqli kontekstdə əks etdirmişdir. Bu dəst-xətt günü-gündən inkişaf edir. Rəssam özü əsər barədə belə deyir: "Bu rəsm əsərində hamımız üçün əziz olan Şuşanın bütün simvollarını təsvir etdim, onun azad edilməsi azərbaycanlıların yaralı ürəyinə məlhəm oldu. Pannonun mərkəzi hissəsində musiqimizin patriarxı Üzeyir bəy Hacıbəyli və Qarabağ xanının qızı Natəvan yer alır. Əlbəttə ki, Şuşanın "Xarı bülbül" əfsanəvi çiçəyini təsvir etməyə bilməzdim. Cəsarətli əsgərlərimiz sayəsində tarixi qələbə qazandıq və təbii ki, Qarabağı qoruyan xilaskar döyüşçüləri pannoda əks etdirmişəm. Deməliyəm ki, bütün kompozisiya alleqoriya, metafora və rəmzlərə əsaslanır, bütün bunlar mənə çox yaxındır" [5].

Əşrəf Heybətov böyük zəfərə həsr edilmiş, Qarabağın füsunkar təbiətini əks etdirən silsilə mənzərə əsərləri də işləyib. Yaşıl rəng çalarlarının üstün olduğu, lirik-romantik hisslərlə zəngin olan bu seriya Qarabağ mövzusunu tamamilə fərqli kontekstdə əks etdirir.

Rəngkarlıq və qrafika ilə yanaşı, Qarabağ mövzusu heykəltəraşlıqda da geniş təcəssüm olunub. 44 günlük zəfər döyüşləri bu mövzuya yeni ruh, qələbə sevinci daxil etmişdir. Qəhrəman şəhidlərimizin daş üzərində əbədi canlandırılmış obrazları bu mövzunun heykəltəraşlıqda əsas təcəssüm formasıdır.

Bakının mərkəzi küçələrindən birində Milli qəhrəman Albert Aqarunova heykəl qoyulmuşdur (2019; layihə rəhbəri Ömər Eldarov, müəlliflər Zamik Rzayev və Rahib Qarayev). Cəsur döyüşçü idarə etdiyi tankın üzərində dayanaraq mətin nəzərlərlə irəliyə baxarkən təsvir edilib. Abidə lakonik, ifadəli kompozisiya həlli ilə seçilir [4].

Maraqlıdır ki, gənc heykəltəraşlar ikinci Qarabağ müharibəsinin qəhrəmanlıq mövzusuna çox tez reaksiya veriblər. Bu, hər şeydən öncə yaradıcı gəncliyin yüksək vətənpərvərlik hisslərinin təzahürüdür. Gənc heykəltəraşlar qəhrəman şəhidlərimizin portretlərini ustalıqla daş üzərində canlandırmışlar. Onlardan Təbriz Soltanlının "General Polad Həşimov", Jalə Əliyevanın "Cəbrayıl Dövlətzadə", "Xudayar Yusifzadə" kimi büst-əsərlərini yada salmaq olar. İstedadlı gənc heykəltəraş Müstəqil Balayev 44 günlük müharibənin yeganə xanım şəhidi olan həkim Arəstə Baxşıyevanın büstünü yaratmışdır. Qəhrəman qızın igid və nəcib təbiəti onun simasında məharətlə əks olunmuşdur.

Jalə Əliyevanın yaradıcılığı da maraq doğurur. O, şəhid Xudayar Yusifzadənin büstünün müəllifidir. Məlum olduğu kimi, Xudayar gözəl səsə malik istedadlı bir gənc idi. O, "Vətən yaxşıdır" mahnısını daha gözəl ifa edirdi. Təsadüfi deyil ki, indi həmin mahnını çox zaman "Xudayar təsnifi" adlandırırlar. Jalə Əliyeva portretdə şəhidin vokal duyumunu ön plana çəkmiş, kompozisiyanı bunun üzərində qurmuşdur [3]. O, büstün başı üzərində rəmzi formada not xətləri və işarələrini təsvir etmişdir. Bu maraqlı kompozisiya hazırda Azərbaycan Dövlət Tarix muzeyində sərgilənir.

44 günlük Vətən müharibəsində əldə edilmiş möhtəşəm zəfər Azərbaycan təsviri sənətində Qarabağ mövzusunun kontekstini kökündən dəyişdi. Əvvəllərdə olduğu kimi, bu mövzu incəsənətdə yenə də aktualdır, bəlkə əvvəlkindən daha artıq aktualdır. Lakin bu gün kədər motivləri həmin mövzunu həmişəlik tərk edib. Qarabağ mövzusuna əvvəllər də xas olan mərdlik, qəhrəmanlıq motivləri zəfər, sevinc, böyük qayıdış, misli görülməmiş nəhəng tikinti-quruculuq motivləri ilə birləşərək tamamilə yeni məzmun kəsb etmişdir. Əminik ki, rəssamlarımız, xüsusən gənclər, bu kontekstdə hələ çox əsərlər yaradacaqlar.

Ədəbiyyat:

1. Azərbaycan və dünya incəsənətində soyqırım mövzusu. - B., 2016.
2. https://medeniyyet.az/page/news/34486/Soyqirim-Nazim-Memmedovun-gozu-ile.html?lang=az
3. https://oxu.az/culture/447021 (xudayar)
4. https://report.az/daxili-siyaset/bakida-albert-aqarunova-heykel-qoyuldu/
5. https://www.medeniyyet.az/page/news/55098/Xalq-ressami-Esref-Heybetov-Veten-muharibesinde-Qelebe-munasibetile-panno-yaradib.html

Kh. Zeynalov

The theme of Karabakh in the fine arts of Azerbaijan

Key words: Karabakh theme in fine arts, painting, sculpture, Ashraf Geybatov, Mustagil Balayev.

The article talks about works of fine art dedicated to the Karabakh theme. In the art of Azerbaijan, this theme arose in the late 80s - 90s of the last century. After the victorious war of 2020, a new period began in the development of this topic. The author notes that artists, especially representatives of the younger generation, warmly responded to the events that led to the liberation of the Karabakh land. Despite the fact that not so much time has passed since those days, artists and sculptors have created interesting works that capture the heroism of Azerbaijani soldiers and embodied the images of our martyrs. It is also important that the very context of the Karabakh issue has changed. If earlier motives of grief and sadness prevailed in it, as, for example, in a series of works dedicated to the Khojaly tragedy, today artists in their compositions reflect the joy of victory, show the return of refugees to their homes, a gigantic peaceful construction deployed in the liberated territories.

Х. Зейналов

Тема Карабаха в изобразительном искусстве Азербайджана

Ключевые слова: Карабахская тема в изобразительном искусстве, живопись, скульптура, Ашраф Гейбатов, Мустагил Балаев.

В статье говорится о произведениях изобразительного искусства, посвященных Карабахской теме. В искусстве Азербайджана эта тема возникла еще в конце 80-х – 90-х годах прошлого века. После победоносной войны 2020 года начался новый период в развитии этой темы. Автор отмечает, что художники, особенно представители молодого поколения, горячо откликнулись на события, которые привели к освобождению Карабахской земли. Несмотря на то, что с тех дней прошло еще не так уж много времени, художники и скульпторы создали интересные произведения, запечатлевшие героизм азербайджанских солдат, воплотили образы наших шахидов. Важно и то, что изменился сам контекст Карабахской тематики. Если раньше в ней преобладали мотивы

горя и печали, как например, в серии работ, посвященных Ходжалинской трагедии, то сегодня художники в композициях отражают радость победы, показывают возвращение беженцев в родные места, гигантское мирное строительство, развернутое на освобожденных территориях.

Ülkər Talıbzadə

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent,
Əməkdar mədəniyyət işçisi
AMEA Memarlıq və İncəsənət İnstitutu

UOT: 7. 071

QARABAĞIN MUSİQİ MƏDƏNİYYƏTİ AKADEMİK Z. SƏFƏROVANIN ELMİ YARADILCILIĞINDA

Xülasə. Məqalədə görkəmli Azərbaycan musiqişünası akademik Zemfira Səfərovanın Azərbaycanın əsrarəngiz gözəlliyə və zəngin tarixi-mədəni ənənələrə malik olan Qarabağ bölgəsinin musiqi mədəniyyətinə həsr edilmiş elmi tədqiqatları araşdırılıb. Qarabağın musiqi mədəniyyəti, ifaçıları, musiqi xadimləri, tarixi barədə əhatəli məlumat verilən bu elmi işlərdə dövrlərinin görkəmli sənətkarları olan Mir Möhsün Nəvvab və Cabbar Qaryağdıoğlunun portretləri, yaradıcılıqları təhlil edilib. Z.Səfərova tədqiqat əsnasında zəngin elmi və tarixi mənbələrə, arxiv materiallarına müraciət edib, Azərbaycan, eləcə də dünyanın tanınmış simalarının, alimlərinin, mədəniyyət xadimlərinin əsərlərini araşdırıb.

Açar sözlər: Qarabağ, musiqi mədəniyyəti, Mir Möhsün Nəvvab, “Vüzuhül-ərqam”, Cabbar Qaryağdıoğlu, Zemfira Səfərova.

2020-ci il qədim tarixə, zəngin milli-mənəvi dəyərlərə, adət-ənənələrə, ecazkar musiqi xəzinəsinə, ədəbiyyat incilərinə malik olan Azərbaycanın tarixində Zəfər ili kimi qalacaq. 30 il ərzində Azərbaycanın düşmən tapdaqları altında qalmış torpaqlarında, Qarabağda, erməni vandallarının yırtıcı əməlləri sayəsində əsrlər boyu xalqımızın qoruduğu neçə-neçə dini-memarlıq abidələri dağıdılıb, muzeylər və qoruqlar viran edilib, qiymətli eksponatlar, sənədlər məhv edilib, ya da ölkədən qanunsuz olaraq çıxarılıb, oğurlanıb. Bütün digər yaşayış məskənlərimiz kimi Şuşa şəhəri də ciddi dağıntılara məruz qalıb. 2020-ci ildə Azərbaycan xalqı, müzəffər ordumuz, qəhrəman əsgərlərimiz Ali Baş Komandan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsi dövründə torpaqlarımızı düşmən əsarətindən azad etdi. Bu tarixi Qələbə nəticəsində Azərbaycanın mənfur qonşular tərəfindən işğala məruz qalmış əraziləri qaytarıldı. 2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik olan Şuşa şəhəri işğaldan azad edildi. 2021-ci il 07 may tarixində Azərbaycan Respublikasının Prezident İlham Əliyevin xüsusi sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan olundu.

Qarabağın işğaldan azad edilmiş ərazilərində yenidənqurma işlərinin aparılması, düşmən təcavüzü nəticəsində ərazilərdə baş verən vandalizm nəticələrinin aradan qaldırılması məqsədilə, bu ərazilərin sosial-iqtisadi tərəqqisində daha çox nəticələr əldə etmək üçün, əhalinin yaşayış təminatı sisteminin daha səmərəli qurulması və insanların sosial-mədəni mühitinin təmin edilməsi üçün sosial infrastruktur və xidmətlərin təşkili mühüm əhəmiyyətə malikdir. Bu məqsədlə işğaldan azad edilən ərazilərdə Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı məkanların, ocaqların bərpa edilməsi də gündəmdə olan prioritet məsələlərdəndir. Hal-hazırda bu ərazilərdə yenidənqurma işləri aparılır, tarixi abidələr, muzeylər bərpa olunur. Sevindirici haldır ki, hazırda bir sıra mədəniyyət abidəsi artıq bərpa edilib. Azərbaycan xalqının professional vokal sənətinin böyük ustadı Bülbülün ev muzeyinin, dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Gövhər Ağa məscidinin bərpadan sonra açılış mərasimləri keçirilib. 30 ildən sonra ölkəmizin mədəniyyət paytaxtı Şuşanın məşhur Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı mayın 13-də qala-konsertlə işini başa vurdu. Festivalda Azərbaycanın görkəmli mədəniyyət xadimləri, ifaçıları, xanəndələri möhtəşəm konsert proqramı ilə çıxış etdilər. Xalqın sevincinin həddi-hüdudu yox idi.

Azərbaycanın mədəniyyət xadimləri tarixi qələbəni əliboş qarşılamayıblar. Qarabağ müharibəsinə həsr edilən əsərlər, Vətəni müdafiəyə çağıran, onu tərənnüm edən mahnılar bəstəkarlarımızın yaradıcılığının əsas mövzularından olmuşdur. Sənətkarlar ölkənin tarixində baş verən qanlı hadisələri öz yaradıcılıqlarında işıqlandıraraq müxtəlif janrlarda – opera, simfoniya, kantata, oratoriya, kvintet, kvartet, xalq çalğı alətləri orkestri, fortepiano və digər alətlər üçün əsərlər bəstələmişlər. Belə ki, simfonik janrda olan əsərlərdən C.Hacıyevin VII "Şəhidlər simfoniyası" (1990), A.Rzayevin "Bakı 90" simfoniyası (1990), A.Dadaşovun Şuşaya həsr edilmiş XI simfoniyası (1997), T.Bakıxanovun "Qarabağ harayı" simfoniyası (2001), N.Məmmədovun Xocalı hadisələrinə həsr edilmiş VII simfoniyası (1995), R.Mustafayevin "Bu qan yerdə qalmayacaq" vokal-simfonik poeması (1993), A.Əzimovun orkestr üçün "Qətl günü" (1994) və "Ağılar" (1994) simfonik əsərləri, S.İbrahimovanın tar və simli orkestr üçün "Sənin üçün darıxmışam, Şuşam" (1999), S.Fərəcovun "Matəm harayları" simfonik lövhəsi (2000) və s. əsərləri misal göstərmək olar.

V.Adıgözəlovun – "Qarabağ şikəstəsi" (1989) və "Qəm Karvanı" oratoriyaları (1999), R.Mustafayevin "Haqq səninlədir, Azərbaycan" kantatası (1992), M.Babayevin "Ağlama torpağım, ağlama" kantatası (1990), H.Xanməmmədovun səs və xalq çalğı alətləri üçün "Əlimdə sazım ağlar" poeması (Qarabağ şəhidlərinə həsr olunub, 1990), S.İbrahimovanın – "Vətən şəhidləri" kantatası (1990), A.Əlizadənin – xor və simfonik orkestr üçün "Ana torpaq" odası (1993), E.Dadaşovanın orqan və səs üçün "Xocalı

laylası" (1998) kimi irihəcmli vokal-simfonik əsərlərində bəstəkarlarımızın Qarabağda baş verən faciəvi hadisələrlə bağlı keçirdikləri hiss və həyəcanları öz əksini tapıb.

Azərbaycanın zəngin musiqi sənəti hər zaman erməni vandallarının təcavüzünə məruz qalıb. Əzəldən Azərbaycanın konservatoriyası adlandırılan Qarabağın qədim Şuşa şəhəri Mir Möhsün Nəvvab, Xarrat qulu, Sadıqcan, Bülbülcan, Cabbar Qaryağdıoğlu, Səid Şuşinski, Xan Şuşinski, Bülbül, Qurban Pirimov və b. kimi görkəmli musiqi xadimləri və ifaçılarını, Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Süleyman Ələsgərov, Vasif Adıgözəlov kimi məşhur bəstəkarlarımızı yetirib. Bu zəngin xəzinəmizin qorunması, gələcək nəsillərə çatdırılması mədəniyyət və elm xadimlərimizin qarşısında duran ən mühüm vəzifələrdəndir.

Azərbaycan musiqişünasları isə öz mövqelərini yazılarında, tədqiqatlarında bariz şəkildə göstəriblər. Onlar Qarabağın musiqi xadimləri, alimlərinin yaradıcı portretləri, musiqi folkloru və digər bu kimi mövzular üzərində işləyir, bölgənin musiqi tarixi və ənənələri, mədəniyyəti, abidələri ilə bağlı tədqiqatlar aparır, elmi məqalələr, kitablar nəşr etdiriblər.

Müasir musiqişünaslığın inkişafına dəyərli töhfələr verən, elmin mühüm və aktual problemlərinin tədqiqatçısı, görkəmli musiqişünas-alim, Əməkdar incəsənət xadimi, Əməkdar elm xadimi, akademik Zemfira Səfərovanın elmi yaradıcılığında Qarabağın musiqi mədəniyyəti mövzusu xüsusi yer tutur. Təsadüfi deyil ki, alim tarixi qələbəni "Şuşa Azərbaycan musiqisinin qalasıdır" (Bakı: Elm, 2021) adlı yeni kitabı ilə qarşıladı. Görkəmli alimin bu kitabı keçən il ilk dəfə olaraq rus dilində "Шуша цитадель азербайджанской музыки" (Bakı: Elm, 2020) adı ilə nəşr edilib. Çağdaş zəmanədə musiqimizin, mədəni irsimizin dünya miqyasında tanınmasına, yayılmasına böyük ehtiyac duyulduğu bir dövrdə xarici dillərdə, o cümlədən də rus dilində çıxan nəşrlərin əhəmiyyəti danılmazdır.

Vətəninin hər bir guşəsini dərin məhəbbətlə sevən, sənətini yüksək qiymətləndirən Zemfira Səfərova bütün elmi fəaliyyəti boyu uzun illər ermənilər tərəfindən işğal edilən Qarabağın, əsrarəngiz gözəlliyə malik olan və qədim mədəni ənənələri ilə məşhur olan Şuşanın taleyinə biganə qalmayıb, məqalələrində, çıxışlarında mənfur qonşuların bəd əməllərinə münasibət bildirib, həm bir vətənpərvər musiqişünas-alim, həm də bir vətəndaş kimi öz qəti mövqeyini sərgiləyib. Hələ 1993-cü ildə o, "Qarabağın musiqi mədəniyyəti" məqaləsi ilə mətbuatda çıxış edib, Azərbaycanın bu gözəl məkanının fenomenal istedada malik musiqi xadimləri, bəstəkarları, ifaçıları, xanəndələri, alimləri, musiqi həyatı barədə geniş məlumat verib. Bir müddət sonra Z. Səfərova ürək yanğısı ilə "Şuşa musiqimizin məbədidir" adlı məruzə ilə Şuşanın 250 illiyinə həsr edilmiş elmi konfransda çıxış edib. O həmin məruzənin geniş variantını Rusiyanın

"Muzıkalnaya Akademiya" [6. 207] jurnalında çap etdirib, öz ürək sözlərini bütün MDB məkanına yayıb. Bu mövzu ilə bağlı, alimin müşahidələri nəticəsində yaranan sərrast və çox doğru fikir alimlər tərəfindən xüsusi vurğulanıb. "Təəssüflər olsun ki, bizim torpaqların 20 faizi, Qarabağın bir sıra rayonları və musiqimizin beşiyi və konservatoriyası Şuşa artıq çox illər idi ki, erməni işğalçılarının, qəsbkarlarının tapdağı altında idi. Bəs necə olub ki, bu uzun illər ərzində bu yerlərdən bir nəfər də olsun məşhur erməni musiqiçisi yetişməyib? Çünki burada xalqın genetik kodunun əhəmiyyətli rolu şübhəsizdir." [1. 4] - yazan Z.Səfərova bir daha öz fikrini təsdiqləyib.

Alimin "Şuşa – Azərbaycanın musiqi qalasıdır" kitabı Qarabağın musiqi mədəniyyəti, musiqi tarixi haqqında zəngin məlumat verən yüksək dəyərə malik bir əsərdir. Kitabda Qarabağın musiqi mədəniyyəti, ifaçıları, musiqi xadimləri, tarixi barədə əhatəli məlumat verilib, dövrlərinin görkəmli sənətkarları olan Mir Möhsün Nəvvab və Cabbar Qaryağdıoğlunun portretləri, yaradıcılıqları təhlil edilib. Tədqiqatın diqqəti cəlb edən önəmli xüsusiyyətlərindən biri də odur ki, Z.Səfərova iş əsnasında zəngin elmi və tarixi mənbələrə, arxiv materiallarına müraciət edib, Azərbaycan, eləcə də dünyanın tanınmış simalarının, alimlərinin, mədəniyyət xadimlərinin əsərlərini araşdırıb. Onların Qarabağın, Şuşanın musiqi mədəniyyəti ilə, musiqi xadimləri ilə bağlı olan fikirlərini təqdim edib. Kitabda Xalq şairi Səməd Vurğunun, rus şairi Sergey Yeseninin, görkəmli rus musiqişünası V.Vinoqradovun, fransız yazarı Aleksandr Dümanın, məşhur rus səyyahı və etnoqrafı İ.Yevlaxovun və digər məşhurların xatirə və tədqiqatlarından maraqlı məqamlar nəzərə çatdırılır.

"Ön söz" adlandırılan giriş hissədə Azərbaycanın musiqi tarixinə qısa, eyni zamanda əhatəli ekskurs verilib. Burada orta əsr musiqi elminin görkəmli nümayəndələri S.Urməvi və Ə.Marağai haqda, XIX-XX əsrin əvvəllərində Azərbaycanın musiqi həyatı haqda, xanəndə sənətinin, muğamın inkişafında önəmli rol oynayan ifaçıların, xanəndələrin yaradıcılığı haqda, Şuşada, Şamaxıda, Bakıda yaranan musiqi məclisləri haqda zəngin bilgilər yer alıb.

Monoqrafiya iki hissədən ibarətdir. Birinci hissə XIX əsrin görkəmli ensiklopedist alimi Mir Möhsün Nəvvaba və onun "Vüzuhül ərqam" risaləsinə həsr edilib. Bu hissədə Z.Səfərova alim, şair, rəssam və musiqi-şünas, ensiklopedik biliyə malik olan Nəvvabın qısa, lakonik, lakin çox iti və hərtərəfli portretini yaradıb. Burada 1833-cü ildə Şuşada Hacı Seyid Əhmədin ailəsində dünyaya göz açan Nəvvabın yaşadığı dövr, mühit, onun həyatı, maraq dairəsi, çoxşaxəli fəaliyyəti və yaradıcılığı müfəssəl nəzərdən keçirilib. Z.Səfərova Nəvvabın yaratdığı "Məclisi fəramuşan" və 1880-ci illərdə Hacı Hüsü ilə birgə yaratdığı "Musiqiçilər məclisi"nin fəaliyyətindən, Azərbaycan ədəbiyyatı və musiqisi tarixində oynadığı roldan bəhs edir, yüksək dəyərləndirir. Məşhur alim kitabxana və qiraətxanaların, məktəblərin

təsisçisi, gözəl rəssam, astronomiya, riyaziyyat, kimya, psixologiya, etikaya dair araşdırmaların müəllifi kimi təqdim edilib. Onun musiqi elmi və ifaçılığı sahəsindəki fəaliyyəti, müəllimliyi xüsusi qələmə alınıb, məşhur tələbələrindən Məşədi Cəmil Əmirovun, xanəndə İslam Abdullayevin, Seyid Şuşinskinin və digərlərinin adları çəkilib.

Kitabda daha sonra M.M.Nəvvabın musiqiyə həsr edilən məşhur "Vüzuhül ərqam" ("Rəqəmlərin izahı") risaləsi haqda hissə yer alıb. "Vüzuhül ərqam" XIX əsrdə əski əlifba ilə Azərbaycan dilində yazılan musiqiyə dair yeganə risalədir. Z.Səfərova Azərbaycan musiqişünaslığında mənbəşünaslığın əsasını qoyaraq, ilk dəfə olaraq bu risalənin ərəb əlifbasında olan mətnini müasir qrafikaya transfoneliterasiya edib, ön söz və elmi şərhlərlə 1989-cu ildə nəşr etdirib. Qeyd etmək lazımdır ki, Z.Səfərovanın görkəmli alimin yaradıcılığına həsr etdiyi kitab hələ 1983-cü ildə işıq üzü görüb ki, bu da XIX əsr mütəfəkkiri haqqında meydana çıxan ilk tədqiqat idi. Musiqişünas "Vüzuhil ərqam" risaləsini təhlil edərək göstərir ki, bu risalə orta əsr risalələrindən fərqlənir və daha çox təcrübi məqsədə qulluq edir. Lakin buna baxmayaraq, risalədə muğamlar və onların şöbələrinə həsr edilən nəzəri hissələr də var ki, burada muğamların emosional təsiri, musiqi və mətn, musiqi və təbabət kimi estetik və nəzəri problemlər araşdırılır. "Vüzuhül-ərqam" əsərində qaldırılan məsələlər maraqlı və qiymətlidir. Müəllif bu məsələləri bəzən dini haşiyəyə alır. Bu dini haşiyə isə M.M.Nəvvaba əsas niyyətinə, məqsədinə nail olmaq üçün lazım olan bir vasitə idi. Onun əsas məqsədi isə özünün qeyd etdiyi kimi, millətinin, xalqının savadlanması və musiqi elminin inkişafı idi", [3. 24] – yazan Z.Səfərova Mir Möhsün Nəvvabın "Vüzuhül-ərqam" risaləsini musiqi tariximizdə yalnız Azərbaycanın deyil, ümumən Yaxın və Orta Şərq xalqlarının muğam sənətinin və ifaçılığının vacib məsələlərini araşdıran əsər kimi dəyərləndirib. Risalənin böyük hissəsi muğamlar və onların quruluşuna həsr edilib. Tədqiqatçı bunlarla bağlı verilən çoxsaylı cədvəlləri də diqqətdən kənarda qoymayıb, onların açımını təqdim edib. Maraqlıdır ki, cədvəlləri təcrübədə işlətmək, onlardan birini səsləndirmək məqsədi ilə Zemfira Səfərova görkəmli tarzən Bəhram Mansurova müraciət etmişdi. B.Mansurov müəyyən məşqlərdən sonra yaddan çıxmış, unudulmuş muğam parçalarını bərpa edərək, bu cədvəldən bir hissəni səsləndirmişdi. İlk dəfə Mir Möhsün Nəvvabın cədvəlindən alınmış muğam nümunəsi Səmərqənddə keçirilən II Beynəlxalq musiqişünaslıq simpoziumunda Z.Səfərovanın "Mir Möhsün Nəvvabın "Vüzuhül-ərqam" risaləsi" məruzəsinə illüstrasiya kimi, daha sonra isə Bakıda M.M.Nəvvabın anadan olmasının 150 illiyinə həsr edilmiş elmi sessiya və konfranslarda səslənmişdi. Önəmlidir ki, alim kitabda "Vüzuhül-ərqam" risaləsinin ərəb əlifbası ilə Azərbaycan dilində olan faksimilesini, onun latın qrafikasında transfoneliterasiyasını, şərhlər və

risalədə olan qədim musiqi terminlərinin lüğətini oxucuların istifadəsinə təqdim edib.

Kitabın ikinci hissəsi Azərbaycan muğamının, folklorunun mahir bilicisi, ustad xanəndə, "ölməz ənənələr daşıyıcısı" Cabbar Qaryağdıoğlu haqqındadır. Bu hissədə Zemfira Səfərova "Qarabağ səmasında bərq vuran ulduz"a bənzətdiyi böyük ustadın həyat və çoxşaxəli yaradıcılığını, Azərbaycan musiqisinə gətirdiyi yenilikləri Azərbaycan musiqisinin, muğam sənətinin təşəkkülünün geniş tarixi icmalı fonunda araşdırır. Cabbar Qaryağdıoğlunun şəxsiyyətini açan alim, onun haqqında dəyərli fikir söyləyən, onun ecazkar sənətini, fenomenal səsini, möhtəşəm ifasını yüksək tutan Azərbaycan və xarici musiqi xadimlərinin fikirlərinə geniş yer verib. Yeni nəşrdə sənətkarın Sergey Yesenin, Fyodor Şalyapin, Reynqold Qlierlə olan görüşlərindən və yaradıcılıq bağlarından bəhs edən məqamlar, xarici qastrol səfərləri haqda məlumatlar da xüsusi maraq doğurur. Müəllif S.Yeseninin C.Qaryağdıoğlunun ifasından aldığı təəssürat altında bədahətən söylədiyi şeirlə, ustad sənətkarı "Şərq musiqisinin peyğəmbəri" adlandırması ilə bağlı xatirəni də oxucuların diqqətinə yetirir. Beləliklə, Z.Səfərova Azərbaycan xanəndəsinin təkcə Azərbaycanda deyil, Vətəndən uzaqlarda da şöhrət qazanması, tanınmasını sərgiləyən önəmli faktları kitaba daxil edir. Tədqiqatın dəyərli məqamlarından biri də odur ki, Z.Səfərova ilk dəfə olaraq C.Qaryağdıoğlunun "Azərbaycan musiqisinin keçmişi ilə bağlı xatirələrim" əlyazmasını incələyib, oxucuların müzakirəsinə təqdim edir. O, əsərə "istedadlı folklorşünasın musiqimiz haqqında qiymətli, sanballı tədqiqat əsəri" kimi yüksək dəyər verir. Maraqlıdır ki, bu hissədə Ərtoğrul Cavidin musiqişünaslıq fəaliyyətindən də məlumat verilir. Belə ki, Z.Səfərova maraqlı arxiv materiallarını araşdırıb, Ərtoğrulun Hüseyn Cavidin ev-muzeyinin Əsas fondunda qorunan C.Qaryağdıoğlunun xatirələrinə yazdığı rəyi təhlil edir.

Əsərdə Cabbar Qaryağdıoğlu fenomeni "böyük xanəndə və muğam ustası" kimi, musiqi folklorunun mahir bilicisi kimi, "qayğıkeş və istedadlı müəllim" kimi araşdırılır. Önəmlidir ki, Z.Səfərova ustadın muğam ifaçılığına, xanəndə sənətinə gətirdiyi yenilikləri tədqiq və təhlil edir, onu novator sənətkar kimi yüksək qiymətləndirir. Belə ki, xanəndənin muğam ifaçılığına bəxş etdiyi yeniliklərdən biri kimi, onun özündən əvvəlki ifaçılardan fərqli olaraq, muğamı Azərbaycan dilində olan qəzəllər üstündə – "Nizami, Füzuli, Zakir, Vaqif, Seyid Əzim Şirvani, Natəvanın şeirləri"nə oxumasını göstərir. Tədqiqatın təcrübi əhəmiyyət daşıyan dəyərli cəhətlərindən biri də odur ki, bura muğam ustadının oxuduğu 50 mahnının not yazıları da daxil edilib. Qeyd etmək lazımdır ki, monoqrafiyada "Cabbar əminin" özünün bəstələdiyi, kiçik qızı Şəhla xanım Kürçaylıya həsr etdiyi 3 uşaq mahnısı ilk dəfə olaraq yer alıb. Musiqişünas bu mahnıları ustadın qızının canlı ifasından nota köçürüb. Z.Səfərova "böyük muğam ustası,

mahir xanəndə, şair və bəstəkar və həm də Azərbaycanın xalq musiqisinin canlı ensiklopediyası" Cabbar Qaryağdıoğlunun həyat və yaradıcılığını zəngin tarixi sənədlər, not materialları, xatirələr əsasında tədqiq edib. Monoqrafiyada verilən çoxsaylı vizual sənədlər və orijinal fotolar onu əsaslı şəkildə dolğunlaşdırır, zənginləşdirirlər. Musiqişünas apardığı tədqiqat əsnasında belə bir fikrə gəlib ki, fenomenal səsə malik olan Qarabağ əsilli Cabbar Qaryağdıoğlunun yaradıcılığı ilə Azərbaycan muğam ifaçılığı tarixində yeni dövr təşəkkül tapıb.

Qarabağın musiqi mədəniyyətindən, Şuşanın görkəmli musiqi xadimlərindən - xanəndələrindən, ifaçılarından, bəstəkarlarından, alimlərindən, musiqi həyatından, elmindən zəngin məlumat verən bu monoqrafiyanın bir çox hissələri Z.Səfərovanın Qarabağa, Şuşaya olan səfərləri zamanı yazılıb. Bu səfərlərdən aldığı təəssüratları alim "Ardı yaşanılır" kitabında qələmə alıb. Əsrarəngiz təbiətə malik olan yerləri qarış-qarış gəzən Zemfira xanım M.M.Nəvvaba həsr edilən əsər üzərindəki işini belə xatırlayır: "Hələ Şuşada olarkən, mən o vaxt Mir Möhsün Nəvvab haqqında kitab yazırdım, biz Günellə tez-tez Nəvvab ilə bağlı yerlərə gedirdik, gah Cıdır düzündəki kahanı seyr edirdik, gah onun yaşadığı evin yanından keçirdik, gah da Cıdır düzünün aşağısında olan qəbrinə gül qoyurduq". [2. 49] O yerlərin təbiəti, ab-havası alimin elmi işində ona bir növ mənəvi dəstək olurdu. Bütün Azərbaycan xalqı kimi, elm və mədəniyyət xadimləri kimi Z.Səfərova da Qarabağ torpaqlarının, gözəl Şuşanın azad olmasını səbirsizliklə gözləyir, qələbəyə inanırdı. Təsadüfi deyil ki, tarixi Qələbə müjdəsini eşidən alim Şuşaya həsr edilən bu qiymətli tədqiqatının sonunda yazır:

" Nəhayət ki, ədalət bərpa olundu. Qarabağ və Azərbaycanın musiqi qalası – Şuşa Azərbaycana qayıtdı. Prezidentimizin fərmanı ilə Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan olundu". [1. 218] Onun kitabının son sətirləri özəl hisslərlə aşılanıb. Bu sətirlərdə Zəfər ruhu duyulur, xalqın mənfur düşmən üzərində çaldığı Böyük Qələbənin sevinci öz əksini tapıb.

Görkəmli musiqişünas-alimin, akademik Zemfira Səfərovanın yüksək vətənpərvərlik hissi ilə aşılanmış tədqiqatları Azərbaycanın musiqi xəzinəsinin beşiyi olan Qarabağ musiqi mədəniyyətinin, tarixinin, zəngin ənənələrinin, nadir incilərinin, musiqi xadimlərinin adlarının əbədiləşdirilməsi, gələcək nəsillərə çatdırılması, dünyada təbliğ edilməsi və bədnam qonşular tərəfindən mənimsənilməsi cəhdlərinin qarşısının alınması yolunda həyata keçirilən mühüm addım kimi dəyərlidir. Alimin səlis elmi üslubda, oxunaqlı və rəvan dillə yazdığı tədqiqatları Qarabağ musiqisi, musiqi ifaçıları, alimləri və ümumiyyətlə mədəniyyətinin öyrənilməsində yeni üfüqlər açır, gələcək elmi araşdırmalara təkan verir.

Ədəbiyyat:

1. Səfərova Z. Şuşa – Azərbaycanın musiqi qalasıdır. – Bakı: Elm, 2021, 220 s.
2. Səfərova Z. Ardı yaşanılır. – Bakı: Nurlan, 2000, 152 s.
3. Səfərova Z. Mir Möhsün Nəvvab və onun "Vüzuhül-ərqam" risaləsi // Nəvvab M.M. Vüzuhül-ərqam. – Bakı: Elm, 1988, 84 s.
4. Сафарова З. Пророк восточной музыки. – Баку: Şərq-Qərb, 2011, 216 с.
5. Сафарова З. Шуша цитадель азербайджанской музыки. - Баку: Элм, 2020, 236 с.
6. Сафарова З. Шуша – храм нашей музыки // Музыкальная академия . – 2002. № 1, с. 207-212.

U. Talibzade

Musical culture of Karabakh in the scientific work of academician Z. Safarova

Key words: Karabakh, musical culture, Mir Mohsun Navvab, "Vuzuh-ul-Argam" ('Explanation of the numbers'), Jabbar Qaryagdioglu, Zemfira Safarova.

The article examines research of prominent Azerbaijani musicologist, academician Zemfira Safarova, dedicated to the musical culture of the Karabakh region of Azerbaijan, a land of extraordinary beauty and rich historical and cultural traditions. Her research provides comprehensive information about musical culture, performe.rs, music personalities and history of Karabakh and explores portraits and works of Mir Mohsun Navvab and Jabbar Qaryagdioglu, prominent artists of their time. In her explorations, Safarova appealed to rich academic and historical sources, archive materials, studied the works of renowned personalities, researchers and cultural figures of Azerbaijan and the world.

У. Талыбзаде

Музыкальная культура Карабаха в научном творчестве академика З.Сафаровой

Ключевые слова: Карабах, музыкальная культура, Мир Мохсун Навваб, «Визухиль-аргам», Джаббар Гаръягдыоглу, Земфира Сафарова.

Статья исследует научное творчество известного азербайджанского музыковеда, академика Земфиры Сафаровой, посвященное изучению музыкальной культуры Карабаха – региона Азербайджана, обладающего необычайной красотой и богатыми историко-культурными традициями. В этих научных трудах дается исчерпывающая информация о музыкальной культуре, исполнителях, музыкальных деятелях, истории Карабаха, исследуются портреты и творчество выдающихся деятелей своего времени Мир Мохсуна Навваба и Джаббара Гаръягдыоглу. В своих исследованиях З.Сафарова обращается к ряду научных и исторических источников, архивным материалам, а также произведениям известных азербайджанских и мировых личностей, ученых и деятелей культуры.

İSSN 2311-5777
Volume 21 №1 2021 192-203

Polina Dessiatnitchenko

Assistant Professor of Music
Waseda University, Tokyo

UDC: 78.08

A NATION OF LOVERS: MUĞAM, GARABAGH, AND NATIONAL IDENTITIES IN AZERBAIJAN

Introduction: The topic of love (*eşq*) and the intimate language about separation and yearning found in the sung poetry of *muğam* has been instrumental for the creation of nationalism and the emergence of national subjectivities. In this article, I explore how a *muğam* performance turns its participants into pining Majnuns – lovers imagining the beloved Garabagh lands. Similar to Geoffrey White (1999), who looks into specific discursive practices that transform political meanings about nationalism into private experiences, I explain how meanings linked to *eşq* become the pivot for national affect in *muğam*: Garabagh *muğam* set in mother's lullabies; descriptions of Garabagh's heavenly beauty as "God's miracle" (*Allahın möcüzəsi*); private messages uncovered in *qəzəl* lines about *vətən*; the theme of loss; and the efficacy of the particular timbre belonging to the Garabagh voice. I inquire into distinct themes that all together comprise the totality of emotional discourses about the beloved nation and its native melodies. Furthermore, I discuss the experience of *muğam* and specifically the timbre of *Garabagh səsi* as a possibility to address the trauma of the Nagorno-Garabagh conflict.

Keywords: Azerbaijan, Karabakh, mugam, love, music, nationalism, voice, emotion

A Nation of Lovers

The long-lived understandings of the Azerbaijani self are deeply rooted in cultural concepts about love. Martin Stokes' observation (2010) that love has become a national issue in Turkey and defines Turkishness holds true for its brotherly neighbor where ruminations on love also saturate art, literature, poetry, music, and movies. The political turmoil that made Garabagh into an unreachable beloved as it was occupied by Armenia (1994-2020) provides yet another opportunity to wear the pining lover's shoes. In fact, there is a strong belief that every person from Garabagh is like a Majnun, a true lover of the homeland and its beautiful nature, expressed in the ambient phrase I heard "*Garabaghda hər daşın altında bir Məcnun yatır*" (In Garabagh, under every stone, one can find a sleeping Majnun). In an interview, the famous

xanəndə from Garabagh, Mansum Ibrahimov, defined himself in the same terms:

> I am from Garabagh, I was born in 1960 in Imamgulubeyli village of Aghdam region. The air around us smells like *muğam*. I have heard *muğam* since I was a child and, of course, I started singing at an early age. I remember when I was a child, I would run and hide in the forest, and the forests there are beautiful, and I would read there alone for hours…. My destiny was such that I became Majnun in real life too. In other words, the character of Majnun ruled over me to such an extent that I was struck by everything, that is, my homeland, *muğam*, creativity, art, teaching, just like Majnun. Majnun opened my eyes to the world again, changed my perception of reality. Majnun may be crazy, but he is not ill, he is just ready to die for his beloved. When someone calls me Majnun, I accept it as a blessing of fate.[1]

Not only those from Garabagh are fortunate enough to embody the character of Majnun who yearns for the cherished lands. Many others who feel as the infatuated Majnun find resonance precisely in the sounds of *muğam*. While pondering *muğam*'s elaborate and vivid expositions on the theme of *eşq*, and appreciating its significance as music of Garabagh, participants in a *muğam* event form a collectivity of nation lovers – a role that is as natural as it is cultural for them. Performances of *muğam*, then, whether experienced in a concert hall or at home in front of television, unite Azerbaijanis and orient them as an "imagined community" (Anderson 1991) towards the beloved national ideal. This attachment, or in Benedict Anderson's words "love for the nation" (Anderson 1991: 143), is intensified through the bonding process, strongest at those instances when intentionality of all is fixed on the beloved nation. The nation's status as an ideal entity is, in turn, further strengthened as a result of that bonding. Sara Ahmed relies on the writings of Sigmund Freud to explore how groups are created when "individuals … have substituted one and the same object for their ego ideal and have consequently identified themselves with one another in their ego" (Freud 1922: 80, quoted in Ahmed 2004: 130). Love is a cohesive agent in group formation because it provides a shared orientation towards an object, in this case this object is the dear land. These affects are lived and experienced most intensely in *muğam.*

[1] *Kaspi,* "Elə həyatda da Məcnun oldum," interview with Mansum Ibrahimov by Nelli Atashgah. Link accessed on August 22, 2019. https://kaspi.az/az/ele-heyatda-da-mecnun-oldum-msahibe

It is palpable how particularly the meanings about *eşq* rooted in Islamic thought help to create the Azerbaijani nation into what Anthony Smith calls a "sacred communion" (2003: 18). When *muğam* is experienced, a rich repertoire of symbols from myths and metaphors are interpreted in such a way that they become building blocks for national subjectivities. For example, *eşq* as affect conveyed in *muğam* is directed towards the imagined national ideal. Its meanings rooted in Islam are invoked to make sense of one's experience. *Qəzəl* texts about *eşq* come to signify love for *vətən*, and they offer a rich ready-made vocabulary about separation and yearning for the ideal, that is used to articulate nationalist experiences of Azerbaijanis today. Even older poetry by Fuzuli, devoid of nationalist sentiment, is deciphered in a way that links *vətən* as one's ontological origin or heaven to the modern geographical national Azerbaijani entity.

To exemplify, one famous line from a *qəzəl* by Fuzuli is most often interpreted to be about the motherland as a geographical region, and in case of Azerbaijan, it is particularly Garabagh that is evoked by the lines of this poetry:

Edəməm tərk Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!

Fuzuli, I cannot abandon the road leading to the beloved,
It is my homeland, it is my homeland, it is my homeland, my homeland!

Despite the specific meanings about Garabagh that this *qəzəl* signifies for many Azerbaijanis today, the original *təsəvvüf* (mystical branch of Islam) interpretation is much broader. As renowned *tar* player Valeh Rahimov explained to me an interview, there are three meanings of the word *vətən*. The first is the physical place where one is born, for example, Garabagh in Azerbaijan. The second meaning is the place of one's beloved who is a human. Wherever one's beloved is, this becomes one's homeland. However, the third and most accurate meaning of *vətən* is the reality of God – homeland is the Divine homeland, that is, heaven. This is where we all belong, regardless of whether we are Muslims, Christians, Jews, Buddhists (Valeh Rahimov, interview, 12 June 2014). What is interesting to point out is that today, many Azerbaijanis choose to interpret these lines as signifying Garabagh as homeland, an occurence that shows how *muğam* today is crucial for the emerging national identities.

One favorite Garabagh topic is its enigma: the beautiful nature, magical voices, and artistic output that is matchless in greatness. And the usual conclusion – that follows musings about whether the secret lies in its

water, soil, cultural traditions, unique ecology and genetics – is simply that Garabagh is "God's miracle" (*Allahın möcüzəsi*) because there is no single reason that explains its magnificence. The depictions of Garabagh carry an aura of mysticism and mystery, and Azerbaijanis themselves note that the charm of this land is heavenly. This is the abode of the Beloved, a place of immense beauty (*gözəllik*), purity (*saflıq*), and mysterious powers (*sirli güc*). *Muğam* is the fruit of the stunning Garabagh lands, and this origin only intensifies the perceived magical aura of the region. In my interview with Samir Jalilov who used to sing in the Garabagh Bulbuleri ensemble, his love for Garabagh was most evident in the affective way he talked about the beauty of nature, and he used *qəzəl* metaphors of nightingale and garden, as well as the theme of tears, to express his *eşq* for the lost lands:

> The sound of water is like extraordinary music there. In a garden there, you will hear birds singing, and as a result you will become a philosopher. I've been to many places, but I haven't gotten this feeling anywhere. When by coincidence I am somewhere with similar scenery, I try to find those voices of Garabagh. For example, I was in Astara and I was trying to listen to the water flowing. The sound of water is present, yes, but it is mixed with other sounds, it is not pure. But in Garabagh the water is so pure it is like a person's tears. The sound is also very pure. This is where music is born, it is the crib of music, it was formed there. From the water, from the sound of nightingales, from the beauty of gardens. So I cannot think of *muğam* without Garabagh (Samir Jalilov, interview, 31 July 2019).

On the official website of the First Lady, one can find consonant descriptions of Azerbaijan's western lands:

> It is as if the mountains rising to the skies surround a very beautiful plateau here and create an open hall that is unmatched in its acoustics. It is impossible to imagine a more beautiful place to play music…. The shrill voices of the children, who had just mastered the alphabet of *muğam* singing, fly over Shusha from different passes and peaks every day, echoing on steep rocks and ravines, and unite in a single stream of singing.[1]

[1]*Mehriban Aliyeva*, "Qarabağ Muğam Məktəbi." Link accessed on September 12, 2019. https://mehriban-aliyeva.az/news/node/843030

What can be more affective than the wonders of beauty, its powers incomprehensible and only described as a miracle of God? This discourse places the nation as the ideal *eşq* object, elevated and venerated, with *muğam* as the perfect medium to express national sentiment for the Beloved and build subjectivities based on this feeling of awe.

The Garabagh Voice

Listening to *muğam* melodies swell and imagining the breathtaking landscapes of Garabagh, Azerbaijanis feel shivers down the spine, tears form without warning, and a profound longing fills their hearts with a silent scream. Perhaps the outlined discourses that reign in the social realm turn into private and personal feelings in these uncanny, unexplainable instances? The experiential register that is most conducive to moving *muğam* texts into an affective flux is the *zil* voice and its timbre. Indeed, the undulating sierras of Garabagh are linked to a particular kind of *xanəndə* singing – one that has a wide range, brilliant virtuosity, and especially beautiful expressivity in the high register (*zil*). In the post-Soviet context, the "Garabagh voice" not only inspires with its beauty; it also brings to the surface memories of war and chaos, and ultimately, functions to address the trauma of the Nagorno-Garabagh conflict. With its piercing and tense resonance, this sound becomes the embodiment of pain, conveying trauma in all its liminality. Moreover, with its high melismatic lines as contours of the Garabagh peaks, this sound becomes the worshiped lands itself.

There are upheld beliefs that those born in Garabagh are genetically blessed with powerful *zil* voices, cultivated through generations by the surrounding highlands. *Muğam* singers from Garabagh all link the quality of their voice to the lands where they are from, saying that it is the land which gave them their voice, in effect stressing that the voice belongs to the land. This voice is not only specific with its high register, but also the timbre is peculiar, described with the words *şirin* (sweet), *qaltanlı* (thick), and *mürəkkəb* (complex). This is the voice of masterful *zəngulə* – ornaments in the high register often sung between words, on the last syllable of a word, or between lines of poetry. These para-discursive embellishments are often compared to sounds of birds, and call forth remarks about the opulence of birds as an indicator of Garabagh's beauty and nature. The main message is that Garabagh is the homeland of beautiful sounds of birds and human voices, as Nezaket Teymurova explained to me in an interview:

> I always say that the land (*torpaq*) is important for bringing up a person. Seyyid Shushinsky was born there. All the prominent artists come from the lands of

> Garabagh. We are a drop from the land, we were created from it and we should be thankful to that land. It is the land that gave us the voice (*səs*), intelligence (*ziyalıq*), and talent (*istədad*)….There is something there in that land (Nezaket Teymurova, interview, 29 May 2019).

The Garabagh voice is also used to reach wider international audiences and raise awareness about the political conflict in global media. After all, the particularity of the Garabagh *səsi* due to its *zil* range, timbre, and technique also defines Azerbaijani *muğam*, separating it from vicinal modal performance styles, such as the more meditative and less cathartic singing of Iranian *radif*.[1]

For local audiences, the Garabagh voice is extremely affective. While it highlights and contributes to the nationalistic discourses above, its experience is, as I argue, moves beyond the collective nationalist perceptions and identities. Roland Barthes writes about the "grain" of the voice as that indeterminate meaning: "The 'grain' is that: the materiality of the body speaking its mother tongue; perhaps the letter, almost certainly signifiance" (Barthes 1977: 182). The experience which it bears is one of possibility, because the affect it engenders surpasses interpretation. "There is something there…," "…it is unexplainable, maybe it is mystical…" are phrases that Azerbaijanis use to describe the Garabagh voice. There is a surplus of meaning that cannot be captured and this points to the affective intensity of experience.

Below I examine how the Garabagh voice escapes the limits of text, becoming affective in two ways: voice as experience of pain and voice as experience of land. The case study I use for this analysis is the well-known *bayatı-şiraz* performance by Tajir Shahmalioglu, who sang in the "Nightingales of Garabagh," a band of talented young boys from Garabagh. His singing has become the soundtrack for videos, conversations, thoughts and imaginings of Garabagh by Azerbaijanis today, both in public and private settings.

The Nightingales of Garabagh

The "Nightingales of Garabagh" was comprised of two ensembles, one led by Murad Rzayev and another by Rafiq Rustamov, formed in the 1970s in Garabagh. The band became an international sensation, and many of the young nightingales are distinguished *xanəndə* singers today, such as Aygun

[1] Pronunciation, on the other hand, and the delivery of meanings, are more linked to other modal systems (e.g. singers from Absheron attest that both pronunciation and *əruz*, are underscored in Iranian classical traditions). In other words, the voice is a musical element that makes *muğam* national and unique.

Bayramova and Nezaket Teymurova, while there are also others, like Samir Jalilov, whom the war turned into refugees struggling to get by.

One of the main musical legacies of the "Nightingales of Garabagh" is the famous *bayatı-şiraz* excerpt from 1977 sung by Tajir Shahmalioglu from Agdam, at the time twelve years old. In the piece, known simply as "*Bayatı şiraz*" after its *muğam,* a single musical drone provides background accompaniment to the young voice soaring eagle-high and singing poetic lines. The two-minute performance shatters time and distance, immediately transporting Azerbaijanis into the beautiful lost landscapes, envisioned as eternal abodes of heavenly beauty. It is always listened to with tears and most recall the Garabagh lands in front of their eyes; those who went through personal experiences of war, see traumatic memories of the events.

The melodic path that Tajir's voice follows is an imitation of the instrumental version of the *muğam*.[1] *Bayatı şiraz* is a *muğam* mode similar in structure to the Western minor harmonic scale. It is redolent with themes of sadness, separation, and leaving one's home behind, which is why it is coined "*ərus*" (bride) *muğam,* symbolizing the nostalgic bride who will no longer return to her natal house. The image of the bride in Azerbaijani culture is one of sorrow, and traditionally, brides are discouraged from smiling, laughing, and dancing too much on their wedding celebration. This very association coincides perfectly with the loss of home in the situation with Garabagh. Tajir's young voice also symbolizes childhood, and with it, the purity, innocence, and happiness of days long gone. These powerful cultural notions combine in the performance and are further enhanced by the chosen sung text. The poem by Isa Ismayilzade belongs to the syllabic genre *qoşma* (13 syllables per line):

Sən mənim köksümdə çarpan ürəksən,
Mən sənin köksündə kiçik bir zərrə.
Mənə qanad verən odlu bir ürəksən,
Adına gözünə vətən deyirəm.

You are the beating heart in my chest,
I am a small part in your chest.
You are the burning heart that has given me wings,
Your name is my motherland.

As the endeared anthem of the Garabagh conflict, Tajir's performance has had unwavering popularity for decades. In times of crisis escalation, it is played with more frequency on TV and radio, and the familiar video clip fea-

[1] This vocal version was previously performed by the legendary Islam Rzayev

tures images of the Garabagh lands, projected one after another, with names of vanished regions, occupied from 1994 until 2020. The original has been remade many times by new generation, but Tajir's version remains the cherished model. One recent recording was done by the son of Teyyar Bayramov, a famous *xanəndə* from Garabagh. In this version, the original is expanded with another poem by Abbas Səhət "*Vətən*":

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.

Vətənin sevməyən insan olmaz,
Olsa da ol şəxsdə vicdan olmaz!

The beloved of my heart,
Is my motherland, my motherland, my motherland.

There cannot be one who doesn't love the motherland,
Even if there is, there is no conscience in that person!

A video clip of this new adaptation featured on a TV show "*Ata Ocağı*" ("Father's Hearth") with famous Azerbaijani actors and actresses went viral on social media in April 2019. The stars are shown seated together on a wide carpet. As the song unfolds, they listen quietly, and one sees a series of shots that zoom in on their profound contemplative faces. They begin to cry, one by one, following the climax of Tajir's singing towards the ending.

In my interviews throughout the year of 2019 with men and women who were members of the Garabagh Bulbuleri, there was a shared lament: the voices, lands, childhood are all in the beyond. Taking into account the massive expenditure on *muğam* with projects, publications, concerts, it is perplexing why recreation of such a band is not sponsored in the capital today. When I asked this question, the grown-up nightingales gave one reply: there is no more Garabagh and voices like that cannot be raised far away from home. It also seems that the musical phenomenon "Nightingales of Garabagh" is deliberately made into a remnant of the past, removed and adored, as are the lands that it stands for.

Voice as Pain

After singing the poetic text, Tajir performs a valiant leap upwards and sustains the highest tone in a voice that combines tension and purity. His virtuosic embellishments are followed by another thrust upwards before the final descent towards the end of the piece. It is precisely during these culmi-

nating seconds that Azerbaijanis imagine the beloved lands and recall traumatic events. For many of them, this *bayatı şiraz* means reliving the war, and the pain that arises from this experience is best expressed in the ambivalent, poignant zenith timbre of the Garabagh *səsi.* When they talk about what they feel, frequent words they resort to are wound (*yara*), separation (*hicran*), and suffocation (*boğulma*). The *zil* voice becomes the truth of trauma that is unknowable, that resides in the gaps of language, thought, and time. This voice allows the grieving of loss: loss of home, bodies, and a previous sense of self with its possibilities.

The affective power of the Garabagh voice originates in the place it holds in a *dəstgah*, the main cyclical genre for the exposition of *muğam* modes. In the overall staircase form of a *dəstgah,* this voice is found precisely at the peak point (*zil*) in terms of pitch and emotional force. Usually, the *zil* in a *dəstgah* is one octave above the main *mayə* section, and thus it carries the same name. To exemplify, in *bayatı şiraz dəstgah* the *mayə bayatı şiraz* is centered on the lower G and *zil bayatı şiraz* on the G one octave higher. *Zil* sentences are built with the same set of tones used in a *mayə* one octave below, and some *cümlə* are, in fact, exact repetitions. However, even if they are identical, the *zil* has an entirely different mood and intensity; in contrast to the meditative *mayə*, the *zil* is a vicious scream. The gradual transition from recitative (many words on one note) to chant (one syllable on many notes) in the course of a *dəstgah* (Babayev 1990), happens as the importance of pronunciation and clear delivery of meanings is eclipsed by the thrust of affect. That is, the *qəzəl* lines in *zil* are still intoned but they are stretched out with melismatic twists and turns. The *yardımçı ifadə vasitələri* ("auxiliary expressions"), such as "*yar*!" ("oh love!") and "*aman*!" ("alas!"), are copiously inserted to fully display the affective capabilities of *muğam* vocalization. Sitting in *xanəndə* lessons, I saw students trying to master the *zil* section as the most significant and yet most difficult component in a *dəstgah*. Demanding highest tones, most complex virtuosity, and greatest emotional intensity, this part is feared and many young musicians can never succeed at it, despite their teachers' fervent instructions: "Jump! Burn! Don't be scared!"

The face of a *xanəndə* singing in *zil* transmits torment and suffering. The eyes are closed, delineated by contorted eyebrows that point upwards to a deep crevice between them, and the mouth is wide open to enable the reaching of zenithal notes. Maria Cizmic's observation about the deliberate sensation of discomfort in a musical performance as a "way to bear witness to suffering" (Cizmic 2011: 67)[1] is pertinent here. In the *bayatı şiraz*, and

[1] Her analysis is about the severe and hurtful "hammering" required of a pianist in Ustvolskaya's compositions.

muğam zil overall, pain is produced in embodied performance, specifically through the straining of the vocal cords in high range. Listening to a performance, one's body mimics the singer's glottis contractions and one can sense this discomfort, which becomes a kind of a shared somatic state between the listeners and performers. This embodied tension in the timbre of the Garabagh voice coincides with the suffocation from the pain of war memories mentioned by many participants.

With its high altitude, tension at breaking point, and cries of "*aman*!" the grain of Garabagh voice is best described as expressing pain, but its affective potential has breadth and equivocacy. The rawness of affect in *zil* exclamations creates an experience that may encompass pleasure as well as pain. This ambivalence, surely, is related to the fact that suffering through trauma defies the constraints of language. As Cathy Caruth explains, trauma is the "the story of a wound that cries out, that addresses us in the attempt to tell us of a reality or truth that is not otherwise available" (Caruth 1996: 4); trauma is beyond consciousness and beyond comprehension, but it haunts us with its truth that is too unexpected and too soon to be fully known. This kind of truth cannot be captured in a straightforward way, but rather it is expressed with hints at the unknowing. I believe that the affectivity of the Garabagh voice to convey trauma lies in its liminality. The *zil* voice is strained and distressed, but full of ecstasy and bliss; it is described as painful, sweet, nostalgic and traumatic all at once. It is also located between text and atext in the "*aman*!" that signifies failure to represent powerful affective experience in words.

Intentionality and imagination of the beloved lands are ontological registers of *muğam* experience. The Garabagh voice is *about* an entity, and this about-ness is at the core of the experience. Ahmed poses the following question "How does pain enter politics?" and proposes that "the language of pain operates through signs" (Ahmed 2004: 20). The sound of *muğam* voice is such a sign, because its timbre's connection to a geographical region and its history has become a symbol of the ideal nation today, and listening to it, visions of the lands occupy the minds of musicians and listeners. It is mental imagery suffused with strong feelings that pervade in the minds of those listening to Tajir's *bayatı şiraz*, that is, they are oriented towards something in their imagination. One interlocutor said after listening to the performance:

> A human being has pure (*pak*) feelings, especially in youth. My eyes and mind have been attracted (*meyli çəkmək*) to those places [Garabagh]. It was so great there, for example, during the summer it was very cool and people were coming to rest. For us those places are irreplaceable, cannot be substituted (*əvəz edilməz*). Dur-

> ing the day those places pass in front of my eyes, and I also dream about those places at night. That's why for me these feelings cannot be substituted. Now we go to Agdam [few villages that were still part of Azerbaijan at the time of this interview] and we can see our mountains there, and my heart becomes so wounded, a bird can fly further and see but we cannot, and just look there with a feeling of separation (*həzrət*) (Nezaket Teymurova, interview, 29 May 2019).

Despite the many exclamations in *zil,* poetry is still the central text and invites engagement with its meanings. Listeners pay attention to the poetry and use imagery in the text to shape their experiences. In the performance we are discussing, the affective *yardımçı ifadə vasitələri* are triggered with the poetic lines. The melismatic techniques and *zəngulə* are a kind of response to the text, or a continuation of its meanings with affective surplus. In the work of Vincent Crapanzano, pain is beyond language and yet inseparable from it: "Pain's supposed resistance to language points to its attraction to language – to expression" (Crapanzano 2004: 80). The phenomenologist draws on Herder's idea that pain is at the origin of language because it demands cries, screams, expressions.

Affect participates in the interpretation of a traumatic event by national subjects. Its intensity and indeterminacy invite action, agency, and personal involvement for declaring a context as painful. Thus, although language may collapse where there is pain, this in itself provides a way towards new realizations, new ways of knowing and being. Music, especially the affectivity of timbre, allow one to make sense of suffering, leading to conclusion such as the one above that the beloved lands are irreplaceable. This interpretation of the traumatic event is empowerment, as Crapanzano notes: "Though others may know better, it is the sufferer who has the final say" (Crapanzano 2004: 86).

References:

1. Ahmed, Sara, 2014 The Cultural Politics of Emotion. Edinburgh: Edinburgh University Press.
2. Anderson, Benedict, 1991 Imagined Communities: Reflections on the Origin and Spread of Nationalism. London; New York: Verso.
3. Babayev, Elkhan, 1990 Ritmika Azerbaydzhanskogo Destgyakha [Rhythm of Azerbaijani Dəstgah]. Baku: Ishyg.

4. Barthes, Roland, 1977 Image, Music, Text. London: Fontana.
5. Caruth, Cathy, 1996 Unclaimed Experience: Trauma, Narrative, and History. Baltimore: Johns Hopkins University Press.
6. Cizmic, Maria, 2011 Performing Pain: Music and Trauma in Eastern Europe. New York: Oxford University Press.
7. Crapanzano, Vincent, 2004 Imaginative Horizons: An Essay in Literary-Philosophical Anthropology. Chicago: University of Chicago Press.
8. Smith, Anthony, 2003 Chosen Peoples: Sacred Sources of National Identity. Oxford; New York: Oxford University Press.
9. Stokes, Martin, 2010 The Republic of Love: Cultural Intimacy in Turkish Popular Music. Chicago: University of Chicago Press.
10. White, Geoffrey M., Emotional Remembering: The Pragmatics of National Memory. 1999 Ethos 27(4): 505-529.

P. Desyatniçenko

Sevgilər milləti: muğam, Qarabağ və Azərbaycanda milli eyniləşdirmə.

Açar sözdər: Azərbaycan, Qarabağ, muğam, sevgi, musigi, millətçiliy, səs, emosia

